www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-15 mart 2015-ci il Şənbə № 57 (6085) Qiymәti 40 qәpik

**Xəbər**

## Hərbi qulluqçumuz şəhid oldu

yazısı səh.2-də

**Gündəm**

### Əfvə 5 gün qaldı? - qızıl cümə axşamı olacaqmı...



Hüquq müdafiəçiləri və məhbus ailələri nikbindir; İnsan Haqları üzrə Birgə İşçi Qrupunun toplantısının keçiriləcəyi dəqiqləşib

yazısı səh.3-də

### Müsavat kütləvi aksiyalara başlayacaq

yazısı səh.5-də

### Azərbaycanda növbəti bahalaşma dalğası...

yazısı səh.14-də

### Ermənilər Bakıya gəlsin, gəlməsin...

yazısı səh.6-da

### Azərbaycanda daha bir müdhiş anti-narkotik əməliyyatı

yazısı səh.12-də

### Putin haqda sensasion xəbərlər

yazısı səh.9-da

### "Böyük Kürdüstan" Yaxın Şərqin şəklini dəyişir

yazısı səh.12-də

### Mümkün 3-cü Dünya müharibəsi və Azərbaycanın yeri

yazısı səh.9-da

*Fəzail Ağamalı:*

### "Gəncləri "Lənkəranski"nin yolunu tutmağa çağırmamışam"

yazısı səh.10-da

### QHT Şurası 387 layihəni maliyyələşdirdi

yazısı səh.2-də

### Həccə şəxsi pulu ilə adam göndərmək savabdırmı...

yazısı səh.15-də

### Dostunun arvadını alan İŞİD-çi Fuad Mövsümov polisə nələri danışdı...

yazısı səh.2-də

## "Vergi terroru" işsizlərin sayını hər gün artırır

# BÜDCƏ DOLUR, SAHİBKARLARIN İSƏ NARAZILIĞI ARTIR

Total vergi yığımı səbəbindən sahibkarların iş yerlərini bağlaması hökuməti müəyyən güzəştə məcbur edib; vergilər naziri Fazil Məmmədov "son aylar çoxlu düşmən qazandım" deyərək, hökumət üzvlərindən daha çox onun "yükün altına" verilməsindən gileylənib; hakimiyyət iqtisadi sektorda ciddi dəyişikliklər olacağını vəd edir




yazısı səh.5-də

## Azərbaycanın milli valyutasına və ordusuna real təhlükə - Avrasiya İttifaqı

Vahid rubl zonasının avrozonadan fərqi SSRİ ilə Avropa Birliyi arasındakı fərq qədərdir; müstəqil ordumuza, digər dövlət atributlarımıza təhlükə yaradan yolu artıq bir dəfə keçmişik...

yazısı səh.8-də



*İlham Əliyev:*

### "ASAN Xidməti Şuşada da yaradacağıq..."

yazısı səh.11-də



*Əhəd Abıyev:*

### "Müxalifət mitinq etməkdənsə, yaşıllaşdırma marafonuna qoşulub ağac əksin"

yazısı səh.4-də



*Pənah Hüseyn:*

### "Sistem dəyişməsə, siyasi partiyalarla bağlı köklü dəyişiklikləri də müşahidə edə bilməyəcəyik"

yazısı səh.3-də



## "Yalandır, Putinin uşağı olmayıb"

**Rusiya prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov prezidentin idmançı Alina Kabayevadan oğlunun dünyaya gəlməsi haqda xəbəri təkzib edib. Musavat.com xəbər verir ki, bu barədə o, "Forbes" nəşrinin xahişinə cavab olaraq bildirib.**

"Vladimir Putinin övladının dünyaya gəlməsi haqda informasiya həqiqətə uyğun deyil. Planlaşdırıram ki, imkanlı adamlara müraciət edim ki, ən yaxşı jurnalist zarafatı üçün müsabiqə elan eləsinlər" - deyib Peskov.

Qeyd edək ki, Kreml başçısının oğlunun doğulması haqda yoxlanılmamış xəbərlər son günlər bəzi Avropa nəşrlərində yer almışdı.

Putinin hazırda Marina və Katerina adlı iki yetkin qızı var.

## Vəkili Tərtər məhbusu ilə görüşə bilmir

### Suriyaya adam göndərməkdə ittiham olunan Vüqar Əliyevlə bağlı məhkəməyə müraciət olunacaq

**Vəkil Tərtər rayonunda saxlanılmış Vüqar Əliyevlə görüşə buraxılmır. Cavad Cavadov facebook səhifəsində yazıb ki, Tərtər rayonunda martın 10-da Daxili İşlər Nazirliyinin keçirdiyi əməliyyatla bağlı tutulanlardan biri V.Əliyevin hüquqlarının müdafiəsi ilə məşğuldur.**

O, martın 11-də müvəkkili ilə müqavilə bağlayıb. Həmin vaxtda V.Əliyevin saxlandığı DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gedərək orderini təqdim edib, hüquqlarını müdafiə etdiyim şəxslə görüşmək istəyib: "Mənə bildirdilər ki, hələ müstəntiq təyin olunmayıb. Bundan sonra müqaviləni surətli poçtla yolladım. Sənəd həmin gün çatıb. Məhkəmə nəzarəti qaydasında müdafiə hüququnun pozulması, müdafiəçi kimi görüşməyimə imkan verilməməklə bağlı martın 11-də Nərimanov Rayon Məhkəməsinə şikayət verdim. İstintaq orqanı mənə xəbər vermədən təqdimatla müraciət edib. Nərimanov rayon Məhkəməsi Vüqar Əliyev barəsində üç aylıq həbs qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edib. Cinayət Məcəlləsinin 228.1. maddəsi - qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmək, - ilə ittiham elan edilib".

Vəkil qeyd edib ki, martın 12-də də V.Əliyevlə görüş verilməyib: "İstintaq orqanının bu davranışı Vüqar Əliyevin səhhəti və durumu, ona işgəncə ehtimallarına dair təbii şübhələr yaradır. Eyni zamanda Daxili İşlər Nazirliyinin mətbuatda gedən rəsmi açıqlaması Vüqar Əliyevin təqsirsizlik prezumsiyasının kobud şəkildə pozulmasıdır. Bununla bağlı müdafiə tərəfi ayrıca məhkəməyə müraciət edəcək".

DİN və Baş Prokurorluğun mətbuat xidmətinin birgə məlumatına görə, Tərtər rayonunda Azərbaycan vətəndaşlarını Suriyada gedən döyüşlərə cəlb edən şəxslər tutulub. Nazirliyin xüsusi təyinatlı polis qüvvələri də cəlb olunmaqla Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, Tərtər Rayon Polis Şöbəsi və prokurorluğunun əməkdaşları tərəfindən həmin dəstənin 4 üzvü - əvvəllər məhkum olunmuş Zülfüqar İbrahimov, Mübariz Mirzəliyev, Şəmsəddin Abdullazadə və Vüqar Əliyev saxlanılıb.

Onların yaşadıqları mənzillərə baxış zamanı ümumilikdə 2 ədəd sandıqçası ilə birlikdə 1 avtomat, 800 qram partlayıcı maddə, alışdırıcıları ilə birgə 9 əl qumbarası, 170 ədəd patron, yayılması qanunla qadağan olunmuş xeyli sayda dini ədəbiyyat, disklər və digər maddi sübutlar götürülüb.

❑ **E.SALAMOĞLU**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# QHT Şurası 387 layihəni maliyyələşdirdi



## Milli Məclisdə qalmaqal

### Bələdiyyə mövzusunda Fəzail İbrahimli ilə Lətif Hüseynov üz-üzə gəldi

**Martın 13-də Milli Məclisin Regional məsələlər komitəsinin iclasında "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.**

Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə qeyd edib ki, bələdiyyə qulluqçuları ilə bağlı ayrı qanuna ehtiyac yoxdur və onu dövlət qulluqçularının etik davranış qaydaları kodeksi ilə birləşdirmək lazımdır". Deputat Fəzail İbrahimli isə deyib ki, qanun layihəsində ciddi boşluqlar var. "Çünki bəzi bələdiyyə sədrləri özlərini hələ də kiçik padşahlar kimi aparırlar. Bu qanun onların bu fironluğunun qarşısını almalıdır. Bəzi bələdiyyələr, bələdiyyə sədrləri dövlət mülkiyyətini öz şəxsi mülkiyyətləri hesab edirlər. Ancaq bununla bu sənədin elmi və hüquqi baxımından ciddi təkmilləşdirilməsinə ehtiyac var. Burada Azərbaycan dilinin bütün qaydalarına əməl olunmalıdır. Burada qeyd olunur ki, "qanunun məqsədləri"... Bu, nə deməkdir? Qanunun məqsədləri ola bilməz". Modern.az-ın məlumatına görə deputat Qalib Salahzadə həmkarı F.İbrahimliyə "niyə indiyə qədər belə çıxışları etmirdin? Dediklərinin hamısıilə razıyam" deyib.

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Lətif Hüseynov çıxışında bildirib ki, Azərbaycanda da bələdiyyə qulluqçuları ilə bağlı ayrıca qanunun qəbul olunmalıdır. "Qanunda elə məhz "məqsədləri" sözü yazılmalıdır. Bununla yanaşı, şəffaflılıq, səmərəlilik, vicdanlılıq, maraqların toqquşması məsələləri qanunda mütləq şəkildə əksini tapmalıdır",-deyə Fəzail İbrahimlinin iradlarına cavab verib.

F.İbrahimli isə L.Hüseynova cavabında belə deyib: "Elə məsələlər var ki, onlar nə Lətif Hüseynovun, nə Fəzail İbrahimlinin imkanı daxilindədir. Sizin çıxışınızdan isə belə başa düşdüm ki, "bu sənəd mənimdir və mən necə istəyirəmsə, elə də olmalıdır" prinisipini əsas tutmusunuz. Nə deyirəm, şükür məsləhətinizə".

A.Rəhimzadə müdaxilə edərək deyib ki, F.İbrahimlinin qanun layihəsində ciddi redaktələrə ehtiyac olması ilə bağlı dediklərində həqiqət var.

❑ **Cavid TURAN**




**Martın 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. İclasda çıxış edən Şura sədri, millət vəkili Azay Quliyev 2015-ci il birinci maliyyə yardımı müsabiqəsinin yekunları ilə bağlı fikirlərini açıqlayıb.**

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov 2015-ci il birinci maliyyə müsabiqəsinin 11 dekabr 2014-cü ildə elan olunduğunu və 15 yanvar 2015-ci ilədək QHT-lərin ərizələrinin qəbul edildiyini bildirib. Qeyd olunan dövrdə Şuranın elektron məlumat bazasına 584 layihə təklifi daxil olub ki, bunların 75-i müsabiqənin qayda və şərtlərinə cavab vermədiyi üçün texniki seleksiyadan keçməyib. 509 QHT-nin layihəsi isə ekspertizaya göndərilib. Seleksiyadan keçməyən QHT-lərə elektron bildiriş göndərilib və layihənin qeydə alınmamasının səbəbi göstərilib.

Şura üzvləri İlqar Məmmədov, Sahib Məmmədov, Əliməmməd Nuriyev, Vüqar Qədirov, Rəna Mirzəzadə və Gülnarə Hüseynova iclasda çıxış edərək gündəlikdə dayanan məsələlərlə bağlı təklif və rəylərini bildiriblər.

Şura geniş müzakirələrdən sonra büdcə komissiyasının təqdimatlarını, ekspert qiymətləndirməsini və təşkilatlar haqqında Katibliyin arayışlarını nəzərə alaraq, 387 QHT layihəsinin maliyyələşdirilməsi haqda yekun qərar qəbul edib.

Müsabiqə qaliblərinin siyahısı Şuranın www.cssn.gov.az və www.qhtxeber.az saytlarında yerləşdirilib.

İclasda Sahib Məmmədovun sədrliyi ilə apelyasiya komissiyasının yeni tərkibi müəyyən edilib. Apelyasiya komissiyasında ərizələr 19 mart 2015-ci il saat 18:00-dək qəbul ediləcək.

Azay Quliyev iclasda Şuranın 2013-cü ildən başladığı "Şuşaya Azadlıq" beynəlxalq kampaniyası çərçivəsində həyata keçirilən işlər haqqında ətraflı məlumat verib. Şura sədri beynəlxalq kampaniyanın loqosunun hazırlanması məqsədi ilə müsabiqə elan edilməsi haqqında təklifini səsləndirib. Müzakirələrdən sonra loqo müsabiqəsinin Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı vasitəsi ilə elan edilməsi və müvafiq maliyyə vəsaitinin ayrılması qərara alınıb.

Sonda cari məsələlər müzakirə olunub.

## Asim Mollazadə Çiliyə gedib



**Uruqvay səfərini yekunlaşdıran Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə Azərbaycan parlament nümayəndə heyətinin üzvləri ilə birlikdə Çiliyə gedib. Səfər zamanı deputatlar Çili parlamentinin və icra orqanlarının rəhbərləri ilə görüşüblər. Santiaqoda reallaşan görüşlərdə Azərbaycan-Çili əlaqələri, parlamentlərarası münasibətlər, müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, iki ölkə arasında dostluğun möhkəmləndirilməsilə bağlı fikir mübadiləsi aparılıb.**

Ticarət, enerji, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi iimkanları müzakirə edilib. Çili mediası azərbaycanlı parlamentarilərin səfəri barədə geniş materiallar dərc edib.

❑ **Vüqar MURAD**

## 14 saylı "zon"dan məhkumun qaçışının qarşısı alınıb?

**Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində saxlanan məhkumlardan biri oradan qaçmağa cəhd edib. Bu haqda müsavat.coma daxil olan məlumata görə, məhkum cəzaçəkmə müəssisəsinin ərazisini gizli yolla tərk etmək üçün anbara girib və orada gizlənib. Yoxlama zamanı müəssisədə saxlanan məhkumlardan birinin olmadığını öyrənən nəzarətçilər təcili onun axtarışlarına başlayıblar. Məhkum anbarda olan tikinti materiallarının altında aşkar edilib. Məsələ ilə bağlı Penitensiar Xidmətlə əlaqə saxladıq. Qurumun mətbuat xidmətindən bildirdilər ki, onlarda belə bir məlumat yoxdur.**

❑ **E.HÜSEYNOV**

## Hərbi qulluqçumuz şəhid oldu

**Martın 13-də erməni silahlı bölmələri atəşkəs rejimini pozaraq mövqelərimizi atəşə tutub. Müdafiə Nazirliyindən verilən məlumata görə, nəticədə Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Quliyev Orxan Vaqif oğlu düşmən tərəfindən açılan atəşdən şəhid olub.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır. Şəhid olmuş hərbi qulluqçumuzun qanı yerdə qalmayacaq və düşmənə vurulacaq zərbə daha da sarsıdıcı olacaq.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## Dostunun arvadını alan İŞİD-çi polisə nələri danışdı...

**Türkiyədə bir neçə ay əvvəl bir jandarma zabitini və bir polis əməkdaşını qətlə yetirməkdə ittiham olunaraq həbs edilən Azərbaycan vətəndaşı, İŞİD terror qruplaşmasının üzvü Fuad Mövsümovun polisə verdiyi ifadənin şok detalları yayılıb.**

Virtualaz.org saytı Türkiyə qaynaqlarına istinadən xəbər verir ki, Fuad Mövsümov daha iki İŞİD-çi ilə birlikdə Hatay bölgəsindən kirayələdikləri taksi ilə İstanbula gedərkən Niğdenin Ulukışla qəsəbəsi yaxınlığında avtomobili jandarma və polis əməkdaşları saxlayıb.

Təhlükəsizlik qüvvələrinin əməkdaşları avtomobildə axtarış aparmaq istərkən İŞİD-çilər onlara atəş açıb. Nəticədə bir jandarma zabiti və bir polis həlak olub. İŞİD-çilər həbs ediliblər. Onların məhkəməsinin yaxın vaxtlarda başlayacağı gözlənilir. Lakin təhlükəsizlik amilləri üzündən prosesin harada keçiriləcəyinə hələ qərar verilməyib.

F.Mövsümovun polisə verdiyi ifadənin mətbuata sızmış fraqmentinə görə, həmin İŞİD-çinin iki arvadı var. Onlardan biri ilə Azərbaycanda qanuni nikahla evlənib, digəri isə Suriyada döyüşməyə gedən dostunun Türkiyədə qalan arvadıdır və İŞİD-çi onu dini nikahla alıb.

Terrorçunun ifadəsindən: "2013-cü ildə Türkiyəyə hicrət etdim. Dini daha rahat yaşaya bilmək üçün buraya gəldim. Azərbaycandan tanıdığım Araz adlı dostumu tapmağa çalışdım. Ancaq İstanbulda onun özünü yox, ailəsini tapdım. Ailəsindən öyrəndim ki, Araz Suriyada Bəşər Əsəd qüvvələrinə qarşı döyüşmək üçün gedib və "Ömər Çeçen" ləqəbli şəxsin (söhbət İŞİD-in ən nüfuzlu hərbi komandirlərindən və əslən Gürcüstanın Pankisi dərəsindən olan Tərlan Batiraşvilidən gedir-red.) dəstəsindədir. Arazın arvadı Aidə ilə görüşdüm. O, ərinin qoşulduğu qrupun dindən azmış qrup olduğunu, bununla da onun özünün də dindən azmış ola biləcəyini, nəticədə aralarındakı dini nikahın qüvvədən düşdüyünü dedi. Mən də Aidənin uşağı ilə ortalarda qalmaması üçün ona evlənməyi təklif etdim, qəbul etdi. Evlənmək üçün sözləşdik. Azərbaycana döndüm, oradakı arvadımla bu məsələni danışdım. Mart ayında geri döndüm, Aida ilə dini nikah bağladıq".

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Vaqonyırğalayanlar

**Sosializmdə yalançı inkişaf, daha doğrusu durğunluq dövrünün iqtisadiyyatı haqda məşhur lətifəni bilənlərin sayının kifayət qədər çox olduğunu düşünürəm. Onu burada yenidən yazmaq fikrim yoxdur, çünki çox vaxt və yer aparır. Məğzini isə deyə bilərəm. Brejnevə (Sov.İKP-nin baş katibi) deyirlər ki, sosialist iqtisadiyyatının inkişaf qatarı artıq dayanıb, daha irəliləmir. O, da qatarın irəliləməsi üçün tədbir görmək əvəzinə, tapşırır ki, bir dəstə adam ayırın vaqonları yırğalasınlar. Sərnişinlər elə başa düşsünlər ki, qatar hərəkət edir.**

Eyni şey indi bizdə baş verir. İqtisadiyyatımızın tam neftdən asılı olduğunu hamımız bilirik. Dünyada neftin qiymətinin aşağı düşməsi ilə bağlı iqtisadiyyatımız tam dayanıb, hələ olsun ki, sürətlə geri gedir. Belə bir vaxtda iqtidarımız korrupsiyadan əl çəkmir, ölkəni iqtisadi-siyasi xaosdan xilas etmək üçün gerçək islahatlar aparmaq əvəzinə, vaqon yırğalamaq variantını seçib. Hər gün təzə bir sərəncam eşidirik: filan-filan idarələr, komitələr və nazirliklər ləğv edilsin, onların yerinə bayaq sadalanan orqanların funksiyasını birləşdirən filan idarə yaradılsın! Sonra da vaqon yırğalayan ekspertlər Az.Tv-yə yığışıb bu qərarı dünyada analoqu olmayan bir islahatın başlanğıcı kimi təqdim edirlər. Halbuki elə həmin vaqonyırğalayan ekspertlər "Azərpendir", "Azərtaksi", "Azərdolma", "Azəritburnu" kimi dövlət şirkətləri yaradılanda da müvafiq sərəncamların dünyada analoqu olmadığını və bunun sayəsində iqtisadi inkişafa görə ABŞ-dan 150, Avropadan 200, Rusiyadan 300, İrandan isə 500 il qabağa çıxacağımızı deyirdilər. Baxıram ki, o gün bir vaqonyırğalayan eksperti sərəncamdan sonra təzə yaradılmış "Azpentakdolitzib" haqqında tərif söyləmək üçün Az.Tv-yə çağırıblar. Televiziyanın aparıcısı yalnız üçüncü cəhddən sonra təzə dövlət konserninin adını tələffüz edə bildi. Hərif elə bilmişdi ki, bu nədirsə dərman adına oxşayır, yəqin dərman istehsalı ilə məşğul olacaq bir qurumdur. Amma vaqonyırğalayan ekspert o qədər də sadəlövh deyildi. Yadımdadır, o, peykimiz göyə çıxanda da bu studiyada olmuşdu və "nəhayət, bizim də öz peykimiz oldu" deyə ABŞ-a, ermənilərə və müxalifətə yandıq verməşdi. Bu dəfə o, təzə dövlət konserninin adındakı "az" hecasından sonra gələn növbəti iki hecanın "pentak" kimi səsləndiyini görüb daha dərinə getmədi. Qürurla dedi ki, nəhayət, bizim özümüzün də Pentaqonumuz olacaq. Sadəcə olaraq, bu qurum fəaliyyəti zamanı milli-mənəvi dəyərlərimizə əsaslanacaq. Bu bədbəxt heç başa düşmürdü ki, bu təzə dövlət konserninin adı "Azərpendir", "Azərtaksi", "Azərdolma", "Azəritburnu" və "Azərzibil" kimi köhnə nazirliklərin adından formalaşıb.

Müxalifət də bir himə bənd imiş. İqtidarın iqtisadiyyatımızı xaraba qoyduğunu, neft ucuzlaşandan sonra xarabanın özünü də təzədən xaraba qoyduğunu deyir. Bunu sübut etmək üçün heç uzağa getmir, elə iqtidarın statistikasının rəqəmlərinə istinad edir. Ancaq bu müxalifəti biz yaxşı tanıyırıq. O, uğurlarımızı görmək istəmir, hər şeyi qara rəngdə görür. Necə yəni bütün sahələrdə geriləmə var? İnsafınız olsun, bu qədər də yalan olar? Siyasi məhbus istehsalında zərrə qədər də azalma qeydə alınmayıb, əksinə, bütün dünyada bu sahədə ciddi böhran yaşandığı halda, bizdə ciddi artım qeydə alınıb. Üstəlik də Xədicə İsmayıla yeni ittihamlar üzrə əlavə cinayət işi qaldırılıb. Arif və Leyla Yunusların istintaq həbsi daha 5 ay uzadılıb, bir sıra müsavatçı və cəbhəçi tutulub və s. Hansı geriləmədən danışırsınız? Avropa İnsan Haqları Məhkəməsinin Əli İnsanov və İlqar Məmmədov haqqında qərarının özünün ölkəyə daxil olmasına imkan verilməyibsə, heç bir geriləmədən danışmaq olmaz.

**Hə, bax belə, iqtidar düşünür ki, vaqonyırğalayanlar qollarını çirmələyib xalqın mindiyi qatarın vaqonlarını nənni kimi yırğalayacaq, nəticədə xalq elə zənn edəcək ki, qatar irəliləyir, ya da onu nənnidə yırğalanan uşaq kimi şirin yuxu aparacaq. Hər iki variant ona sərf edir. Təki xalq "niyə irəli getmirik" deyə donquldanıb eləməsin. Ancaq alınmayacaq. Ac uşağı nə qədər yırğalayırsansa yırğala, o, yuxuya gedən deyil, getdikcə daha bərkdən ağlayacaq. Xalq da eləcə. Vaqonyırğalayanlar nə qədər yırğalayırlarsa yırğalasınlar, onu yuxuya vermək mümkün olmayacaq. Atalar sözü var ki, ilan vuran yatar, ac yatmaz. Odur ki, bir azdan bu xalqın çığırtısından qulaq tutulacaq.**

❑ **Tofiq YAQUBLU**

# Siyasi partiyaların problemləri müzakirə edilib

**Pənah Hüseyn:** "Sistem dəyişməsə, siyasi partiyalarla bağlı köklü dəyişiklikləri də müşahidə edə bilməyəcəyik"

**Qulamhüseyn Əlibəyli:** "Hakimiyyət istəmir ki, partiyalar cəmiyyətdə normal yer tutsun"



**Martın 13-də Bakıda Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) təşkilatçılığı ilə "Azərbaycanda siyasi partiyalar: mövcud durum və perspektivlər" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə ona yaxın siyasi partiyanın təmsilçisi iştirak edib. AMİP sədri Yusif Bağırzadə ilk olaraq çıxış edərək bildirib ki, siyasi partiyaların problemləri çoxdur. Bunların arasında hakimiyyətin yaratdığı problemlərlə yanaşı, partiyaların öz daxilindən qaynaqlananlar da var.**

**O, partiya rəhbərlərini və təmsilçilərini problemlərin müzakirəsinə dəvət edib.**

AMİP sədrinin sözlərinə görə, hazırda Azərbaycanda siyasi partiyaların aktivliyi azalıb. Bunun obyektiv və subyektiv səbəbləri var: "Bir tərəfdən siyasi partiyaların maddi-texniki bazasının olmaması, cəmiyyətdə siyasi partiyalara inamın az olması, hakimiyyətlə siyasi partiyalar arasında münasibətlərin normal olmaması, proporsional seçki sisteminin ləğv olunması və digər səbəblər buraya daxildir. Doğrudan da cəmiyyətin həyatında siyasi partiyaların rolu azaldıqca, radikal qüvvələrin təsiri artır". Y.Bağırzadə son vaxtlar baş tutan iqtidar-müxalifət görüşünün siyasi partiyaların vəziyyətinin dəyişməsində əhəmiyyətini də vurğulayıb.

**AMİP-in baş katibi Arzuxan Əlizadə** isə qeyd edib ki, ölkədə normal siyasi münasibətlərin olması üçün siyasi partiyalar fəallaşmalıdır. ASDP sədri Araz Əlizadə isə deyib ki, bu gün siyasi partiyalar iqtidar güclü olduğuna görə deyil, birləşə bilmədikləri və pərakəndə şəkildə fəaliyyət göstərdikləri üçün zəifdir. Onun sözlərinə görə, proporsional seçki sistemin ləğv edilməsi partiyaların çəkisini aşağı salıb. Digər tərəfdən, partiyalarda cavanlaşma getmir, gənclərə yer verilmir: "Düşünürəm ki, əgər bu olsa, tezliklə siyasi partiyalar güclənə bilərlər".

AXP sədri Pənah Hüseyn isə partiyaların düşdüyü durumu Azərbaycanda mövcud siyasi sistemlə bağlayıb: "Lakin əslində bu mövzu bu şəkildə



formulə olunsa belə qüsurdan xali olmur. Məsələn, "avtoritar və ya imitasyon demokratiyalarda siyasi partiyaların yeri və rolu" mövzusu xeyli dərəcədə bu mövzunu əhatə edir. Belə ki, avtoritarizm və ya imitasyon demokratiya həqiqi mənada siyasi partiyalar üçün rol və yer qoymur və yaxud da onu imitasiyaya çevirir. Azərbaycanda avtoritar və yaxud başqa terminlə desək, imitasyon demokratiya rejimi mövcuddur. Bu halda hansı islahatlar aparırsınız aparın, siyasi partiyalara qərargah verin və sair, heç nə dəyişməyəcək. Çünki bunun kökü hakimiyyətin qurduğu rejimlə bağlıdır. Sistem dəyişməsə, siyasi partiyalarla bağlı köklü dəyişiklikləri də müşahidə edə bilməyəcəyik". Onun sözlərinə görə, avtoritar rejimin dəyişməsindən sonra ölkədə kardinal dəyişikliklərə nail olmaq mümkün olar: "Burada da söhbət birinci azad və demokratik seçkilərin təşkilindən gedir".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev** isə bildirib ki, partiyaların problemlərini komplektləşdirmək lazımdır. Onun sözlərinə görə, problemlər və təkliflər irəli sürüb onları hakimiyyətə bir neçə partiyanın adından göndərmək lazımdır: "Biz təklifləri paket şəklində verək. Bunlara əməl eləməsələr, irad tutmaq üçün yer qalsın".

**ADP sədrinin müavini Taliyət Əliyev** qeyd edib ki, siyasi partiyaların inkişaf etməsi üçün ölkədə münbit şərait yoxdur. Onun sözlərinə görə, sivil qaydada siyasi mübarizə aparan partiyalar sıradan çıxarıldıqca yerini radikal mübarizə yolunu aparan qruplar tutur. O da problemləri diqqət mərkəzində saxlamağın vacib olduğunu vurğulayıb.

**"Aydınlar" Partiyasının sədri Qulamhüseyn Əlibəyli** isə deyib ki, partiyaların arasındakı normal olmayan, hətta bəzən mətbuat səhifələrində təhqir səviyyəsinə çıxan münasibət vətəndaşları siyasi partiyalardan çəkindirir. Onun sözlərinə görə, partiyaların qarşılaşdıqları problemlər hakimiyyətin siyasi partiyalara münasibətdə yaratdığı vəziyyətdir: "Hakimiyyət istəmir ki, partiyalar cəmiyyətdə normal yer tutsun". Digər çıxış edənlər də partiyaların qarşılaşdıqları problemləri sadalayıblar, həmçinin, problemdən çıxış yolları təklif ediblər.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Əfvə 5 gün qaldı? - qızıl cümə axşamı...

## Hüquq müdafiəçiləri və məhbus ailələri nikbindir; İnsan Haqları üzrə Birgə İşçi Qrupunun toplantısının keçiriləcəyi dəqiqləşib

**Novruza sayılı günlər qalıb. Əfv sərəncamının verilməsi ilə bağlı yayılan xəbərlər öz təsdiqini tapmaqdadır. Hüquq müdafiəçiləri və məhbus ailələri də nikbindir. Onların bu bayramdan gözləntiləri çoxdur. Bayramqabağı İnsan Haqları üzrə Birgə İşçi Qrupunun toplantısının keçiriləcəyi də dəqiqləşib.**

İşçi Qrupunun üzvü Novella Cəfəroğlu hazırladıqları siyahını Əfv Komissiyasına göndərdiklərini bildirdi: "Siyahıları hazırlayıb göndərmişik. İşçi Qrupunun iclasını gözləyirik. Qurumun toplantısının keçirilməsi Avropa Şurasının nümayəndəsindən, Səməd Seyidov və Fuad Ələsgərovdan asılıdır. Bizim bütün işlər hazırdır. Bizə dedilər ki, 10-15 mart arası toplantı olacaq. Çünki siyahılarımıza artıq Əfv Komissiyası baxır. İşçi Qrupunda isə özümüz həmin şəxslər barədə məlumat verməliyik. Əfv qabağı İşçi Qrupu mütləq toplaşacaq. Bundan əminəm".

Novella Cəfəroğlu əfvə inandıqlarını söylədi: "Ümidimizi bir an belə kəsmirik. Qeyd edim ki, dekabrda göndərdiyimiz siyahının üzərində işləmişik. Yəni əlavələr etmişik. Dekabrdakı siyahımızdan 5 nəfər azad olundu. 5 nəfər də Rəsul Cəfərovun siyahısından azadlığa çıxmışdı. Onlar İşçi Qrupuna ərizə yazmışdılar. Onların ərizələrini siyahının içərisinə qoymuşduq".

Qeyd edək ki, əfvlə əlaqədar yayılan xəbərlərdən biri də prezidentə müraciət edən məhbuslarla bağlıdır. Bildirilir ki, əfv əsasən, bu məhbuslara şamil olunacaq. Hazırda ölkə başçısına müraciət edən 9 siyasi məhbus var. Onlardan məhkəməsi getdiyinə görə, Rəsul Cəfərovun şansı olmasa da, digərlərin ki, yüksəkdir. Bunlar Pərviz Həşimli, Hilal Məmmədov, Rəşadət Axundov, Rəşad Həsənov, İlkin Rüstəmzadə, Məmməd Əzizov, Ömər Məmmədov və Əbdül Əbilovdur.

**Novella Cəfəroğlu bu fikirlərə də aydınlıq gətirdi:** "Müraciət sözsüz ki, nəzərə alınacaq. Amma siyahımızda müraciət etməyənlər də var. Xəstələri xüsusisən nəzərə almışıq. Ümid edirik ki, üzümüzə gələn əfv əvvəlkilərdən fərqlənəcək. Qarşıdan Avropa Oyunları gəlir. İstəyirik ki, hər şey Azərbaycanın xeyrinə olsun. Bu baxımdan böyük əfv olacağına inamımız yüksəkdir".

Hüquq müdafiəçisi İşçi Qrupuna məhbuslar tərəfindən edilən müraciətlərdən də danışdı: "Biz müraciət edən və etməyənlər arasında fərq qoymuruq.



Novella Cəfəroğlu

Əfvdə xəstə məhbusların da azadlığa çıxma ehtimalları yüksək görünür. Siyahımızda hamısının adı var. İstəyirik ki, xəstəlikləri nəzərə alınsın".

**N.Cəfəroğlu əfvqabağı görüşlərinin davam etdiyini də diqqətimizə çatdırdı:** "Əfv Komissiyasının üzvləri ilə mütəmadi danışır, görüşlər keçiririk. İşçi Qrupunun digər üzvləri də dövlət qurumları ilə danışıqlar aparırlar. Vaxtımızı elə bölmüşük ki, aidiyyəti qurumlar və insanların hamısı ilə əfvə qədər görüşmək fikrindəyik. Siyahılarımızda sırf siyasətlə məşğul olan məhbuslara böyük üstünlük veririk".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015

# "Müxalifət mitinq etməkdənsə, yaşıllaşdırma marafonuna qoşulub ağac əksin"

## Əhəd Abıyev: "Hansı məmur qiymət artırırsa, xalqın və cənab prezidentin zəhməti ona haram olsun"



**Müsahibimiz Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevdir.**

***- Əhəd müəllim, rəhbəri olduğunuz rayon Azərbaycanın ən sərt iqlimə malik bölgələrindəndir. Buranın yayı nə qədər sərin keçsə də, qışı çox soyuq və sərt olur. Yazın gəlişinə az qalır, havalar isinməyə başlayır. Hazırda rayonda vəziyyət necədir?***

- Doğrudan da Daşkəsən Azərbaycanın ən sərt iqlimi olan rayonlarından biridir. Bu rayon Azərbaycanın Uralı sayılır. Burda sentyabrın sonlarından aprelə ayına qədər qar olur. Mart ayının ikinci yarısı olsa da dağlar, yamaclar ağ örpəkdən hələ çıxmayıb. Qış burda çox sərt keçir. Əhali əsasən maldarlıqla və əkinçiliklə məşğuldur. Çalışırıq rayon sakinləri əziyyət çəkməsinlər. Mən bura təyin olunduğum 4 il 4 ay müddətdə çalışmışam ki, yaxşı işlər görəm, cənab prezidentin etimadını doğruldam. Bu müddət ərzində rayonda xeyli yol çəkilişi etmişik. Dövlətin, möhtərəm prezidentin qayğısı və diqqəti sayəsində Daşkəsənin yolları abadlaşdırılır, ermənilərlə sərhəddə yerləşən hərbi hissəyə yol çəkilib, qaz çəkilib. Əsgərlərimiz rahat şəkildə Vətəni düşməndən qoruyurlar.

Rayon mərkəzində də quruculuq-abadlıq işləri aparılır. Yeni inzibati binalar tikilir. 187 evin damının yeni müasir örtüklərlə dəyişdirilməsi həyata keçirilib. Daşkəsən rayonunda su və kanalizasiya ilə bağlı iri miqyaslı layihəyə start verilib. Artıq işə başlanıb. Hər evdə təmiz, şəffaf su olmaqla təxminən 300 nəfər yerli əhali işlə təmin olunacaq, 30 milyon dollar vəsait ayrılıb bu layihəyə. Layihəni xaricdən gələn məşhur şirkət həyata keçirəcək.

Daşkəsən qızıl zavodunda açılış üçün tamamlama işləri aparılır, bu da 350 nəfərlik yeni iş yerinin açılması və iqtisadi gəlir gətirməsi deməkdir.

***- Yerli əhali rayonda otlaq sahələrinin ayrı-ayrı rayonlara verilməsi ilə bağlı narazılıq edirdilər. Siz də müsahibələrinizdə bu problemə tez-tez toxunursuz. Bu məsələlər yoluna qoyuldumu?***

- Bəli, Daşkəsəndə bu problem çox ciddi narazılıqlar yaradırdı. Yerli əhali haqlı olaraq deyirdi ki, niyə bizim otlaq sahələrimiz ayrı-ayrı rayonlara verilir? Bəs biz özümüz mal-qoyunumuzu harda otaraq?

Bu problem Sovet dövründən başlayıb. Azərbaycan SSR Nazirlər Sovetinin 1951-ci il tarixli 156 saylı və 557 saylı birgə qərarları ilə Ağstafa, Qazax, Tovuz, Şəmkir, Göygöl, Samux və Yevlax rayonlarının ərazisindəki kolxoz və sovxozlara Daşkəsən ərazisindəki yaylaqlar heyvandarlıqla məşğul olmaları üçün istifadələrinə verilib. Bildiyiniz kimi müstəqillikdən sonra sovxoz və kolxozlar ləğv olunub. Sovxoz və kolxozun mal-qaraları yerləşdikləri rayonların ərazisində yaşayan yerli vətəndaşların özünə verilib. Daşkəsənə gətirilən davarların yerləşdirilməsi çətinliklər yaradırdı. Bununla bərabər yay otlaqlarına normadan artıq mal-qara gətirilməsi nəticəsində ot örtüyü tamamilə məhv olurdu, mal-qaranın gətirildiyi yollar dağılır, baytarlıq-sanitariya, otarma norma qaydalarına əməl olunmurdu. Rayona mal-qaranı yaylağa gətirən qonşu rayonların fiziki və hüquqi şəxsləri qaçqın və məcburi köçkünlərin adı altında torpaqları zəbt edirdilər. Halbuki həmin mal-qara və qoyun sürülərini otaran çobanların heç 5 baş qoyun-quzusu yoxdur. Hamısı ayrı-ayrı məmurların, səlahiyyət sahiblərinin fermer təsərrüfatlarıdır. Bu da yerli əhali, kənd camaatı ilə müəyyən problemlər yaradır, qarşıdurmalar olur, kriminal hadisələr baş verirdi. Müəyyən mafioz qüvvələr yay otlaq sahələrini uzun müddətdir ki, zəbt etmişdilər, qanunsuz əməllərlə məşğul olurdular. Daşkəsən əhalisi otlaq sahələri yerləşən torpaqları zəbt olunduğu üçün yerli və mərkəzi icra hakimiyyəti orqanlarına şikayət və ərizə yazaraq narazılıqlarını bildirirdilər. Öz yaylaq torpaqlarının özlərinə qaytarılmasına köməklik olunmasını istəyirdilər.

İcra hakimiyyətinin və yerli əhalinin mərkəzi icra orqanlarına etdikləri bu müraciətlərə müsbət baxıldı və problem öz həllini tapdı. Artıq Daşkəsənin yay otlaq sahələrinin istifadəçiliyi yerli əhalidədir.

***- Rayonda iqtisadi vəziyyət necədir? 21 fevral tarixində manatın devalvasiyası baş verdi. Dollar bahalaşdı. Bunların Daşkəsən rayonuna təsirləri necə oldu?***

- Daşkəsəndə qiymətlərə şəxsən özüm nəzarət edirəm. Ərzaq məhsullarının nəinki bahalaşmasına imkan vermirəm, əksinə, bir qədər də xalqa sərfəli qiymətə satılmasına göstəriş vermişəm. Heç kim bu məsələdə çaşa bilməz. Kim çaşsa dərhal qanunla cəzalandırılar. Mən icra başçısı olaraq sərəncam verib komissiya yaratmışam. Yarmarka və bazarlara nəzarət edirik.

Bu prosesdən sonra bəzi dələduzlar, fırıldaqçılar süni şəkildə qiymət artımına getməyə çalışır. Hüquq mühafizə orqanları bu cür şəxslərin pis niyyətinin qarşısını almaq üçün lazımi tədbirlər görür.

***- Əhəd müəllim, gəlin etiraf edək ki, iqtisadi prosesləri hüquq mühafizə orqanlarının əli ilə tənzimləmək doğru deyil. Bu, heç bir müsbət nəticə verməyəcək.***

- Haqlısız. Mən də bunun tərəfdarı deyiləm. Söhbət nədən gedir, bilirsinizmi?

***- Nədən gedir?***

- Ondan gedir ki, hüquq mühafizə orqanlarının bu müdaxiləsi ölkənin iqtisadi-siyasi sabitliyinin qorunmasına hesablanıb. Bu vəziyyətdən istifadə edən bəzi qüvvələr, xarici və daxili təxribat qrupları xalqı dövlətdən və hökumətdən narazı salmaq üçün provokasiyalara əl atırlar. Nəticədə qiymətlərdə süni artım olur. Azərbaycanı istəməyən qüvvələr belə məqamlarda fəallaşırlar.

Yeri gəlmişkən, Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının Azərbaycanda qarışıqlıq yaratmaq istəyən qüvvələri vaxtında aşkarlayıb ifşa etməsi çox ciddi işdir. Buna görə MTN-ə, xüsusilə də hörmətli cənab nazir Eldar Mahmudova qəzetiniz vasitəsilə öz təşəkkürlərimi çatdırıram. Martın 28-də onların peşə bayramıdır. Bu münasibətlə cənab Eldar Mahmudovu öncədən təbrik edirəm. Həmçinin Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, hər iki qurumun rəhbərləri olan cənab baş prokuror Zakir Qaralova, hörmətli cənab nazir Ramil Usubova dövlətçilik uğrunda gördükləri böyük işlərdə müvəffəqiyyət arzu edirəm.

Bilirsiniz, insanların həssas məqamından sui-istifadə edib öz çirkin niyyətlərinin həyata keçirməyə çalışan Azərbaycanı istəməyən qüvvələr var. Dövlətin ayrı-ayrı strukturları bu təxribatın qarşısını almasa, proseslər daha pis məcraya yönələr. Ona görə də dövlət özünün sərt üzünü xarici təxribatçılara və onların əlaltılarına vaxtında göstərməlidir.

***- Həmişə olduğu kimi yenə müxalifəti suçlayacaqsız?***

- Müxalifətdə, vətənpərvər insanların olmasına şübhə etmirəm. Onlar Qarabağ və digər ümumilli məsələlərdə həmişə dövlətçilikdən tərəf olublar, indi də inanıram ki, o mövqedədirlər. Amma təəssüf ki, müxalifətin içində də xarici havadarlarından pul qoparmaq məqsədilə hər cür təxribatçılıq işlərinə qol qoyan azsaylı qüvvələr var. Bəzi partiyalar və onların xaricdən maliyyələşən rəhbərləri bir məqam gözləyirlər qarışıqlıq yaratsınlar.

***- Əhəd müəllim, müxalifətin əlində heç bir resurs yoxdur. Onlar qiymətləri necə artıra bilərlər? Bu cür rıçaqlar ayrı-ayrı məmurlara məxsusdur. O məmurların bazarı, şadlıq evləri, istehsal müəssisələri var. Bəlkə bu haqda danışasız...***

- Əgər bu prosesdə, yeni qiymət artımında hansısa məmurun əli varsa, dövlətin, xalqın, cənab prezidentin zəhməti ona haram olsun. İnanıram ki, prezident bu cür dələduzlara və fürsət yoxsullarına heç vaxt imkan verməyib, yenə verməyəcək. Lazım gəlsə onları yerlərində oturdacaq.

***- Məsələn, necə oturdacaq onları yerlərində?***

- Cənab İlham Əliyev vaxtaşırı çaşan, cızığından çıxan məmurlara və onların ərköyün övladlarına barmaq silkələyir. Məsələn, möhtərəm prezident bu yaxınlarda keçirdiyi müşavirələrin birində dedi ki, məmurlar xalqın xidmətçiləridir. O, özünü xalqın 1 nömrəli xidmətçisi elan etdi. Görürsünüzmü, cənab İlham Əliyev nə qədər təvazökar ölkə başçısıdır. Vallah, Yer üzündə belə sadə, vətənpərvər, xalqını sevən dünya şöhrətli ikinci prezident yoxdur.

***- Avropa Yay Oyunları yaxınlaşır. Bununla bağlı hakimiyyətdə xeyli narahatlıq hiss olunur. Rəsmi təbliğatda əsas xətt budur ki, xarici və daxili qüvvələr bu nüfuzlu idman yarışması ilə bağlı Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq istəyirlər.***

- Bəli, təəssüf ki, belədir. Ölkəmizin uğurunu gözü götürməyən qüvvələr var ki, onlar Avropa Yay Oyunları ərəfəsində fəallaşıblar. Azərbaycan haqda doğru olmayan əsassız fikirlər yaymaq istəyirlər. Düzdür, beynəlxalq ictimaiyyət kimin kim olduğunu yaxşı bilir. Son illər Azərbaycanın bütün dünyanı riqqətə gətirən iqtisadi-siyasi uğurları, cənab prezidentin həyata keçirdiyi müvəffəqiyyətli daxili və xarici siyasət Azərbaycan barəsində yaxın-uzaq ölkələrdə müsbət fikirlər yaradıb. Görünür elə bu uğurlar bəzi düşmən qüvvələri narahat edir. Onlar Azərbaycandakı əlaltıları vasitəsilə dövlətçiliyimizə zərbələr vurmaq istəyirlər, qara piar kampaniyası aparmaq cəhdləri edirlər. Bunların da qarşısı alınır, alınacaq. Heç kim Azərbaycanın qarşısında duruş gətirib onun qüdrətini zəiflədə bilməz.

Yeri gəlmişkən, bu yarışda Daşkəsəndən 20 nəfər tanınan idmançı-məşəldar fəal iştirak edəcəklər.

***- Əsasən müxalifətçilərin, dindarların, QHT rəhbərlərinin və jurnalistlərin həbsləri ilə gündəmə gəlir Azərbaycan hökuməti xaricdə. Yaxşı olmazmı ki, insanları haqsız yerə tutmayalar, bu cür tənqidlər də olmaya?***

- Əvvəla, heç kim siyasi və peşə fəaliyyətinə görə təqib olunmur, həbs edilmir. Konkret cinayət törədən adamlar qanun qarşısında cavab verirlər. İkincisi, lap tutaq ki, heç bir həbs olmadı. İnanın ki, o qüvvələr yenə də bir bəhanə uydurub dövlətçiliyə qarşı çıxışlar edəcəklər, öz böhtan xarakterli fəaliyyətlərindən əl çəkməyəcəklər.

***- Bu günlərdə Rusiya Federasiyasının prezidenti Vladimir Putin iki Azərbaycan rəsmisini - Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovu və Milli Məclisin sədri Oqtay Əsədovu "Dostluq" ordeni ilə təltif edib. Bu, birmənalı qarşılanmadı. Müxalifət və bəzi siyasi ekspertlər bunu tənqid etdilər. Sizin bu olaya münasibətinizi bilmək maraqlı olar.***

- Mən bu addımı çox yaxşı qarşıladım. Rusiya Azərbaycanın qonşusudur. Nəhəng dövlətdir. Bu cür dövlətlə dost olmağın nəyi pisdir ki? Bugünkü müxalifət hakimiyyətdə olanda deyirdi ki Moskvaya bayraq sancacağıq, ay nə bilim, Təbrizi Azərbaycana birləşdirəcəyik. Axırda nooldu? Dövlət idarə etməklə, meydanda mitinqdə qışqırmağı qarışdırmaq olmaz.

Fürsətdən istifadə edərək mitinq şousu göstərənlərə üzümü tutub deyirəm: 300 nəfəri meydana toplayıb yalandan qışqırmaqdansa ümumrespublika yaşıllaşdırma marafonu çərçivəsində yerlərdə ağac əkmək aksiyasına qoşulun. Bu aksiyaya kim qoşulmursa ermənının təxribat dəyirmanına su tökür. Onsuz da mitinqə çıxanların əlindən bir iş gəlmir, heç olmasa hərəsinə bir ağac əkib təbiətə xeyir versinlər.

Əminəm ki, Rusiya prezidenti cənab Putinin iki Azərbaycan rəsmisinə bu cür orden verməsi iki ölkə arasında dostluq münasibətlərini daha da möhkəmləndəcək. Mən hörmətli Əli Həsənovu, o cümlədən hörmətli Oqtay Əsədovu bu münasibətlə təbrik edirəm. Onlara hər iki ölkə arasında daha dərin dostluq münasibətləri yaratmaq istiqamətində uğurlu fəaliyyət arzu edirəm.

Sonda qeyd edim ki, bu gün daşkəsənlilər ölkə rəhbərinin apardığı uğurlu siyasətə dəstək verir. Hər birimiz böyük məhəbbətlə ürəyimizdə möhtərəm prezident İlham Əliyevin abidəsini gəzdiririk. Prezident milli sərvətimizdir, Allah onu qorusun, o da dövlətimizi və xalqımızı.

❑ E.MƏMMƏDƏLİYEV




# "Vergi terroru" işsizlərin sayını hər gün artırır

# Büdcə dolur, sahibkarların isə narazılığı artır

## Total vergi yığımı səbəbindən sahibkarların iş yerlərini bağlaması hökuməti müəyyən güzəştə məcbur edib; vergilər naziri Fazil Məmmədov "son aylar çoxlu düşmən qazandım" deyərək, hökumət üzvlərindən daha çox onun "yükün altına" verilməsindən gileylənib; hakimiyyət iqtisadi sektorda ciddi dəyişikliklər olacağına vəd edir

**Neftin qiymətinin düşməsinin manata və ölkə iqtisadiyyatının demək olar ki, bütün sahələrinə ciddi təsiri hər keçən gün daha çox hiss edilməkdədir. Hökumət büdcə xərclərinə nəzarəti gücləndirməyə, qiymət artımının qarşısının inzibati üsullarla almağa çalışır. Bununla bərabər sahibkarların və daha iri şirkətlərə nəzarət edən oliqarxların "boğazından"dan bərk-bərk yapışıb. Bu proses artıq tək paytaxt Bakını deyil, ucqarlarda da ciddi narahatlıq doğurmağa başlayıb.**

Bizi bilgiləndirən qaynağın iddiasına görə, bəzi iri oliqarxlar bir sıra iri və nisbətən xırda şirkətlərini bağlamağa məcbur olublar ki, bunların bir çox istehsal müəssisələridir. Məcburi məzuniyyətə göndərilən işçilərə bunun "müvəqqəti, amma nə konkret nə zamanadək davam edəcəyi", deyilməyib. Ölkədə işsizliyin artması isə sosial gərginliyə səbəb ola bilər ki, indilikdə bu iqtidara əlavə başağrısı gətirər.

**Mənbəmiz deyib ki, bu cür vəziyyət Vergilər Nazirliyini dərhal müəyyən "güzəştə" vadar edib.** Nazirlik "istehsal müəssisələrini bağlamayın, müəyyən güzəştə gedərik" mesajını verib. "Müəyyən güzəşt" dedikdə isə əslində burda yenilik yoxdur. Əvvəllərdə müəssisəyə "çökən" vergi müfəttişləri həm istehsal olunan mallarla, həm buradakı işçilərlə bağlı vergini yarıbayarı toplayırdı. Son iki ayda isə "hamısını verin" deyilməsi sahibkarları bütün qazancdan qoyur ki, aydındır ki, heç bir ağlı başında olan iş adamı əlindəkinin hamısını yalnız vergiyə getməsinə razı ola bilməz...

**Bu narazılıqlar fonunda oliqarxların biri ilə yaxınlığı iddia edilən deputat Qüdrət Həsənquliyevin açıqlaması da diqqətçəkəndir.** Q.Həsənquliyev deyib ki, mərhum prezident Heydər Əliyevin zamanında Vergilər Nazirliyi istənilən an gedib sahibkarı yoxlaya bilməzdi: "Nəinki yoxlaya bilməz, heç gedib o binaya girə bilməzdi. Yəni qanunla dəqiq müəyyənləşib ki, sahibkar ildə neçə dəfə yoxlanıla bilər və hansı hallarda hansı yoxlama aparıla bilər. Vergilər Nazirliyi yalnız qanunla müəyyən olunmuş müddətdə sahibkarın fəaliyyətini yoxlaya bilər. Çox müxtəlif dövlət orqanları sahibkarların fəaliyyətinə müdaxilə edir. Nəticədə də sahibkarlar çətin duruma salınıb, xüsusilə son 3 ay ərzində bu daha çox hiss olunur, ona görə ki, bizə müraciətlərin sayı artır. Biz görürük ki, sahibkarlar çox əziyyət çəkirlər. Sahibkarların fəaliyyətinə bu formada müdaxilə sonda ölkədəki iqtisadi və sosial durumu xeyli pisləşdirəcək. Ona görə ki, xalqı əsas saxlayan kiçik və orta sahibkarlardı. Camaata çörək verən, onları dolandıran bunlardır. Sahibkarlıq mühiti də korlandıqca bu onlarla, yüzlərlə ailənin çörəksiz qalması ilə nəticələnəcək. Çünki tutaq ki, əgər əvvəllər bir kiçik sahibkar 5 ailəni dolandırırdısa, 10 nəfərə də iş verirdisə, indi nə qohum-əqrəbasına kömək edə, nə 10 nəfər işçi saxlaya biləcək. Əgər gəlirlərinin böyük bir hissəsini tutub əlindən alırlarsa, bunun ağır fəsadları qaçılmaz olacaq" deyə, deputat bildirib. Q. Həsənquliyev əlavə edib ki, bunun qarşısı alınmazsa, vəziyyət daha da pisləşəcək: "Mən bunu deməkdən çəkinmirəm və bilirəm ki, son vaxtlar sahibkarlar aqressiv formada talan olunur. Bunun qarşısı alınmasa hamımızın sərnişini olduğumuz Azərbaycan adlı gəmini aşkar təhlükə gözləyir".

**Məlumatlara görə, indi ən çox narazılıq edilən vergilər naziri Fazil Məmmədov da yaxın ətrafına "son aylar çoxlu düşmən qazandım" deyərək, hökumət üzvlərindən daha çox onun bu cür "yükün altına" verilməsindən gileylənib.** Xəbər verdiyimiz kimi, nazirə tapşırılıb ki, istisnasız olaraq məmur-oliqarxların nəzarətində olan bütün istehsal müəssisələri - fabrik-zavodları, mini və hipermarketləri, o cümlədən mehmanxana və restoranları son iki ayda vergiyə cəlb edilib. Bu vergitoplama oliqarxların nəzarətində olan ən xırda klinikalarından tutmuş, iaşə obyektlərinədək, tətbiq edilir. Üstəlik, əvvəllər iri müəssisələrini külli miqdarda vergidən yayındıraraq büdcəyə simvolik məbləğ ödəyən oliqarxlar indi vergi müfəttişlərinə hesabat yox, büdcəyə astronomik rəqəmli "hesab" verirlər. Vergilər Nazirliyi "vurulan" obyektləri tam sənədləşdirir, yəni yığılan vergidən bir manat belə müfəttişə rüşvət kimi verilməsindən söhbət belə gedə bilməz. "Yoxlamaların bir çoxu və alınan vergi nə qədər qanunsuz olsa da, büdcəyə oturdulan pul sənədi qəpiyinəcən dəqiqdir". Bu cür total yoxlamalara məruz qalmış sahibkarlardan biri əməkdaşımıza belə söyləyib.

**Ciddi narazılıqdan xəbərdar olan iqtidar yetkililəri də sahibkarları arxayın edib ki, ölkə ciddi sınaq qarşısındadır və xüsusilə vergi ilə bağlı görülən tədbirlər müvəqqəti xarakter daşıyır.** Belə ki, Avropa Yay Oyunlarından dərhal sonra hakimiyyət iqtisadi sektorda ciddi dəyişikliyə start veriləcək. Öncə sahibkarların ən yaralı yeri olan və korrupsiyanın ən çox tüğyan etdiyi gömrük sisteminin şəffaflaşdırılmasına başlanılacaq. Gömrük yüklərinin rəsmiləşdirilməsi "ASAN Xidmət"ə veriləcək, idxal monopoliyası aradan qalxacaq. Hakimiyyət bu yolla həm də gömrükdən yayındırılan büdcə gəlirlərinin ən azı 3-4 milyard manat artmasını proqnozlaşdırır. Yeri gəlmişkən, iqtidarın neft pullarının azalması ilə yanaşı, ölkə xaricində yerləşdirilən iri maliyyələrin çıxarılması üçün müəyyən edilmiş sürəcin hələ tamam olmaması səbəbindən də (əks təqdirdə müqavilə pozulmuş sayıla və ölkə ciddi məbləğ itirə bilər) yarandığı xəbəri var. Amma bu da müvəqqətidir...

❑ Xəbər xidməti

# Müsavatda iki narazının məsələsinə baxılacaq

**Müsavat Partiyasının Divan üzvü Nemət Kərimli bəyan edib ki, ADR Hərəkatının gələcəkdə partiyaya çevrilməsi Müsavatın elektoratına təsir göstərə bilməz. Onun sözlərinə görə, ADR təxminən 18-19 rayon təşkilatının yarandığını elan edib. Orta hesabla həmin rayon təşkilatlarında da Müsavatdan ən çoxu 5-6 nəfər, bəzilərində isə 1-2 nəfər iştirak edir.**

Həmin göstəricilər isə Müsavatın rayon təşkilatının ümumi sayının 1 faizindən də aşağıdır: "Belə olan halda ADR Hərəkatı partiyaya çevriləcəksə, Müsavat Partiyasından sıfıra yaxın faizin ehtiva etdiyi rəqəmdə üzv ADR-ə qoşulacaq. Digər tərəfdən, Qubad İbadoğlunun yanında olan şəxslərin Müsavatda xüsusi bir fəaliyyəti olmayıb ki, partiyadan çıxanda da yerləri görünsün. Qubad İbadoğluna Müsavat Partiyası öz qiymətini verdi. Faktiki olaraq, Qubad İbadoğlu qurultayda 40 faiz səs almışdısa, ADR Hərəkatı yarananda müsavatçıların heç 2 faizi onun yanında deyildi. Ellada Məmmədli Müsavat Qadınlar Birliyinin sədri seçiləndən bəri təşkilat iflic vəziyyətdədir. Belə davam edərsə, yəqin ki, Qadınlar Birliyinin fəaliyyəti partiya rəhbərliyində müzakirə olunacaq. Vurğun Əyyub dəfələrlə bəyan edib ki, özünü Məclis üzvü hesab etmir. Buna görə də onun adı növbəti iclasların birində Məclis üzvlüyü siyahısından çıxarılacaq".



**Nemət Kərimli:**
"Ellada Məmmədli Müsavat Qadınlar Birliyinin sədri seçiləndən bəri təşkilat iflic vəziyyətdədir"



**Ellada Məmmədli:**
"Mənim "zəif" adamlara cavab vermək kimi adətim yoxdur"

**Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədli** isə Nemət Kərimlinin iddialarının əsassız olduğunu bildirdi: "Çox təəssüf ki, bu gün Divana seçilənlər yeni rəhbərliyin arzusu ilə reallaşanlardır. Təkcə Qadınlar Birliyinin sədr seçkisi həmin arzuya daxil olmayanlar cərgəsindədir. Siz nə gözləyirdiniz ki?... Nemət Kərimli "Ağasının" sözünü deyir. Həm də mənim "zəif" adamlara cavab vermək kimi adətim yoxdur ki, ona geniş cavab verim.

Qadınlar Birliyin fəaliyyətini təsdiq olunmuş fəaliyyət proqramı əsasında həyata keçirir. 2014-cü ildə Məhəmməd Əmin Rəsulzadənin 130 illiyi münasibətilə keçirtdiyimiz möhtəşəm tədbirlər KİV tərəfindən də kifayət qədər işıqlandırılmışdı.

Qubad İbadoğlunun ətrafındakı insanlar barədə iddialara gəlincə, Qubad bəy seçkinin 46 faizini qazanmış namizəddir. Onun ətrafında da illərin sınağından alnı açıq, üzü ağ çıxmış əsl fədakar, mübariz müsavatçılardır.

Müsavatın bərpa bürosunun üzvü olmuş Vurğun Əyyubun, Qubad İbadoğlunun, Rövşən Dəmirlinin, Hüseyn Məlikin, Əlövsət Talışxanlının, İbrahim İbrahimlinin, Dünyaxanım Cərullayevanın, Arifə Hüseynlinin gördüyü işlərin nisbətində Nemət Kərimli adı itib batır. O, nə bilir ki, adları çəkilən şəxslər kimlərdir. Həmin şəxslər Nemət kimi qrup maraqlarına xidmət etmirlər. ADR haqqında qoy heç kim narahatçılıq keçirtməsin. Qubad İbadoğlunu dəstəkləyən 46 faiz hal hazırda onunladır".

❑ E.SEYİDAĞA

# Müsavat kütləvi aksiyalara başlayacaq

## Aprel ayının 12-nə mitinq təyin oluna bilər; partiya üzvlərinə 15 mart mitinqində iştirakla bağlı sərbəstlik verilib

**Sabah saat 15-də "İnşaatçılar" metrostansiyasının yaxınlığındakı "Məhsul" stadionunda Milli Şuranın təşkilatçılığı ilə mitinq keçiriləcək. Bahalaşma əleyhinə keçirilən mitinqə Bakı Şəhər İcra Hakimiyyəti razılıq verib. Milli Şura rəhbərliyi mitinqə ciddi hazırlıq işlərinin həyata keçirildiyini, sosial şəbəkədə yüz minə yaxın insanın aksiyaya dəvət edildiyini, şəhərin müxtəlif yerlərində isə martın 14-də mitinqə çağırış vərəqələrinin paylanacağını bəyan edib.**

MÜSAVAT

Mitinqdə Milli Şuranın üzvü olmayan Müsavat Partiyasının iştirak edib etməyəcəyini və Müsavatın özünün nə vaxt mitinqlərə başlayacağını dəqiqləşdirmək üçün başqan Arif Hacılı ilə danışdıq.

Arif Hacılı dedi ki, Müsavat Partiyasının Divanı 15 mart mitinqi ilə əlaqədar qərar qəbul edib: "Biz 15 mart mitinqinin hədəflərini düzgün hədəflər hesab edirik. Müsavat Partiyasının üzvlərinə bu mitinqdə iştirakla bağlı sərbəstlik verilib".

A.Hacılı bildirdi ki, Müsavat Partiyası ümumiyyətlə, kütləvi aksiyaların birlikdə keçirilməsinin tərəfdarıdır: "Hesab edirik ki, Azərbaycanda fəaliyyət göstərən müxalifət partiyaları, ictimai-siyasi birliklər birgə kütləvi aksiyalar keçirsə, bu, daha effektiv olar. Ancaq yaranmış reallıqları nəzərə alaraq, Müsavat Partiyası öz strukturlarında qəbul edilmiş qərarlara uyğun olaraq kütləvi aksiyalara başlayacaq. Hələ fevral ayında biz mart ayının sonu aprel ayından gec olmayaraq kütləvi aksiyalara başlamaq barədə qərar qəbul etmişik. Yaxın həftələr ərzində Müsavat Partiyasının kütləvi aksiyalara başlamaq barədə qərar qəbul etməsi mümkündür. Yəqin ki, mart ayının 16-da Müsavat Partiyasının Divanında bu məsələ müzakirə olunacaq. Aprel ayının ortalarında mitinq keçirilməsi barədə qərarın qəbul edilməsi istisna olunmur".

**"Konkret olaraq aprelin 5-də və ya 12-də mitinq keçirilə bilərmi" sualına Müsavat başqanı belə cavab verdi: "Müsavat Partiyasının aprelin 12-də mitinq keçirmək barədə qərar qəbul etməsi istisna deyil".**

❑ E.SEYİDAĞA

# Ermənilər Bakıya gəlsin, gəlməsin...

**Ermənistanın Bakıda keçiriləcək Avropa Olimpiya Oyunlarında iştirak edəcək idman klubları bir-bir bəyanat yayaraq Azərbaycana gəlməkdən imtina edirlər. Düşmən ölkənin yunan-roma güləşçiləri ölkəmizə gəlməkdən imtina etdiklərini açıqladıqdan sonra erməni taekvandoçular da eyni qərarla çıxış ediblər. Qeyd edək ki, erməni idmançılar idmanın 6 növü üzrə medal uğrunda mübarizə aparmalı idilər: sambo, atıcılıq, cüdo, güləş, boks, taekvando.**

Lakin erməni idmançılarının Bakıya gəlməsi, xüsusən də digərləri ilə birlikdə bu idmançıların da xərclərinin Azərbaycan hökuməti tərəfindən ödənilməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Cəmiyyətin daha tolerant kəsimi, xüsusən də bəzi siyasətçilər və ziyalılar onların Bakıya gəlməsinin və Azərbaycandakı inkişafı, tolenrantlığı görməsinin tərəfdarıdır. Lakin əks fikirdə olanlar və ermənilərin ölkəyə ayaq basmasını qəbuledilməz hesab edənlər də var.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, Azərbaycan tərəfindən Avropa Olimpiya Oyunlarını təşkil edənlər təhlükəsizliklə bağlı narahat olan hər kəsə müraciət edib, yanlış rəy yaranmasının qarşısını almalıdır: "Azərbaycan əgər Avropa Olimpiya Oyunlarını keçirməyi öhdəsinə götürübsə, münasibətindən asılı olmayaraq hər kəsi qəbul etməyə borcludur. Azərbaycan bu məsuliyyəti üzərinə götürərkən Ermənistanla konfliktdə olduğunu da bilirdi, bu dövlətin Avropa coğrafiyasında olduğunu da. Ermənistan bu oyunlarda iştirak edəcək deyə, Azərbaycan dünyadan təcrid olunmuş şəkildə yaşaya bilməz. Ermənistan idmançıları iştirak etsin və görsünlər ki, azərbaycanlılar necə tolerantdır, dünyaya açıqdır, onların öz övladları ilə apardıqları təbliğatda deyildiyi kimi, türklər ermənilərə qarşı fərqli yanaşma sərgiləmirlər. Təbii ki, azərbaycanlıların torpaq itkisindən doğan acıları, ağrıları var. Mən istəməzdim ki, bizimkilər acılarını bu tipli şeylərdə ifadə etsinlər".

"Bu nəticə etibarilə ölkəmizə ziyan vurur" - deyən İ.Ağazadə bildirdi ki, bu hərəkətlərlə Azərbaycan vətəndaşının yanlış obrazını cızır, yanlış şəkildə təqdim edirik: "Ancaq biz Azərbaycan vətəndaşı olaraq o deyilik. Ona görə də hesab edirəm ki, ermənilər mütləq iştirak etməlidir. Dəfələrlə Ermənistanın nümayəndə heyəti burada iştirak edib, nazirləri də ölkəmizə gəlib. Kimə "gözün üstə qaşın var" demişik ki... Biz siz deyilik! Ermənilərin bu oyunlarda iştirakı bizim üçün daha məqbul məqamlardan biridir. Ermənilər bu məsələdən təbliğat kimi istifadə etməyə çalışırlar. Azərbaycan tərəfi ermənilərin və qeyrilərinin təhlükəsizliyi üçün hər hansı problem olmadığını elan etməlidir və bununla da məsələyə nöqtə qoymalıdır".

**Qarabağ Qaziləri Birliyinin sədri Etimad Əsədov** daha kəskin bir mövqe bildirərək, erməni idmançılarını Azərbaycana buraxmamağa çağırıb: "Mən düşünürəm ki, onların Azərbaycana gəlib buradakı inkişafı, ölkəmizi demokratik dəyərlərə əsaslanan, idmana böyük üstünlük verən bir ölkə kimi görməsinin heç bir əhəmiyyəti yoxdur. Azərbaycanda onlara hansı münasibətin göstərilməsindən asılı olmayaraq ermənilər öz xislətində qalacaq, torpaqların işğalından da imtina etməyəcək. Düşünürəm ki, Azərbaycan hökuməti ermənilərə qarşı münasibətini ortaya qoyub, ümumiyyətlə onların ölkəyə gəlməsinə imkan verməməlidir.



**Zahid Oruc:**
"Ermənistan ermənilər üçün daha təhlükəlidir, nəinki Azərbaycan"



**İqbal Ağazadə:**
"Azərbaycan tərəfi ermənilərin və qeyrilərinin təhlükəsizliyi üçün hər hansı problem olmadığını elan etməlidir, bununla da məsələyə nöqtə qoymalıdır"



**Etimad Əsədov:**
"Düşünürəm ki, birmənalı şəkildə ermənilər Azərbaycana buraxılmamalıdır, onların xərcləri də ödənilməməlidir"

Ən acınacaqlısı odur ki, onların xərclərini də hökumət öz üzərinə götürüb, bu lap biabırçı bir haldır. Ona görə də, mən bir döyüşçü kimi, Qarabağ əlili kimi ümumiyyətlə bizim tarixi düşmənlərimiz olan ermənilərin Azərbaycana gəlməsinin qəti əleyhinəyəm. Birmənalı şəkildə ermənilər Azərbaycana buraxılmamalıdır, onların xərcləri də ödənilməməlidir".

**Millət vəkili Zahid Oruc** isə "Yeni Müsavat"a bildirdi ki, ermənilərin apardığı anti-təbliğata əsas verməmək üçün Azərbaycan tərəfi tolerant davranmalıdır: "Görünən odur ki, Ermənistanda Avropa Olimpiya Oyunları artıq başlayıb. Bir çoxlarının qurduğu normal məntiqin əksinə olaraq ermənilərin fərqli bir qavrama sistemləri var. Onlar düşünürlər ki, bu oyunları daha tez başlamaq lazımdır. Ermənilər bu məsələyə münasibətdə Azərbaycanı intizarda saxlamaq, Avropa Olimpiya Oyunlarının əsas tərəfləri kimi məhz ermənilərin olduğunu göstərmək, daim bu mövzuda beynəlxalq medianın hədəfində olmaq, Azərbaycana gəlmələrinin səbəbini ayrıca, özəlliklə prosesin fövqünə qaldırmaq niyyətindədir. Ölkəmiz tərəfindən hansı addımlar atılmalıdır? Mən hesab edirəm ki, təhlükəsizlik üçün görülən bütün tədbirlər yarışda iştirak edəcək hər bir komandanın rəhbərliyinə, o cümlədən ermənilərə göndərilməlidir. Ermənilər üçün xüsusi qüvvələrin ayrılmasına və burada onlar üçün əlahiddə bir milli təhlükəsizlik orqanları təmsilçilərinin müəyyənləşdirilməsinə ehtiyac yoxdur. Mənə elə gəlir ki, Ermənistan ermənilərin yaşamağı üçün daha təhlükəlidir, nəinki Azərbaycan. Hər halda burada mülki vətəndaş kimi yaşayan 30 minə yaxın erməniləri hər hansı sosial-siyasi səbəblərə görə öldürən olmayıb, onlara qarşı diskriminasiyaya yol verilməyib. Səngərdə dayanan erməni isə düşməndir, bizim üçün təhlükədir, ona görə, o qətlə yetirilir. İdmançıları isə Avropada hansı münasibətlə qarşılanırlarsa, Bakıda da bu baş verəcək".

**Millət vəkilinin sözlərinə görə, ermənilərin gəlməməsinin və ya yarımkomanda şəklində burada iştirakının səbəbləri tamam ayrıdır:** "Onlar düşünürlər ki, bu oyunlar üzərindən Azərbaycanın beynəlxalq məkanda imicinə zərbə vursunlar. "Burada ermənilər üçün yaşamaq təhlükəlidir" kimi məsələsini gündəmə gətirsinlər. Bu sadəcə idmançıların öhdəsinə buraxılmış bir məsələ deyil. Ermənistanın siyasi rəhbərliyi bu oyunlar üçün xüsusi proqram hazırlayıblar və onu da mərhələli şəkildə həyata keçirirlər. Az qala dünya idman federasiyaları ermənilərə yalvarmalıdırlar ki, onlar bu yarışlara qatılsınlar. Gəlmirlərsə, dünəndən gəlməsinlər. Azərbaycan cəmiyyətindəki bütün etirazlara, hayqırtılara baxmayaraq dövlət bu yarışlar üçün beynəlxalq öhdəlikləri hamıya eyni dərəcədə elan edib və bunu tanımaq lazımdır".

❑ Nərgiz LİFTİYEVA

# Azərbaycandan Ermənistana göz dağı

## Ölkəmiz Gürcüstan iqtisadiyyatına 1 milyard dollardan artıq investisiya qoyub; Ermənistana ən çox sərmayə qayan dövlətsə Argentinadır - cəmi 80 milyon dollar

**"Azərbaycanla Ermənistan arasında iqtisadi əlaqələrin qurulmasının optimal yolu Cənubi Qafqaz Əməkdaşlıq modelidir. Amma bu, işğalın nəticələri aradan qalxandan sonra reallaşa bilər".**

**Milli Məclisin üzvü, İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun rəhbəri Əli Məsimli** bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Deputat Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovun "Azərbaycan Ermənistana yatırım qoya bilər" fikrini şərh edərkən mövzu ətrafında maraqlı fikirlər söylədi. Onun dediyinə görə, təqribən 10 il bundan əvvəl Brüseldə beynəlxalq konfransada çıxış edərkən bu barədə danışıb: "O zaman bildirmişdim ki, Cənubi Qafqaz həm təbii sərvət, həm də insan potensialı baxımından çox unikal bir regiondur. Odur ki, qlobal və regional oyunçular imkan versələr, burda başqa regionlar üçün belə pozitiv təcrübə ola biləcək çox unikal nəticələr əldə etmək olar. Doğrudan da SSRİ dağıldıqdan sonra yaranmış şansdan istifadə edərək Cənubi Qafqazda da Latviya, Litva, Estoniyanın formalaşdırdığı Baltikyanı ölkələrin əməkdaşlıq modelinə bənzər bir model tətbiq edib, Baltikyanı ölkələrdən də güclü nəticə əldə etmək olardı. Çünki əgər Latviya, Litva, Estoniyanın potensialı təqribən bir-birinə yaxındırsa, Cənubi Qafqazda Azərbaycanın potensialı Gürcüstan və Ermənistanın potensialına yaxın səviyyədədir".

**Ə.Məsimlinin fikrincə, bu, o deməkdir ki, Azərbaycan Cənubi Qafqazın qalxınmasında öz potensialı ilə lokomotiv rolunu oynaya bilər:** "Hətta bir müddətdən sonra "Şəhq Tərəfdaşlığı" layihəsinə sanballı bir töhfə kimi həmin modeli Avropa İttifaqının mikromodelinə qədər yaradıcılıqla inkişaf etdirib bu üç Cənubi Qafqaz ölkəsinin Avropaya inteqrasiyasını sinxronlaşmış şəklə də salaraq, xeyli sürətləndirmiş olardıq. Əgər bu üç Cənubi Qafqaz dövləti qeyd etdiyim modelə real məzmun vermək istiqamətində fəaliyyəti zamanı fikirdə, sözdə və işdə bir olsaydı, onda yəqin ki, ABŞ və Avropa İttifaqı Cənubi Qafqaz Ölkələrinin Əməkdaşlıq Modelinə Baltikyanı ölkələrə verdikləri səviyyədə, yəni strateji müttəfiqlik səviyyəsində dəstək vermiş olardılar. Çünki SSRİ-nin dağılmasında özlərinə məxsus açar rolunu məhz Baltikyanı və Cənubi Qafqaz oynamışdı. Deməli, Cənubi Qafqazın yeni müstəqil dövlətlərinin də buna mənəvi haqqı var idi. Bu halda o zaman öz başlarının hayında olan "regional oyuncular" bu üç Cənubi Qafqaz ölkəsinin Avropaya gedən birgə yolumuzu indiki qədər asanlıqla əngəlləyə bilməzdi". Amma deputat bədnam qonşularımızın fərqli mövqedə olması səbəbindən normal inkişaf yolunun seçilməməsinə diqqət çəkdi: "Ermənistan "qalibin yanında başkəsən" rolunu davam etdirib, Azərbaycan ərazilərinin işğalında iştirak etdi və Azərbaycana 100 milyard dollarla ölçülən ziyan vurdu. Amma Azərbaycan yenə də güclü potensiala malik ölkə və XXI əsrin ən iri layihələrinin əsas oyunçularından biri kimi inkişaf edir. Ermənistan isə öz siyasətinin qurbanı kimi həmin layihələrdən kənarda qalıb və özü-özünün tərəqqisinin ən böyük maneəsinə çevrilib. Rusiya borc əvəzinə Ermənistanda bir sıra istehsal müəssisələrini özünə götürə bilsə də, o vaxtdan keçən illərin təcrübəsi göstərir ki, Rusiya həmin obyektləri müasir tələblər səviyyəsində işlək vəziyyətə salmaq marağında deyil. Ermənistan iqtisadi inkişafına, gələcəyinə inamsızlıq o hədə çatıb ki, bu ölkənin iqtisadiyyatına yatırılan xarici sərmayələrin həcmi ildən-ilə azalır və hətta ermənipərəstliyi ilə aləmdə məşhur olan ölkələr belə Ermənistana sərmayə qoyuluşunu dəfələrlə azaldıblar. Bu boşluğun yerini yalnız regional əməkdaşlıq xətti ilə doldurmaq olardı".



Əli Məsimli

**Ə.Məsimli qeyd etdi ki, bu, özünü Azərbaycan-Gürcüstan əlaqələrində əyanı şəkildə göstərir:** "Rəsmi məlumatlara görə, Gürcüstanda Azərbaycan sərmayələri əsasında 340 şirkət, Azərbaycanda isə 235 Gürcüstan şirkəti fəaliyyət göstərir. Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 1 mlrd. ABŞ dollardan artıq investisiya qoyulub. Gürcüstanın ticarət dövriyyəsindəki payına görə Azərbaycan 2-ci yeri tutur. Ermənistana ən çox sərmayə qayan Argentinanın son göstəricisi isə 80 milyon dolların ətrafındadır. Bu rəqəmlərin müqayisəsi Ermənistanın regional əməkdaşlıqdan itgilərini də əyani şəkildə göstərməkdən ötrü yetərlidir".

**İqtisadçı-ekspert deyir ki, regionumuzda həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın və Gürcüstanın iqtisadi gücünü artırır:** "Bununla belə, regional əməkdaşlığın daha da genişləndirilməsi, mövcud potensialdan tam istifadə edilməsi yalnız Dağlıq Qarabağla bağlı Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllindən, Azərbaycanın işğal olunmuş torpaqlarının tam azad edilməsindən sonra mümkün ola bilər. Ona görə də əgər bu qanlı işğalda bilavasitə iştirak edən Ermənistan rəhbərliyi ölkə daxilində Rusiyanın forpost siyasətindən narazılığın getdikcə artığının fərqində olaraq özündə təpər tapıb həm özünün, həm də öz havadarlarının yerinə utanıb, Azərbaycan ərazilərinin işğaldan azad olmasına heç olmasa gücü çatanı qədər səy göstərsə, onda proses "ölü nöqtə"dən tərpənmiş olar. Bəli, yalnız Azərbaycan torpaqları işğaldan azad olandan sonra Ermənistanla hər hansı əməkdaşlıqdan, sərmayədən və sairdən danışmaq olar. Qalan variantlarda Azərbaycan tərəfindən Ermənistana sərmayə yatırılması barədə deyilənlər sadəcə deyilişi gözəl sözlərdir".

❑ E.PAŞASOY

# "Avropa dəyərlərini müdafiə edənlər xalqlarının xoşbəxt gələcəyini istəyirlər"

## **Ramin Hacılı:** "Kültürümüzdə yüksək mədəniyyətə, iqtisadiyyatda elmi yüklü istehsalata, siyasətdə plüralizmə, idarəçilikdə demokratiyaya dövlət vətəndaş münasibətlərində hüququn aliliyinə önəm verməliyik"

**Ümid Partiyası sədrinin Beynəlxalq Əlaqələr və Strateji Məsələlər üzrə müavini, Azərbaycan Avropa Hərəkatının prezidenti Ramin Hacılı Partiyanın mətbuat xidmətinə bu il keçiriləcək 5-ci çağırış Milli Məclisə seçkilər barədə danışıb. Həmin müsahibəni oxuculara təqdim edirik:**

***- Ramin bəy, niyə məhz 19 saylı Nərimanov Birinci Seçki Dairəsindən namizəd olmaq fikrinə düşdünüz?***

- Bir çox səbəb var. Ən önəmlisi, namizədliyimi irəli sürəcəyim Ümid Partiyasının qərargahının bu ərazidə yerləşməsi nəticəsində vəsaitə qənaət etmək imkanı, 12 məntəqə seçki komissiyasında və DSK-da katiblərdən birinin Ümid partiyasının təmsilçisi olunması, habelə ərazidə bələdiyyə üzvümüzün olması, əhalinin deputatsız qaldığı üçün müxalif namizədə üstünlük verəcəyi, tanıdığım insanların çoxluğu, kontingentlə emosional baxımdan daha yaxşı anlaşacağımızı düşünməm, hərbi hissə və təcridxana kimi müəssisələrin yoxluğu, beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən KİV çalışmaları üçün yararlı şəraitin olması məhz bu dairədən namizədliyimi irəli sürməmə təkan verdi.

Namizədliyimin Ümid Partiyası ilə yanaşı, "125"-lər Siyasi Klubu, Qarabağ Bloku, hələ ki, adlarını çəkməyi uyğun bilmədiyim qurumlar və ictimai xadimlər tərəfindən dəstəklənəcəyimdə uğur qazanacağımla bağlı inamı artırır. Artıq yanvar ayından bu ilki parlament seçkilərinə sistemli olaraq hazırlıqlara start vermişik. Qeyd edim ki, 2010-cu il Milli Məclisə seçkilərdə də namizəd olmuşdum və o təcrübənin budəfəki marafona böyük yardımı toxunacaq. Bu günlərdə seçki komandamı, qərargah rəhbərini və strategiyanı da açıqlamağı düşünürük.

***- Siz Avropa dəyərlərinin əsas müdafiəçilərindən hesab olunursunuz. Bu seçki prosesinə necə təsir göstərəcək?***

- Avropa dəyərlərinin ilk müdafiəçiləri Azərbaycan dövlətini qurdular, bizə bayrağımızı, himnimizi, dövlətçilik ənənəmizi bəxş etdilər. Əbəs yerə deyil ki, demokratik cümhuriyyət yaratmaq, vətəndaşının haqlarını qoruyan dövlət qurmaq, hər kəsin bərabər hüquqlu cəmiyyətdə yaşamasını təmin etmək, tək bizim üçün yox, bütün dünya xalqlarına bir nümunədir. Bu halda güclü dövlət, sabit, dayanıqlı, qüdrətli ölkə olunur. Deməli, Avropa dəyərlərini müdafiə edənlər öz xalqları üçün xoşbəxt gələcək bəxş etmək istəyirlər. Unutmamalıyıq ki, xarici siyasət, daxili gücə söykənir. Biz vətəndaşının güvənc yeri olan, bunu sevgi ilə qazanan dövlətin dünyada söz sahibi olduğunun şahidiyik.

***- Əksər hallarda Avropa dəyərləri hakimiyyət təmsilçiləri və mühafizəkarlar tərəfindən qorxulu tendensiya kimi təqdim olunur...***

- Önə çıxan şəxsin əsas vəzifəsi insanları inkişaf etmiş məkana, dəyərlərə, intibaha daşımaqdır. Və öndə olmaq iddiasına düşənlər bunu anlamalıdırlar. Yoxsa xalqının tarixində sevimli şəxsiyyət kimi qala bilməzlər. Hətta bu gün sizin təqdim etdiyiniz yenilik qorxulu görünsə belə, insanlar fərqli yolu getməmək üçün min bəhanə gətirsə belə, vətəndaşın, ölkənin inkişafından qorxan idarəçilər olsa da və ən əsası, sən bu səbəblərdən təklənsən də yolundan dönməməlisən. Çünki sənin səmimi inancın bugünkü merkantil çıxarlara hesablanmayıb, gələcək uğura indekslənib.

***- Əvvəllər Cənubi Azərbaycanda, İranda baş verən hadisələrə də həssas yanaşırdınız...***

- Yeri gəlmişkən, mən "Bütöv Azərbaycan Ocaqları"nın İdarə Heyətinin üzvüyəm. Liberal, demokratik, bəşəri dəyərlərlə yaşamaq ölkəsini sevməmək deyil. Mən bu gün də Azərbaycanın bütövləşməsi, güneyli soydaşlarımızın istiqlalını ən çox istəyən və bunun üçün çalışanlardanam. Bu səbəbdən xarici ölkələrdə yaşayan heç bir ideadaşım tərəfindən qınaq görməmişəm. Əksinə, hamı öz ölkəsini, həmvətənlərini sevən, onların haqqı uğrunda çalışan şəxslərə daha çox hörmət edir. Gərək bir məqamı da unutmayaq: xalqını, ölkəni, haqqını qoruyarkən, dəyərlərə söykənməlisən, sivil olmalısan, elmi istinad nöqtəsi seçməlisən. Və ən əsası təklifin, yol xəritən mütləq olmalıdır, yoxsa pafosa üstünlük verən, irrasional imic qazanarsan. Bu halda sənə ailə üzvlərin belə hörmət etməz. Razılaşmasalar belə, hörmət etməsini istəyirsənsə, elmi əsasları olan fikrə sahib olmalısan.



Mənim fikrimcə cazibədar olmağın əsas yolu kompleks yanşmadan keçir. Kültürümüzdə yüksək mədəniyyətə, iqtisadiyyatda elmi yüklü istehsalata, siyasətdə plüralizmə, idarəçilikdə demokratiyaya, ictimai münasibətlər sistemində saygıya, dövlət vətəndaş münasibətlərində hüququn aliliyinə önəm verməliyik. Nə qədər ki, xammal, infrastruktur tikintiləri, təhsilsiz cəmiyyət, rüşvətin adiləşdiyi, bürokratiyanın vətəndaşı küsdürdüyü, qanunun güclü qarşısında acizliyi olacaq, o zaman biz cazibədar ola bilməcəciyik. Bu halda da nə güneyli soydaşlarımız, nə dünya dövlətləri, nə də özümüz ölkəmizi yetərincə sevə bilməyəcəyik. Diqqət etmisinizsə dövlətimizin uğursuzluğuna sevinənlərin, öz xalqını tənqid edənlərin sayı günü gündən artır. Bunun səbəbi yuxarıda qeyd etdiklərimdir. Mən bu sahədə vətənimə fayda verməyi, gücüm çatdığı qədər ölkəmin qüdrətlənməsinə yardımçı olmağı, bunun üçün də parlamentə təmsil olunmağı düşünürəm.

***- Sizcə hakimiyyətin Azərbaycanı dünyada təqdimatı uğurlu alınırmı?***

-Atılan addımlar arasında lobbi siyasətini çıxmaq şərtilə digərlərini uğurlu sonluqla bitirmək mümkündür. "Eurovision", " Bakı Avropa Oyunları 2015", " Gəncə Avropa Gənclər Paytaxtı " kimi səs gətirən layihələrlə yanaşı beynəlxalq auditoriyanı əhatə edən iqtisadi, siyasi, mədəni mövzularda, sülh çağırışlı elmi- praktik konfransların, idman, musiqi, incəsənət sahəsində yarışmaların ölkəmizdə keçirilməsi çox faydalıdır. Bunu Qərb dövlətləri də alqışla qarşılayır. Çünki bu tədbirlər inteqrasiyanı sürətləndirir, ölkəmizi dünyanın bir parçasına çevirir, bəşəri dəyərləri özünə prinsip seçən yeni elita formalaşır və bütünlükdə toplumun zehniyyətin dəyişir. Açıq cəmiyyətin xalqı sivil olur ki, buna nail olmaq üçün digər xalqlarla ünsiyyət vacibdir. Məhz bu səbəblərdən də mən Azərbaycanda keçirilən bütün beynəlxalq tədbirləri dəstəkləyirəm və faydalı hesab edirəm. Lakin hakimiyyətin Azərbaycanın Qərbdə lobbiçiliyini təşkil etmək üçün təşkilatlara pul ayrılmasını uğursuz addım sayıram. Biz ərəblərin məğlubiyyətlə bitən siyasətini təkrarlamamalıyıq. Məncə, artıq Azərbaycan bu istiqamətdə siyasətini dəyişməlidir. Texnoloqları cəlb etmək, reklam işlərində xərcləmələrə getmək olar, ancaq Qərbin lobbi şirkətlərinə pul xərcləməyə dəyməz. Azərbaycan artıq tanınır və ölkəmizin imici daxili siyasətlə formalaşır. Bu vəsaitlər gənclərimizin inkişaf etmiş ölkələrdə uğuru üçün xərclənməlidir. Bu çağdaş strategiyadır ki, nəticədə həmvətənlərinin uğuru hesabına dövlətlər müsbət mənada imic qazanır.

# "Müəllim adına layiq əmək haqqı almalıdır"



## **Ənvər Ağazadə:** "Hökumətin təhsilin inkişafı ilə bağlı konkret proqramı yoxdur"

**Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin "Trend"ə müsahibəsində "Müəllimlərə dərsdən kənar fəhləlik təklifi" cəmiyyətin təbəqələri, sosial şəbəkə istifadəçiləri, xüsusilə müəllimlər arasında ciddi müzakirələrə səbəb olub.**

Millət vəkili müsahibəsində qeyd edib ki, əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o işdən sonra da başqa nə iləsə məşğul olmalıdır. Fikrini əsaslandırmaq üçün isə Lənkəranın Veravul kəndində yaşayan Balabəy müəllim adlı bir müəllimim şəxsində nümunə də göstərib. "O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir. Qazandığı pulla da ailəsini saxlayır. O, bunu heç də ayıb hesab etmir. Bunun nəyi pisdir ki?"

**Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə** Hadi Rəcəblinin müəllimlər haqda səsləndirdiyi fikirlərə münasibət bildirib: "Hadi müəllim ölkədəki mövcud reallaqlardan bəhs edib. Onsuzda məktəbdə sərf etdiyi vaxtda və əməyə görə müəllimin aldığı maaş onun nəinki ailəsinin, təkcə özünün dolanışığına çatmır. Ona görə də səbri və savadı olan müəllimlər dərsdən sonra repetitor fəaliyyəti ilə məşğul olurlar. Bütün gününü müəllim işləməyə sərf edir. İstirahətə, öz ailəsi ilə məşğul olmağa, daha vacibi isə təhsil sahəsində yeniliklərlə öyrənməyə, əlavə biliklər qazanmağa vaxtı qalmır".

Ə.Ağazadə qeyd edir ki, 24 oktyabr 2013-cü ildə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul olunub: "Strategiyanın məqsədi ölkədə səriştəli təhsil verənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Əslində strategiyada qarşıya qoyulan vəzifələr normal və təhsilin inkişafına xidmət edən məsələlərdir. Amma çox təəssüf ki, sözü gedən sənədin qəbul olunmasından iki il vaxt keçməsinə baxmayaraq bu istiqamətdə heç bir iş görülməyib. Məktəblərin təmiri, müasir texnologiyalarla təmin olunması təhsilin deyil, daha çox iqtisadiyyatın inkişafının göstəricisidir. Çox təəssüf ki, iqtisadi inkişafın içərisində müəllimin maaşı görünmür. Təhsilin inkişafının göstəricisi savadlı kadrların yetişdirilməsidir. Müəllim də həmişə bu istiqamətdə çalışmalı, öz üzərində işləməli, müasir texnologiya və bilikləri mənimsəməlidir ki, şagirdlərini də öyrədə bilsin. Dərsdən sonra daş hörməyə gedən, suvaq suvayan, şənbə-bazar günü yarmarkalarda meyvə-tərəvəz satan müəllim inkişaf edə bilməz. Əminliklə deyə bilərəm ki, məktəblərə verilən elektron lövhələrin böyük əksəriyyəti istifadə olunmur. Çünki o lövhələrlə işləyə bilən kadrlar yetişdirilməyib. Eyni zamanda həmin sənəddə təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılmasının zəruriliyi xüsusi qeyd olunur. Çox təəssüf ki bu istiqamətdə hələlik heç bir addım reallaşmayıb. Bu istiqamətdə prezidentin iki sərəncamı olub; müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi və müəllimlərin əməkhaqqının artırılması ilə bağlı. Verilən bu sərəncamlar hələ də icra olunmayıb. Bütün bunlar onu göstərir ki, hökumətin təhsilin inkişafı ilə bağlı konkret proqramı yoxdur. Biz hesab edirik ki, testdən keçmiş, seçilmiş müəllimlərin maaşları bir neçə dəfə artırılmalı və müəllim adına layiq əmək haqqı almalıdır".

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Sapı özümüzdən olan balta

Zamin HACI
zaminhaci@gmail.com

(diskursiv analiz)

**Ermənistanın bəzi idman federasiyaları Bakıda keçiriləcək 1-ci Avropa oyunlarına qatılmayacaqlarını açıqlayıblar. Məncə onlar çox səfeh hərəkət ediblər (Maraqlıdır ki, Ermənistan Milli Olimpiya Komitəsinin şefinə ermənilər elə "Tupoy Qaqo" deyirlər). Yarışın bütün xərcini Azərbaycan ödəyir, gəlib yeyib-için getmək əvəzinə qorxaqlıq nümayiş etdiriblər. Bəlkə də Akif Nağıdan çəkiniblər, nə biləsən. Akif müəllimin qorxusundan Bakı üzərindən qağayılar uçmur.**

Ümumiyyətlə, bəzi beynəlxalq insan haqları qurumları da bu yarışı boykot eləməyə çağırıblar. Ölkəmizdə insan hüquqlarının pozulmasını əsas göstərərək. Ancaq yarışın bütün xərclərini yapistlər Azərbaycan xalqının belinə şəllədiyi üçün təcrübə göstərir ki, boykot alınası deyildir. Dünyada müftə yeyib-içmək həvəskarları həmişə olmuşdur. İnsan maddiyyata bağlı məxluqdur. Çexovun "Qarağat" adlı bir hekayəsi var, orda epizod danışılır ki, adamın ayağı qatarın altında qalıb kəsilib, onu xəstəxanaya aparmaq istəyirlər, adam isə qışqırır ki, kəsilən ayağımdakı çəkmənin boğazında 20 manat pulum qalıb, onu gətirin. 1995-ci ildə, dünyanın ən çoxsaylı insan ölümü ilə sonuclanan Bakı metro faciəsinin şahidlərindən biri mənə danışmışdı ki, adamları tuneldən çıxartmağa çalışırdım, bu zaman tüstünün, alovun, dəhşətin içərisindən qaçıb perrona çıxmağa çalışan bir kişi gördüm, onun əlində... qarpız var idi! 300 nəfər ölən qəzada da adam əlindəki qarpızı buraxmamışdı. İnsanın belə sirli, qaranlıq tərəfi var. Kim bilir, bəlkə də o qarpız o insanın yemək üçün son ümidi imiş.

Buna baxmayaraq boykot çağırışı edənlər də haqlıdır. Hərə öz təbliğatını aparır. Dünən boykot çağırışlarına etiraz edən deputatxana vitse-spikeri Ziyafət Əsgərov isə mənim diqqətimi tamam başqa mövzuya görə çəkdi. Əsgərov boykota çağıranları "sapı özümüzdən olan baltalar" adlandırmışdı.

Mən bilirəm ki, Ziyafət müəllim dünyaya gələndən bəri adi "salam" sözünü də müstəqil işlətməmişdir, o üzdən yüngülvarı araşdırma apardım, məlum oldu bu ifadəni martın 6-da Ziyafət əkənin deputat yoldaşı Səyavuş müəllim qanunverici orqanda çıxışı zamanı, elə eyni qurumlar haqda səsləndiribdir. Bütün hallarda bu ifadənin dilimizə qayıdışı alqışlanmalıdır.

25 il qabaq, ermənilərlə dava təzə başlayanda bu sap-balta səbəb-nəticə əlaqəsi bizdə olduqca populyar idi. Kimin kimdən xoşu gəlmirdisə onu "sapı özümüzdən olan balta" adlandırırdı. İfadə o qədər populyar idi ki, haqqında şeirlər, qəzəllər, romanlar, pyeslər yazılmışdı. Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən balta" dramı AzDrama-nın səhnəsində 1600 dəfə oynanılmışdı. AYB sədri Anar müəllimin "Beş tiyə üçün altı balta sapı" romanı əsasında "Təhminə və Odun" kinosu çəkilmişdi. Hörmətli şairimiz Musa Yaqubun 1989-cu ildə yazdığı "Sapı özümüzdən olan baltalar" şeirindən bu məqamda bir bənd verməliyik:

"Hanı bu meşənin yaşıl qatları,
Dəmir ağacları, şah palıdları...
Sapı özümüzdən olan baltalar
Yaman kəsdi bizi, oğradı bizi,
Alıb özümüzdən doğradı bizi,
Öz ağrılarımız, acılarımız,
Balta sapı olan ağaclarımız
Bəlkə pasımızdın, paxırımızdan,
Bəlkə nəfsimizdən, paxılımızdan..." və s. və i.a.

Sözümün canı odur ki, biz Qarabağ münaqişəsinin həllində tez-tez "sıfır variantına" qayıtdığımız üçün politoloji diskussiyalarda da 88-89-cu illərin leksikonuna dönüşümüz yerindədir. Filoloji islahatlar hər sahədə özünü göstərir. Əgər "qara qüvvələr"i sapı özümüzdən baltalar əvəz edibsə, iqtisadi sahədə "pulumuz çoxdur", "analoqu olmayan şəkildə inkişaf edirik", "ÜDM 500 faiz artıb" sözlərini "süni bahalaşma", "gizli qiymət artımı", "bir az qənaətlə sərf edək" tipli sözlər əvəz eləyibdir. Yaxşı yadıma düşdü, 89-90-larda bir "ekstremist ünsürlər" sözü də vardı, məncə yapistlər bunu bərpa eləməlidir, dövlətçilik fəlsəfəsi də bunu tələb edir.

**Ümumiyyətlə, sapı özümüzdən olan baltalar və politoloji diskussiyaların qrammatikası çox ciddi mövzudur, doğramasalar yaxın vaxtlarda yenə buna qayıdarıq.**

# Azərbaycanın milli valyutasına və ordusuna real təhlükə - Avrasiya İttifaqı

## Vahid rubl zonasının avrozonadan fərqi SSRİ ilə Avropa Birliyi arasındakı fərq qədərdir; müstəqil ordumuza, digər dövlət atributlarımıza təhlükə yaradan yolu artıq bir dəfə keçmişik; milli maraqlarımız ölkəmizin məhz Avropaya inteqrasiyasını diktə edir...

**Rusiya prezidenti Vladimir Putin Avrasiya İttifaqı layihəsinə real məzmun vermək üçün prosesi sürətləndirmək qərarı verib. Onun az öncə hökumətə və Rusiya Mərkəzi Bankına sentyabrın 1-ədək qurumun vahid valyutaya keçidinə dair lazımi sənədləri hazırlamaq haqda göstərişi, sözsüz ki, bu istəyin təzahürüdür.**

**Yada salaq ki, ortaq pul vahidinin tətbiqi Avrasiya İttifaqının nizamnaməsində də nəzərdə tutulub. Həmin sənədə əsasən, qurumun 2025-ci ilə kimi Vahid Mərkəzi Bankı da yaradılmalıdır. Birinci sual da burdan çıxır ki, əgər söhbət doğrudan da bərabərhüquqlu dövlətlərin birliyindən gedirsə, o zaman nədən göstəriş yenə də Moskvadan gəlir və nədən məhz rubl?**

Doğrudur, Qazaxıstan prezidenti Nursultan Nazarbayev bir növ, özünü sındırmamaq üçün vahid valyuta ilə bağlı iki variant təklif edib. O, ortaq valyutanın "altın", ya da "yevraz" adlandırılması ideyasını irəli sürüb. Lakin bu, daha çox daxili auditoriyaya hesablanmış təsəlliverici addım təəssüratı bağışlayır. Çünki aydındır ki, ən sonda Rusiya deyən olacaq.

Putinin ötən il Qazaxıstanın "süni dövlət" olması haqda söylədiklərini, bu türkdilli dövlətin ərazi bütövlüyünü faktiki şübhə altına almasını nəzərə alsaq, Astananın Kremlin qarşısında şərt qoyacağı ağlabatan görünmür. Qərblə körpülərin xeyli hissəsini yandırmış Belarus isə çoxdan Rusiyadan asılı durumda olduğundan, çətin ki, onun prezidenti Lukaşenko Putinin bir sözünü iki edə bilsin. Ermənistandan isə bəlli səbəblərdən danışmağa dəymir.

Beləcə, ehtimal yüksəkdir ki, Avrasiya İttifaqının vahid pulu olacaqsa da, bu, yenə rubl olacaq - təbii ki, həmin tarixədək bölgədəki və dünyadakı vəziyyət, regional və qlobal şərtlər, o sırada Ukraynada durum dəyişməz qalsa, Putinin yenilməz imici dağılmasa.

Bir iş də var ki, beynəlxalq



sanksiyaların təsiri altında onsuz da ağır duruma girmiş Rusiya iqtisadiyyatı ona qədər daha acınacaqlı kökə düşə, Moskvanın başı tamam ayrı problemlərə qarışa bilər ki, bu da vahid rubl zonası bir yana, qurumun özünün perspektivi məsələsini arxa plana sürüşdürər.

Bu xüsusda politoloq Vəfa Quluzadə tam haqlıdır deyəndə ki, "nəinki təşkilatın vahid valyuta ideyası, ümumiyyətlə, Avrasiya İttifaqının özünün gələcəyi sual altındadır". Artıq bir çox digər analitiklər də oxşar proqnozlar səsləndirir. Amma Avrasiya İttifaqı ideyası tamamilə fiasko olanadək Moskva postsovet ölkələrinə, ələlxüsus, "sözə baxmayan" həmsərhəd suveren dövlətlərə, bu dövlətlərin iqtisadiyyatlarına ciddi problemlər, başağrısı yarada bilər.

Hər halda, kağız üzərində də olsa, vahid rubl zonası haqda anlaşma Kremlin əlinə qurumun üzv ölkələrə əlavə təzyiq rıçaqları verəcək. Avrasiya İttifaqının SSRİ-nin prototipi kimi nəzərdə tutulduğu hesaba alınarsa, utopik görünsə belə, üzv ölkələrin milli ordularının ləğvi məsələsi də gündəmə gətirilə, Rusiyanın dominant olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) yeni "vahid ordu"nun özəyində dura bilər.

Yaxın tarixə nəzər salsaq görərik ki, SSRİ də elə bu cür, müttəfiq respublikaların suverenliyi, atributları (pul, ordu) yavaş-yavaş Moskva tərəfindən "ortaq valyuta", "ortaq ordu" adı altında əllərindən alınaraq qurulub. Guya SSRİ Konstitusiyasına görə, 15 müttəfiq respublikanın hər biri ayrıca suveren dövlət kimi İttifaqın tərkibindən sərbəst çıxmaq hüququna malik idi. Di gəl, bu hüququ həyata keçirmək hansı qurbanlar, qanlar hesabına başa gəldi, Kreml həmin hüququn önündə hansı əngəllər yaratdı, hamıya bəllidir.

Eyni prosesin bir qədər fərqli, daha "sivil" qiyafədə gedəcəyi istisna deyil. Ancaq nəticə dəyişməyəcək. Demək, milli maraqlarımız Azərbaycanın bu prosesdən axıradək kənarda durmasını diktə edir. Biz 23 il öncə rubldan (Kremldən) canımızı zorla qurtarıb manata keçmişik, bir daha rubla qayıtsaq, təhlükə var ki, bu dəfə müstəqilliyimiz əbədiyyən əldən gedər. O yolu artıq keçmişiksə, nəticə məlumdursa, Dağlıq Qarabağ boyda yara almışıqsa, bir də yoxlamağa dəyərmi?

**Deyilə bilər ki, Avropa Birliyi də vahid qurumdur və əksər üzv ölkələrdə vahid pul vahidi kimi avro işləyir. Ancaq 2 böyük fərq var:**

**1.** Avropa Birliyi ölkələrinin suverenliyi və ərazi bütövlüyü, digər dövlət atributları, o cümlədən ordusu qorunub saxlanılıb.

**2.** Üzv ölkə öz ərazisində istənilən an adicə referendum keçirməklə qurumu tərk edə bilər.

Vahid Avropa ordusu da yaradılsa, eyni şərtlər qüvvədə qalacaq təbii ki. Çünki bu, gerçəkdən, bərabərhüquqlu, demokratik dövlətlərin könüllü birliyidir. Bura kimsəni zorla cəlb etməyiblər. Türkiyə kimi dövlət illərdir onun üzvlüyünə can atır...

**Ən önəmlisi odur ki, Avropa İttifaqı yüzdə yüz üzv ölkələrin əhalisinin iqtisadi-sosial rifahının, milli təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edirsə, Avrasiya İttifaqı sırf Kremlin imperiya maraqlarına, azad xalqları kölə hala salmağa hesablanmış antidemokratik ölkələrin könülsüz birliyidir. O da təbii ki, yaşasa.**

❑ Siyasət şöbəsi

# AŞPA məruzəçiləri Anar Məmmədli ilə görüşdülər

**Martın 11-də ailə üzvləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 13 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan hüquq müdafiəçisi Anar Məmmədli ilə görüşüblər. Bu barədə Anar Məmmədlinin ailə üzvləri "Yeni Müsavat"a məlumat veriblər. Onların dediyinə görə, A.Məmmədlinin əhvalı yaxşıdır, səhhətində ciddi problemlər olmasa da, üzündə yaranan allergiyaya görə müalicəsi hələ də davam edir.**

Ailə üzvləri deyiblər ki, A.Məmmədli saxlanıldığı cəzaçəkmə müəssisəsində yerləşən başqa baraka köçürülüb, hazırda saxlandığı yerindən narazı deyil.

Qeyd edək ki, Anar Məmmədli qaldığı barakın yaxşı olmadığına görə yerinin dəyişilməsi üçün bir neçə gün öncə cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət etmişdi.

A.Məmmədli yaxınlarına bildirib ki, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Pedro Aqramunt və Tadeus İvinski Bakıda səfərdə olarkən, onunla görüşüblər. Anar Məmmədli ilə görüşdə Avropa Şurasının Bakı ofisinin rəhbəri də iştirak edib. Bundan əlavə Avropa Birliyinin insan hüquqları üzrə xüsusi nümayən-



Anar Məmmədli

dəsi Stavros Lambrinidis də Anar Məmmədli və Müsavat başqanının müavini Tofiq Yaqublu ilə görüşüblər. Görüşdə Avropa Birliyinin Azərbaycandakı missiyasının rəhbəri, səfir Malena Mard da iştirak edib.

Görüşlərdə siyasi məhbuslardan, onların saxlanma şəraitindən, eləcə də ölkədəki vəziyyətdən və bu ilin payızında keçiriləcək parlament seçkilərindən danışılıb.

Hüquq müdafiəçisinə və orada saxlanılan digər siyasi məhbuslara 3-4 gündən bir müstəqil qəzetlər verilsə də, onlarla bağlı olan yazılar kəsilərək götürülür.

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli 16 dekabr 2013-cü ildə həbs edilib. Bakı Ağır Cinayətlər Məhkəməsi onu qanunsuz sahibkarlıq, vəzifə mövqeyindən sui-istifadə və vergi ödənişindən yayınma ittihamları ilə 5 il 6 ay müddətinə azadlıqdan məhrum edib.

**"Amnesty International" təşkilatı Anar Məmmədlini vicdan məhbusu elan edib. O, AŞPA-nın təsis etdiyi Vatslav Havel mükafatına layiq görülüb.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015

**Rusiya prezidenti Vladimir Putin martın 6-dan "yoxa çıxıb". Cəmiyyət arasında, siyasi kluarlarda və mediada görünməyən prezident barədə çoxsaylı şayiələr var. Sonuncu dəfə Putin martın 5-də İtaliyanın baş nazırı Matteo Rentsi ilə görüşüb. Bundan sonra Kreml Putinin 8 mart münasibətilə qadınlarla görüşməsinə dair məlumat yayıb. Amma Rusiyanın bəzi KİV orqanlarının versiyasına görə, əslində bu görüş də martın 5-də keçirilib. Putinin yorğun olduğu görüş iştirakçılarının gözündən yayınmayıb.**

# Putin haqda sensasion xəbərlər

## Rusiya prezidentini mübhəm itkisinin arxasında səhhət problemi dayanır, yoxsa...

**Putinin martın 12-13-də Astanaya planlaşdırılan səfəri xəstəlik səbəbindən təxirə salınıb.** Bu da "Reuters" agentliyinin versiyalarından biridir. Onun səhhətində problemlər olması barədə xəbərlər isə bir neçə ildir ki, medianın gündəmindədir. Xüsusən də onun kürəyində, ayağında problemlər olması barədə ən son "The New York Times" qəzeti yazıb. Onun səhhətində yenidən problem yaranması ilə bağlı şübhələr isə M.Rentsi ilə görüşündən sonra publika qarşısına çıxmamasına görə artıb. Putinin mətbuat katibi Dmitri Peskov isə öz bossunun səhhətində problemlər olması versiyalarını inkar edib və onun "itkin düşməsini" gərgin qrafik, ictimaiyyət üçün açıqlanmayacaq görüşlərinin olması ilə izah edib. D.Peskov eyni zamanda deyib ki, xəstəlik iddiasını dilə gətirib, onu yayanların öz psixoloji durumları qaydasında deyil və onlar bahar qızdırmasından əziyyət çəkirlər.

**V.Putinin keçmiş müşaviri Andrey İlliarionov isə bütün faktları təhlil edərək belə bir nəticəyə gəlib ki, Rusiya rəsmiləri "saray çevrilişi" nəzərdə tutublar.** Onun fikrincə, Rusiya Prezident Administrasiyasının rəhbəri Sergey İvanov tezliklə baş nazir vəzifəsinə təyin ediləcək. Bundan sonra isə Putinin yorulması və istirahətə ehtiyacı olması barədə ssenari həyata keçiriləcək.

**Putinin itməsində Ramzan Kadırov faktorunu isə rusiyalı politoloq Stanislav Belkovski qabardıb.** Belkovskinin fikrincə, müxalifətçi Boris Nemtsovun qətlində əli olduğu ehtimal edilən R.Kadırovun "güclü əllər" tərəfindən tələb edilməsi, Putinin isə onu qurban vermək istəməməsidir. Məhz bu səbəbdən Rusiya prezidentinin ciddi psixoloji problemlər yaşadığı iddia edilir. İndiki halda Putinin qarşısında iki yol var: ya əlini Kadırovun üzərindən çəkməli, ya da keçmiş həmkarları olan milli təhlükəsizlik xidməti ilə açıq anlaşmaya getməlidir.

**Daha bir məlumat isə Putinin 12 martda Ermənistan prezidenti Serj Sərkisyanla telefonla danışmasıdır.** Prezident Administrasiyasından bu danışıqla bağlı yayılan xəbərdə isə bildirilir ki, danışıqlar zamanı Putinin saxta erməni soyqırımının 100-cü ildönümü ilə bağlı keçiriləcək tədbirlər çərçivəsində İrəvana, Sərkisyanın isə II Dünya müharibəsinin 70-ci zəfər qutlamaları ilə bağlı Moskvaya gedəcəyi məsələsində razılığa gəliblər.

**İlk olaraq Qazaxıstan mediasında yer alan, daha sonra isə sürətlə Rusiya, ordan da Azərbaycan mediasına sıçrayan bir xəbər isə guya Putinin müsəlman olması ilə bağlıdır.** ANS PRESS-in məlumatına görə, Peskov xəbəri təsdiqləyərək bildirib ki, həqiqətən, belə bir qərar qəbul edilib. Çeçenistanın lideri Ramzan Kadırov da öz tvitter səhifəsində heç vaxt bu qədər xoşbəxt olmadığını yazıb və ümid etdiyini bildirib ki, "tezliklə Vladimir Putin bütün kafirlərə və münafiqlərə qarşı cihad elan edəcək". Bu xəbəri Rusiyanın xarici İşlər naziri Sergey Lavrov da təsdiqləyib. O bildirib ki, tezliklə Rusiyaya müsəlman dövlətlərindən nümayəndə heyəti gələcək.



Vladimir Putin

**Rusiyalı politoloq Sergey Makarov** isə bu xəbəri şərh edərək deyib ki, Putinin bu qərarı geosiyasi vəziyyətlə əlaqədardır. "Bizim prezident hər şeydən əvvəl Rusiyanı fikirləşir. Biz qərbin liberal pozğunluğunun əhatəsində qalmayaq deyə bizə güclü tərəfdaşlar lazımdır. İslam ölkələri də etibarlı tərəfdaş ola bilərlər. Onsuz da, Allah birdir" deyə, politoloq əlavə edib.

**Amma dediyimiz kimi, bu, sadəcə təsdiqlənməmiş bir iddiadır.** Və bunu yazan media orqanlarının istinad nöqtəsi kimi "İnterfax" agentliyini göstərsələr də, sözügedən agentlikdə bununla bağlı hər hansı xəbər yer almayıb. Üstəlik, Rusiyadakı saytlar, sosial şəbəkələrdəki müzakirələrdə bu xəbər sadəcə gülüş obyekti olaraq qiymətləndirilir.

**Kremlin martın 13-də yaydığı açıqlamada isə qeyd edilib ki, artıq Putin görüşlərini davam etdirir.** Belə ki, Rusiya prezidenti Ali Məhkəmə rəhbəri Vyaçeslav Lebedevlə görüşüb. Sözügedən xəbərdə Rusiya prezidentinin yorğun, xəstəhal görüntülü fotoları da əlavə edilib. Bundan başqa, Rusiya informasiya agentlikləri də bu xəbəri yayıb. Amma onlardan heç biri öz materiallarında "görüş bu gün baş verib" cümləsini işlətməyib ki, bu da yetərincə diqqət çəkən məqamdır.

**"Vedomosti" qəzeti isə Putinlə bağlı yazısında qeyd edib ki, prezidentin səhhətində hər şey qaydasındadır.** Məqalədə yazılanlara görə, "Putinlə bağlı hər şey qaydasındadır və xəstəliyi ilə bağlı yazılanların heç bir əsası yoxdur. Vətəndaşların öz ölkəsinin prezidentinin səhhətinə bu qədər diqqət ayırmasına isə təəccüblənmək lazım deyil".

Günün sonunda isə Rusiyanın bəzi saytları prezident Vladimir Putinin oğlunun dünyaya gəlməsi barədə xəbər yaydı. Rusiya mediasının istinad nöqtəsi isə İsveçrənin "Blick" nəşri oldu.

**Məlumata görə, Putinə yaxınlığı ilə tanınan və Rusiyanın "Milli Media Qrupu" Holdinqinin direktorlar şurasının sədri vəzifəsində çalışan Alina Kabayeva İsveçrənin Tessin əyalətinin "Müqəddəs Ann" klinikasında uşaq doğub.** Bu klinika öz reputasiyasına görə dünyada çox populyar hesab edilir. Putinin oğlunun dünyaya gəldiyi haqda artıq bu əyalətinin bütün sakinləri danışırlar.

**İsveçrə mediası son günlər Putinin ictimaiyyət qarşısına çıxmamasını bununla əlaqələndirir. Bu, prezidentin A.Kabayevadan dünyaya gələn üçüncü övladıdır. Onun bu münasibətlərdən bir oğlu, bir qızı da var.**

❑ **Sevinc TELMANQIZI**

# Mümkün 3-cü dünya müharibəsi və Azərbaycanın yeri

## Vəfa Quluzadə: "Azərbaycan mütləq Qərbin müttəfiqi olmalı və bunun üçün nə lazımsa, etməlidir..."

**Yay aylarında Rusiya ordusu Ukraynada genişmiqyaslı hərbi əməliyyatlara başlayacaq. Belə bir iddia ilə rusiyalı hərbi ekspert Pavel Felqenqauer çıxış edib. Onun sözlərinə görə, yaxın aylarda həllik böyük müharibə gözlənilmir. "Lakin ordu texniki olaraq buna hazırdır. Rusiya ordusu yayda Ukraynaya girə bilər", - deyə ekspert bildirib.**

Qeyd edək ki, Qərb və ABŞ dəfələrlə bəyan edib ki, Ukrayna ordusuna qarşı Rusiya əsgərləri döyüşür. Rusiya tərəfi isə bunu cəfəngiyat adlandırır. Bu arada Rusiyanın Krım, Cənubi Osetiya, Abxaziya və Ermənistanda olan hərbi bazasında 8 min əsgərin iştirakı ilə hərbi təlimlərə başlaması bölgədə gərginliyi artırıb. Türkiyə də daxil olmaqla NATO döyüş gəmilərinin Qara dənizdə təlimləri davam etdirməsi Rusiyanın 19 bölgədə adekvat addımı ilə nəticələnib.

Bəllidir ki, Krımın Rusiyaya birləşdirilməsindən və Ukraynanın şərqində münaqişənin davam etməsindən sonra ABŞ bəyan edib ki, Baltikyanı ölkələrə və Polşaya Amerika hərbçiləri yerləşdiriləcək. Bu prosesə artıq başlanılıb. Hazırda Latviyada 150 amerikalı desantı var, bu ölkəyə 120-dən çox müasir zirehli texnika göndərilib. ABŞ hərbi gəmiləri və qırıcılarının Baltikyanı ölkələrin sərhədlərini təhdid etməsinin ardınca Qərb hərəkətə keçib.

Bütün müşahidələr onu göstərir ki, vəziyyət getdikcə gərginləşir və 3-cü Dünya Müharibəsi üçün zəmin yaradacaq hallar baş verir. Bu gərginliklər fonunda əksər dövlətlər öz cəbhəsini açıq və ya gizli şəkildə seçməkdədir. Azərbaycan "Qoşulmayanlar Hərəkatı"nın üzvü olsa da, savaş olacağı təqdirdə kənar müşahidəçi kimi qalmağın özü də təhlükəli sayılır. Xüsusilə də Rusiyanın Cənubi Qafqazda vazkeçilməz maraqlarının olması şəraitində Bakının hansı səngərdə yer alacağı sual doğurur.

**Politoloq Hikmət Hacızadə** də Moderator.az-a deyib ki, hələlik bu, psixoloji bir təzyiqdir: "Bu, ABŞ ictimaiyyəti və Konqresi üçün gerçəkləşdirilən bir addımdır. Hər yerdə olduğu kimi ABŞ-da da "qartallar", "şahinlər" var. Deyirlər ki, "nə oldu, bir şey eləmirsiniz?"



Vəfa Quluzadə

Bunlar da öz növbələrində söyləyir ki, bu qədər tank göndərdik, bu addımları atdıq və s. Hələ ki, baş verənlər daxilə hesablanan addımlardır. Lakin gələcəkdə hər şey dəyişə bilər".

**Ekspertin sözlərinə görə, rus və ABŞ ordusunun üz-üzə gəlməsi indiki məqamda nə qədər inanılmaz görünsə də, elə bir an yetişə bilər ki, bu ehtimal reallaşar:** "Bəli, elə bir an yetişə bilər ki, Rusiya və ABŞ-ın hərbi müstəvidə üz-üzə gəlməsi qaçılmaz olar. Hər şey proseslərin gedişatından asılı olacaq. Proseslər elə məcrada inkişaf edə bilər ki, belə bir qarşıdurma qaçılmaz olar".

Politoloq Vəfa Quluzadə isə deyir ki, Rusiya heç vaxt NATO ilə müharibə etməyəcək: "Çünki bu cür müharibədə Rusiya məğlub olacaq və bütün Rusİya rəhbərliyi xalqı ilə bərabər fəlakətə düçar olacaq. Rusiyanın həm ordusu, həm iqtisadiyyatı NATO-nun həm iqtisadiyyatından, həm də ordusundan qat-qat aşağıdır. Üstəlik, Ukrayna avantürasına görə Rusiyada dərin böhran gedir. Mən Almaniyanın və Nasional Sosializmin tarixini gözəl bilirəm. Hitler müharibəyə başlarkən birinci xalqını kifayət qədər topladı, ölkədə iqtisadi çiçəklənmə, böyük quruculuq işləri getdi. Ondan sonra o, böyük uğurla bütün Avropanı işğal etdi. Fransa boyda nəhəngi iki həftəyə arxası üstə qoydu. Hitleri bir neçə faizini çıxmaq şərtilə alman xalqı dəstəkləyirdi. İndi baxın, görün Rusiyadakı vəziyyət necədir. İqtisadiyyat çöküb, Rusiyanın rublu neft qiymətlərinə görə ölüb, cəmiyyətdə bölünmə gedib, böyük etirazlar baş qaldırıb. Rusiya qorxusundan antimaydan yürüşü keçirir. Rusiyada bütün dünyanı lərzəyə salan terror aktı oldu, müxalifətin görkəmli liderlərindən birini, dünyada kifayət qədər yaxşı tanınan bir şəxsiyyəti Kremlin yaxınlığında güllələdilər. Bu, ölkədə gedən dərin böhranın əlamətidir. Üstəlik, hələ məlum deyil ki, bu qalmaqal nəyə gətirib çıxaracaq. Avropa beynəlxalq istintaqın araşdırma aparmasını istəyir, bu, Rusiyanın zəifliyinin nəticəsidir. Rusiya sanksiyalarla baş-başa qalıb, Hitlerə kim sanksiya tətbiq edə bilərdi? Ukraynada həlak olmuş rus əsgərləri gizlədilir. Üstəlik də rus KİV-ləri görüntü yaradır. Guya Ukraynada faşistlər hakimiyyətə gəlib və ona görə Ukraynanı dağıtmaq lazımdır. Bu cür məsələlər Rusiyanı dərin quyuya aparır".

**Quluzadə belə bir situasiyada Azərbaycanın Qərbin yanında yer almasını istəyir:** "Azərbaycan mütləq və mütləq Qərbin müttəfiqi olmalı və bunun üçün nə lazımsa, etməlidir. Bu, təkcə Rusiya təhlükəsinin olmasına görə yox, Azərbaycan xalqının müqəddəratına görə vacibdir. Azərbaycan rəhbərliyi gizlətmir və açıq deyir ki, biz demokratik dövlət qurmaq istəyirik. Elə isə quraq da. Bunu qurmaq üçün isə qətiyyətli addımlar atmaq lazımdır. Böhran bizə də gəlib çatıb. Biz neft ölkəsiyik və bu 20 ildə alternativ sənaye qura bilmədik. Ona görə də neft qiymətlərindən asılıyıq. Lakin gec deyil. Gəlin rəqabətə qadir sənaye quraq, ölkəmizi o cür inkişaf etdirək ki, Qərbə müttəfiq olaq, Qərbdən kömək alıb daha da inkişaf edək".

❑ **Cavid TURAN**



# Azacıq hava udmaq üçün...

Hüseynbala SƏLİMOV

**Əslində etiraz etmək üçün əsas yetərincədir. Kifayət edər ki, heç olmasa, son bir-iki ayda bu ölkədə baş verənləri qısaca xatırlayasan... Ona görə də hansısa siyasi strukturun mitinq keçirmək istəyi bizdə təəccüb və çaşqınlıq doğurmur.**

Amma belə strukturlar son vaxtlar, bəlkə də son 15 ildə ölkədə hökm sürən bir tendensiyanı nəzərə almırlar...

Azərbaycanda insanlar belə hesab edir ki, onların biri-birini məlumatlandırması kifayətdir. Bu aspektdən yanaşanda bu ölkədə ən çox fədakarlıq göstərən, ən azı son 15-20 ilin qəhrəmanları jurnalistlər olublar...

Amma məlumatlı olmaq kafidirmi? Öz təcrübəmizdən deyə bilərik ki, əsla. Bu birinci addımdır-insan məlumat alır, onu saf-çürük edir, daha sonra isə adekvat hərəkətlər haqqında düşünür...

Azərbaycanda isə məhz sonuncu-adekvat hərəkətlər çatışmır. İnsanlar mitinqlərə həvəs göstərmir. Ehtimal edirlər ki, sosial şəbəkələrdə yazışmaq və paylaşmaq onlar üçün yetərlidir...

Mən bir dəfə bir sənədli filmə baxmışdım. Orada bir ərəb jurnalistini göstərirdilər. Qadın idi. Onu xarici reportyorlar "Misir baharı"nın əsas təşkilat və təşviqat fəalı kimi təqdim etdilər...

İndi mən burada "Misir baharı"nın necə "Misir xəzanı", daha sonra isə "Misir qışı" olmasından bəhs etməyəcəm. Bu, ayrı bir söhbətin mövzusudur...

Sadəcə, onu qeyd etmək istəyirəm ki, informasiya qərar qəbul etmək və hərəkət etmək üçün birinci pillədir. Ondan sonra da nəsə olmalıdır...

Amma bu ölkəyə baxın. Demək olarmı ki, bu ölkə bir-iki ay bundan əvvəl bir seçkidən çıxıb, indisə başqa bir seçkinin ərəfəsindədir?

Demək olmur. Buna işarə verən heç nə yoxdur. Hətta çox çalışsan da bir şey tapa bilməzsən...

Amma belə olmamalı idi. Biz böhrandan yazanda deyirlər ki, bir bunlara baxın, sevinirlər ki, ölkədə böhran olacaq! Yox, sevinmirik. Ən azı ona görə ki, biz də bu ölkədə yaşayırıq. Amma elə bu ölkədə yaşadığımızdan da biganə ola bilmirik, çünki bilirik ki, bu böhran ilk növbədə elə bizi "vuracaq"...

Amma hər şey ona doğru gedir. Bu mənada bəlkə də orta statistik azərbaycanlını başa düşmək olardı - bu günlərdə onun üçün dünyanın ən önəmli xəbəri bazarda qozun və fındığın qiymətidir...

Fəqət, bunun əsasında da sosial-siyasi nəticələr çıxarmaq olmur. Beş-on il bundan irəli də böyük bahalaşma olmuşdu. Müxalifət mitinq təyin etdi. Biz də getdik? Amma nə gördük? Cəmi beş yüz-altı yüz adam vardı, hamısı da müxalifətçi...

Elə bu səbəbdən də mitinq sözü bizdə bir apatiya yaradır. İnanmırıq ki, adamlar gəlsin. Qəribə bir "atomistik" cəmiyyət yaranıb. Bu cəmiyyətin bir üzvü o birisi ilə sosial-siyasi ittifaq yaratmaq istəmir. Hamı böhrandan öz bildiyi kimi, "ata-baba" yolu ilə çıxmağa cəhd edir. "Ata-baba yolu" nədir?

Deyir ki, sən qozun qiymətini qaldıracaqsan, mən də dəftərin qiymətini artıracam. Daha düşünmürlər ki, bu ölkədə insanlar var ki, nə qoz satır, nə də dəftər? Bəs onlar nə etsin? Çıxış yolu var. Müəllim-repetitor dərslərin qiymətini artırır, həkimlər isə müalicə haqqını, məmurlar da rüşvəti... Yerdə kim qalır? Beş-üç uğursuz adam, tutaq ki, "mirzələr"- biz jurnalistlər...

Sizə bu ssenari sadəlövh görünməsin. Ölkə neçə illərdir ki, belə idarə olunur.

Zəncirvari bahalaşma gedir...

Ona görə də heç kim mitinqə-filana gəlmir. Bahalıq həmişə sosial etiraz yaratsaydı bu vaxta qədər gərək bu ölkədə on inqilab olaydı. Amma yoxdur və olmur...

Deməli, təkcə bahalaşmanın etiraz yaradacağını zənn etmək sadəlövhlükdür.

Doğrusu, mən müxalifətçilərin mitinq həvəsini bir az "hava udmaq" həvəsi və bir şəhərə çıxmaq istəyi kimi başa düşürəm...

Yazıqlar, daha doğrusu, biz yazıqlar nə edək? Bütün günü evdə otururuq. Adam o qədər darıxır ki... Bir az çox tanınanlar şəhərə-bulvara da çıxa bilmir.

Ona görə də arabir mitinqə çıxmaq olar - bir az əvvəldə dediyim kimi, azacıq hava udmaq üçün...

**O ki qaldı əsl etirazlara, mən daha formal məntiq əsasında heç bir nəticə çıxarmıram. Belə nəticələrin dürüst çıxmaq imkanı demək olar ki, yox. Elə bu səbəbdən də hər şeyi həyatın öz məntiqinin ixtiyarına buraxmaq lazımdır - həyat məntiqi isə nə səlis məntiqdir, nə də qeyri-səlis... Həyatın öz məntiqi var və bir də baxıb görürsən ki, bir üstə gəl bir nəinki iki, heç bir yarım da etmir...**

# "Gəncləri "Lənkəranski"nin yolunu tutmağa çağırmamışam"

## Fəzail Ağamalı: "Hər kəsi öz adı ilə çağırmaq lazımdı"

**Deputat Fəzail Ağamalı "Yeni Müsavat"ın suallarını cavablandırıb. F.Ağamalı ölkədəki bahalaşma, "Azərsun Holdinq" prezidentinin qiymətin artımı bəyanatından, radikal qruplara qarşı keçirilən əməliyyatlardan, kriminal aləmdə "Rövşən Lənkəranski" kimi tanınan qohumu Rövşən Canıyev haqda fikirlər və gündəmdə olan digər aktual hadisələrdən danışıb. Müsahibəni təqdim edirik:**

***- Fəzail bəy, bahalaşmanın qaçılmaz olacağını xeyli zəruri ərzaq məhsullarının istehsalçısı olan "Azərsun"un prezidenti də etiraf edib. Bundan sonra necə olacaq?***

- Əslində bu, gözlənilən idi. Azərbaycanda sahibkarlar hansı malları xaricdən alırsa, onlarda bahalaşma olacaq. Həmin məhsullar xarici valyuta ilə alınır, milli valyuta ilə satılır. Ona görə də dollarla alınan əmtəə ölkəyə daxil olarkən qiymətdə artım qeydə alınır. Bu baxımdan "Azərsun" prezidentinin açıqlamasında qeyri-adi nüans yox idi. Nəzərə almaq lazımdır ki, bütövlükdə dünyanı bürüyən xoşagəlməz bir vəziyyətdir və MDB məkanına da təsirsiz ötüşmür. Azərbaycan da bu təsirlərdən yan keçməyib. Sadəcə, yaranmış bu situasiyada son dərəcə diqqətli olmaq, vəziyyətə nəzarət etmək lazımdır. Bazarda qiymətlər tənzimlənməlidir, işbazların əlindən fürsət verilməməlidir. Dövlət başçısı da çıxışında qeyd etdi ki, sui-istifadə hallarına yol verənlər, süni qiymət artımına gedənlər cəzalandırılacaq.

Mən hesab edirəm ki, bu istiqamətdə kompleks addımlar atılır. Yəni bundan sonra sahibkarlar xaricdən alınmış məhsulun qiymətini bir dəfədən artıq qaldırmalı deyil. Əks halda müəyyən problemlər yarana bilər. Bu vəziyyət işbazların əlində fürsətə çevrilməli deyil. Mən belə hesab edirəm ki, ciddi qiymət artımı gözlənilmir. Ölkə daxilində istehsal olunan məhsulların qiymətində bahalaşma olmayacaq.

***- Eyni sözləri kənd təsərrüfatı məhsulları haqda da söyləmək olarmı?***

- Hazırda aqrolizinq var və fermerlər çətinlik çəkmirlər. Texniki-təchizatın yaxşılaşdırılmasında işlər görülür. Amma elə yerlər var ki, onlara aqrolizinq güzəşti düşmür. Məsələn, istixanalar yaranır. Onlara aqrolizinq güzəşti düşmür. Çünki gübrə vəsaitlərini kommersiya adamlarından alırlar, həmçinin xaricdən alırlar. Onlarda müəyyən artım olacaq, maya dəyərinə təsir göstərəcək. Digər sahələrdə, məsələn, mineralların işlədilməsində artım gözlənilmir. Bir daha qeyd edirəm ki, dünyanı bürüyən prosesdir və vəziyyəti obyektiv qiymətləndirməliyik. Bu situasiyada işimizi elə qurmalıyıq ki, problemlər meydana gəlməsin. Hesab edirəm ki, dövlət bu istiqamətdə tədbirlər görür, əhaliyə maaş, pensiyalar da vaxtında verilir və veriləcək. Eyni zamanda, pensiya artımı ənənə şəklini alıb və bundan sonra da pensiyaların artırılması davam edəcək.

***- Amma bahalaşma ilə yanaşı, Rusiyada işləyib ailəsinə pul göndərənlərin qazancı da, sayı da azalıb. Bu, ümumilikdə ölkədə sosial gərginliyə gətirib çıxarmayacaq ki?***

- Mən belə düşünürəm ki, əgər ailələrinə az pul göndərirlərsə, Rusiyada gəlirləri azalıbsa, insanlar buna uyğun öz həyat tərzini qurmalıdır. Heç bir sosial gərginlik olacağı gözlənilmir. Cənab prezident birmənalı şəkildə qeyd etdi ki, bu vəziyyət xalqın həyatına ciddi təsir etməyəcək.

Büdcədə kəsir gözlənilmir. Həmçinin Prezidentin Ehtiyat Fondundan, yaxud Neft Fondundan müəyyən miqdarda pul transfer oluna bilər. Hesab edirəm ki, yaranmış situasiyada bədbinliyə qapılmaq olmaz.

Sadəcə, Milli Şura deyilən qurum martın 15-nə mitinq təyin edib, guya bu yaranmış vəziyyət Azərbaycan hökumətindən asılıdır.

Mən onları başa düşə bilmirəm. Bu, regiondan gələn fəlakətdir. Azərbaycanın öz daxili iqtisadi siyasətinə söykənmir. İstəyirsən 15 belə mitinq keçir, heç bir mənası yoxdur. Əgər bu vəziyyəti Azərbaycan dövləti süni şəkildə yaratmış olsaydı, o zaman müxalifət mitinq edə bilərdi.

Axı bu məsələ iqtidardan asılı deyil?! Biz Rusiyadan gələn bu bəlanın qarşısını almalıyıq. Rusiya isə geri çəkilmir. Avropa da Moskva ilə müharibə etmək istəmir, əvəzində sanksiyaları gücləndirir. Bizim Rusiya ilə iqtisadi əlaqələrimiz var. Bu proseslərin bizə təsirində qonşu faktoru mühüm rol oynayır. Artıq Rusiya iqtisadiyyatı çökür. Odur ki istər-istəməz bizə təsir göstərir. Rusiya, Ukrayna kimi ölkələrdə kataklizmlər varsa bizə təsiri olmalıdır. Amma mən düşünürəm ki, bu mitinq ölkənin sosial-ictimai münasibətlər sisteminə təsir etməyəcək.

***- Sizcə, qeyd etdiyiniz yaranmış situasiyadan istifadə edib kənardan ölkədə qarışıqlıq salınması, bölgələrdə əhalinin ayağa qaldırılması mümkündürmü?***

- Azərbaycana qarşı təxribatlar hər zaman olub. Bundan sonra da istisna deyil. Ancaq ölkəmizin hüquq-mühafizə orqanları peşəkar şəkildə fəaliyyət göstərir. Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi terrorçu qrupları, müxtəlif təxribatçı dəstələri ifşa etməkdədir. Bu radikal dəstələrin zərərsizləşdirilməsi istiqamətində proses daha da kəskin getməlidir. Biz hüquq-mühafizə orqanlarının keçirdiyi bu əməliyyatların nəticələri təqdir etməliyik. Mən bəzi bəyanatlarla da tanışam. Ayrı-ayrı həmkarlarınız bu əməliyyatların nəticələrini şübhə altına alır. Hesab edirəm ki, bu bəyanatlara son qoyulmalıdır. Çünki dini radikal cərəyanlar ifşa edilməlidir. Dini radikal qruplara qarşı əməliyyatların yarışma ərəfəsində imitasiya olduğunu deyənlər xəstə fikirli adamlardı. Əksinə, Avropa oyunlarında terror təhlükəsi riski artır. Bu baxımdan nə qədər radikal, amma passiv mövqe tutan qruplar varsa ifşa edilməlidir. Biz Yaxın Şərqdə baş verənlərdən ibrət götürməliyik. Ancaq çox təəssüf ki, ölkəmizə qarşı bir anti-Azərbaycan koalisiyası fəaliyyətdədir. Əminliklə qeyd edə bilərəm ki, bu koalisiyanın arxasında erməni diasporu dayanır, onun formalaşmasında müxtəlif lobbilər iştirak edir. Bu lobbidə müxtəlif millətlərin nümayəndələri var. Hökmən deyil ki, həmin erməni diasporunda Azərbaycana qarşı olanlar milliyyətcə erməni olsun. Ermənipərəst qüvvələr var ki, onlar situasiyadan istifadə edirlər. Digər tərəfdən Ermənistan cəbhə xəttində tez-tez atəşkəsi pozmaqdadır. Biz buna diqqətli olmalıyıq, təhlükələri dəf etmək üçün birgə olmalıyıq.



> **"Əgər bu iqtisadi vəziyyəti Azərbaycan dövləti süni şəkildə yaratmış olsaydı, o zaman müxalifət mitinqlər keçirə bilərdi"**

***- Fəzail bəy, son bir sualım - kriminal aləmdə "Rövşən Lənkəranski" kimi tanınan Rövşən Canıyev haqda fikirləriniz birmənalı qarşılanmayıb, sosial şəbəkələrdə tənqid edirlər ki, gəncliyə düzgün nümunə göstərməmisiz. Bu tənqidləri bölüşürsüzmü?***

- Mən Rövşən Lənkəranskini tərifləməmişəm. Əslində onu olduğu kimi təqdim etmişəm. Onu xarakterizə etməyim heç də insanları təşviq etmək deyil. Çox təəssüf ki, onun yolu burdan başladı və bu istiqamətdə getdi. Ancaq insanın taleyini Tanrı yazıb və özündən asılı olmayan səçimlər qarşısına çıxır.

Rövşən "qanuni oğru" dünyasında tanınan şəxsdir, gözəl, xeyirxah insandır. Vətənini, xalqını sevən bir insandır. Mən heç də gəncləri Rövşənin yolunu tutmağa çağırış etməmişəm. Sadəcə, gənclərimiz hansı yolda olursa-olsun, Rövşən kimi vətənpərvər olsun. Unutmaq olmaz ki, "Rövşən Lənkəranski" zorən bu mühitə düşüb, atasının intiqamını almaqla. Düşünürəm ki, bu fakt sosial şəbəkədə o cür düşünənlərin fikrini alt-üst edəcək. Hər kəsi öz adı ilə çağırmaq lazımdı. Mən gənclərimizin idman, təhsil və başqa sahələrdə xalqı yüksək təmsil etməsini arzulayıram. Sosial şəbəkələrdə kim nə yazırsa, onlara da hörmətimi bildirməklə yanaşı qeyd edirəm ki, fikirlərimi kontekstdən çıxarmasınlar.

❑ Emil SALAMOĞLU

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ali Baş Komandandan Şuşada ASAN Xidmət mesajı

**"Əminəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, biz buna nail olmaq üçün daha da güclü olmalıyıq". Azərbaycan prezidenti, Silahlıq Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bunu Bərdə şəhərində ASAN Xidmət mərkəzinin açılışından sonra rayon ictimaiyyəti ilə görüşdə deyib.**



## Ziyafət Əsgərov: "Əminəm ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevi azad etməyə nail olacağıq..."

## İlham Əliyev: "Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, ASAN Xidməti Şuşada da yaradacağıq..."



**Dövlət başçısı bütün beynəlxalq hüquq normalarının Azərbaycanın mövqeyini dəstəklədiyini qeyd edib:** "Tarixi ədalət də bizim mövqeyimizi dəstəkləyir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqeyimizi dəstəkləyir. Dünən Pakistan prezidenti ilə imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində həll edilməsi məsələsi öz əksini tapıb. Bu ayın əvvəlində mən Bolqarıstanda oldum, orada da strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Həmin bəyannamədə də eyni cümlələr öz əksini tapıb".

**Prezident qeyd edib ki, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsas şərtdir:** "Əgər bu məsələ beynəlxalq hüquq çərçivəsində həll olunsaydı, çoxdan həll olunardı. Əsas məsələ ondan ibarətdir ki, Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, qətnamələri icra etmir, belə olan halda biz ancaq öz gücümüzə güvənməliyik və güvənirik. Ordu quruculuğu, güclü iqtisadiyyat, güclü siyasi mövqelərimiz hər gün bizim qələbəmizi yaxınlaşdırır".

**Dövlət başçısı qeyd edib ki, təmas xəttində son aylar ərzində Azərbaycan tam şəkildə üstünlüyünü təmin edib:** "Bizim orduda xidmət edən gənclərimiz vətəni ləyaqətlə qoruyurlar və düşmənə çox güclü zərbələr vururlar. Belə də olmalıdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlib. Cəmiyyətdə müşahidə olunan həmrəylik, səfərbərlik bizim qələbəmizi şərtləndirən amillərdən biridir, iqtisadi və hərbi gücüdür. Biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. "Asan Xidmət"i biz Şuşada da yaradacağıq".

***

**Mili Məclis sədrinin müavini, parlamentin Təhlükəsizlik və Müdafiə Komitəsinin sədri Ziyafət Əsgərov** isə Ermənistanın təxribat qruplarının Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin mövqelərinə hücum cəhdlərinə münasibət bildirib (APA). Z. Əsgərov deyib ki, bu cəhdlərin iki səbəbi var. Onun fikrincə, ilk səbəb Ermənistanın həqiqətən çökməkdə olması ilə bağlıdır: "Ermənistanda olan cinayətkar-kriminal rəhbərlik erməni xalqının diqqətini yayındırmaq üçün belə təxribatlara əl atır. İkincisi, həqiqətən Azərbaycanın artan nüfuzundan, siyasi imicindən və ordusundan qorxurlar. Artıq onlar hiss etməyə başlayıblar ki, Azərbaycan sözün həqiqi mənasında real olaraq nə deməkdir. Ona görə də belə təxribatlara əl atırlar. Lakin təxribatlara çox gözəl cavablar verilir, gələcəkdə də belə olacaq. Azərbaycan ordusu çox qüdrətlidir, inşallah, ordumuzun qələbəsini də görəcəyik".

"Dilqəm Əsgərov və Şahbaz Quliyevə qarşı qurulan "məhkəmə" qondarma bir proses, bir şoudur. İnanıram ki, onlar əvvəl-axır azad olunacaqlar". Bu fikir də komitə sədrinə məxsusdur. O bildirib ki, son vaxtlar Azərbaycanın məsələnin mahiyyətinin açıqlanması ilə bağlı apardığı uğurlu təbliğat sayəsində nəticələr əldə olunmaqdadır: "ABŞ dövlət katibinin müavini Viktoriya Nuland Azərbaycana səfər zamanı girovların azadlığa buraxılması ilə bağlı bəyanat verdi. Viktoriya Nuland Ermənistanda olanda və ABŞ-a qayıdanda da bu bəyanatı təkrarladı. Fransa XİN də bəyanat verib. Artıq xarici dövlətlərdə də başa düşürlər ki, bu, qurama, qondarma bir məhkəmə prosesidir. Çünki rəsmən tanınmayan bir qondarma qurumun apardığı məhkəmə qanuni sayıla bilməz, bu, tamamilə mənasız prosesdir. Mən əminəm ki, biz Dilqəm Əsgərov və Şahbaz Quliyevi azad etməyə nail olacağıq".

# AŞPA-nın Qarabağ məsələsinin həll prosesinə qoşulması nə vəd edir?

**Avropa Şurası Parlament Assambleyasının Siyasi Əlaqələr Komitəsinin Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Valterin Azərbaycanda iki günlük səfərdə olub. Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması ilə bağlı hesabat hazırlamaq məqsədi daşıyan səfər zamanı Valter Azərbaycan prezidenti İlham Əliyev, parlamentin sədri Oqtay Əsədov, ədliyyə naziri Fikrət Məmmədov və müdafiə naziri Zakir Həsənovla, Qaçqın və Məcburi Köçkünlərlə İşləri üzrə Dövlət Komitəsinin rəhbəri Əli Həsənov, parlamentdə təmsil olunan siyasi partiyaların liderləri və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvləri, eləcə də qaçqın və məcburi köçkünlər, Dağlıq Qarabağ məsələsi ilə məşğul olan vətəndaş cəmiyyəti üzvləri ilə görüşləri planlaşdırılırdı.**

Səfərin ilk günü AŞPA rəsmisi heyəti Azərbaycan Müdafiə Nazirliyində olub, müdafiə nazirinin şəxsi heyət üzrə müavini, general-leytenant Kərim Vəliyevlə görüşüb. Qonağa regiondakı hərbi-siyasi vəziyyət, münaqişənin həlli ilə bağlı geniş məlumat verib. R.Valterin məcburi köçkünlərlə də bir araya gəlib.

Qeyd edək ki, işğalçı Ermənistan AŞPA-nın Dağlıq Qarabağ üzrə məruzəçisinin təyin olunmasına ciddi-cəhdlə mane olmaq istəsə də, buna nail ola bilməmişdi. Qarabağ həqiqətlərinin beynəlxalq kürsüdən səslənməsindən narahat olan düşmən Robert Valterin səfərini də narahatlıqla izləyir. ATƏT-in Minsk qrupunun həmsədrlərinə olan inamın öləzidiyi bir şəraitdə prosesə AŞPA-nın aktiv müdaxiləsi müəyyən ümidlər verir. Bəzi ekspertlər də məruzəçinin səfərinə ümidverici prizmadan baxırlar.

**Politoloq Elxan Şahinoğlu** qəzetimizə dedi ki, AŞPA-da Azərbaycanla bağlı iki tendensiya var: "Birinci tendensiya ondan ibarətdir ki, AŞPA-da Azərbaycandakı siyasi durum tənqid olunur, siyasi məhbusların varlığı bildirilir və sairə. İkinci tendensiya isə AŞPA-nın Dağlıq Qarabağ münaqişəsinin həllinə artan marağıdır. Əgər birinci tendensiya rəsmi Bakının xoşuna gəlmirsə və AŞPA-nın müvafiq hesabatlarına müqavimət göstərirsə, ikinci tendensiya Azərbaycanın maraqlarına tam uyğundur, çünki Strasburq Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyü prinsipindən çıxış edir. Misal üçün, AŞPA-nın Azərbaycan üzrə keçmiş məruzəçisi Andreass Qross insan haqları və demokratiya məsələləri ilə bağlı rəsmi Bakı ilə münasibətləri gərgin idisə, Dağlıq Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyü məsə-



**Elxan Şahinoğlu:** "Strasburq münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyü prinsipindən çıxış edir"



**Fərrux Məmmədov:** "ASPA-nın aktivliyi öz üzərinə götürməsinin əsas səbəblərindən biri Minsk qrupunda Rusiyanın olmasıdır"

ləsindən çıxış edirdi və indi də edir. Bunun özü ondan xəbər verir ki, Azərbaycan hakimiyyəti siyasi islahatları dərinləşdirsə, siyasi məhbus mövzusuna birdəfəlik son qoysa, Qarabağ məsələsində ölkənin mövqelərini AŞPA-da eləcə də digər beynəlxalq təşkilatlarda xeyli gücləndirmiş olacaq. AŞPA-nın Qarabağ məsələsində prinsipial mövqeyi Ermənistan hakimiyyətini narahat edir, ancaq əlindən bir şey də gəlmir".

**E.Şahinoğlu xatırlatdı ki, Ermənistan AŞPA-da Dağlıq Qarabağla bağlı komitənin iclaslarına qatılmır:** "Çünki bilir ki, avropalı deputatların iştirakı ilə keçirilən müzakirələr hansı səmtdə gedəcək. İndi isə İrəvan AŞPA-nın Siyasi Əlaqələr Komitəsinin Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Valterin bölgəyə səfərini əhəmiyyətini azaltmağa çalışır. Ermənistan Dağlıq Qarabağla bağlı məruzənin AŞPA-da deyil, ATƏT tərəfindən hazırlanmasını istəyir. Görünür, Ukrayna böhranına görə Rusiyanın AŞPA-dakı fəaliyyətinin dondurulması İrəvanı qorxudub. Ermənistan hakimiyyəti Rusiyanın iştirakı olmadan hazırlanan hesabatın Azərbaycanın xeyrinə olacağını güman edir. Ancaq ATƏT-in özündə də Azərbaycanın ərazi bütövlüyü məsələsi ağırlıq qazanmağa başlayıb. Ukrayna böhranı Avropanı silkələdi. Avropa və ABŞ Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, bu ölkədəki separatizmi pisləyirlərsə, eyni yanaşmanı Dağlıq Qarabağ münaqişəsinin həllində də ortaya qoymaq məcburiyyətindədirlər".

**Politoloq hesab edir ki, əks halda ikili standartlar üzə çıxacaq:** "Artıq ABŞ və Almaniyanın mövqelərində dəyişiklik hiss olunur. Əlbəttə, Dağlıq Qarabağ münaqişəsinin həllinə ATƏT cavabdehdir. Ermənistan və Rusiya müzakirələrin və müvafiq qərarların AŞPA müstəvisinə keçməsini istəmirlər. Deməli, buna qarşı da Azərbaycan diplomatiyası fəal olmalı, Strasburqla dialoqu yoğunlaşdırmalıdır. Elə etmək lazımdır ki, AŞPA-da Azərbaycanda insan haqları və demokratiya mövzularından yox, daha çox Dağlıq Qarabağ münaqişəsinin həlli vacibliyindən danışsınlar. Ancaq bunun reallaşması üçün rəsmi Bakı üzərinə düşənlərii etməlidir, siyasi və məhkəmə ishalatlarını dərinləşdirməlidir".

**NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov** isə "Yeni Müsavat"a açıqlamasında işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarla bağlı artıq 20 ildən çoxdur atəşkəs dövründə danışıqların getməsinə baxmayaraq heç bir uğurlu nəticənin olmadığını vurğuladı: "Hətta atəşkəsin əldə olunmasına baxmayaraq, vaxtaşırı itkilərin qeydə alınması artıq Avropanı da ciddi narahat edir. Avropa bunu açıq etiraf etməsə də, bütün bunları ATƏT -in Minsk qrupunun passiv və effektsiz işləməsi ilə əlaqələndirir. Avropa artıq dünyada qlobal güc rolunda açıq şəkildə fəaliyyət göstərmək qərarına gəlib. Minsk Qrupunun Qarabağ məsələsindəki passivliyi ASPA-nı hərəkətə keçməyə məcbur edir. Avropa Birliyi yaxşı başa düşür ki, əgər o, Cənubi Qafqazı öz yanında görmək istəyirsə, bu Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllindən sonra mümkündür. Azərbaycan olmadan Cənubi Qafqazdan digər ölkələrin Avropa ilə assosiativ saziş imzalamaları o qədər də ciddi uğur hesab edilməyəcək. Çünki Asiyanın Avropaya keçən əsas qapısı Azərbaycandır. Azərbaycan olmadan regionda hər hansı ciddi layihə gerçəkləşə bilməz. Bunu Avropa və Amerika bilir və bugünkü tələsik addımları buna hesablanıb. Lakin unutmayaq ki, Dağlıq Qarabağ məsələsinin həlli o qədər də asan deyil. Çünki Rusiya faktoru burada çox böyük rol oynayır. ASPA-nın məhz bu münaqişənin həllində maraqlı olması və aktivliyi öz üzərinə götürməsinin əsas səbəblərindən biri də ATƏT-in Minsk qrupunda Rusiyanın olmasıdır. Avropa artıq Ukrayna hadisəsi ilə tam əmin oldu ki, Putin Rusiyası hər hansı məsələlərin həllində deyil, daha çox konflikt yaratmaqda maraqlıdır. Cənubi Qafqaz üçün əsas siyasi yüksəliş dövrü 2016-cı ildən sonra başlayacaq. Avropa və Amerikanın yeni Cənubi Qafqaz strategiyası fərqli bir xətt üzrə istiqamət alacaq. Buna görə də Avropa bütün məsələlərdə aktivliyi tam öz üzərinə almaq istəyir. Əgər bu strategiya tam şəkildə baş tutarsa, o zaman burada əsas rol Azərbaycanın üzərinə düşəcək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015



# Hadı müəllimin biznes imperiyası qurduğu rayonun təhsilindən xəbəri varmı?

**Belə təfəkkürə malik bir adamın 4 çağırış parlamentdə Azərbaycanın böyük rayonlarından birini təmsil etməsi ancaq təəssüf doğurur. Onun müəllim haqqında məlum aşağılayıcı fikrindən sonra özünə bəraət qazandırmasına dair fikirləri lap biabırçılıqdır.**

Diqqət edin, o, deyir: "Hadı müəllimi müəllimlərə qarşı qoymaq olmaz. Hadı müəllim təpədən-dırnağa müəllimdir. Özü də mən 15 yaşından çörək qazanıram. 15 yaşından fəhlə işləmişəm. Mən göydən düşən məmur deyiləm". Qəzetlərin birində onun biznes imperiyası haqda statistika dərc olunub. Bura hotel, restoran, sanatoriya, şadlıq sarayı, yanacaqdoldurma məntəqəsi, univermaq, ticarət və iaşə obyektləri, 100 hektarla torpaq sahəsi, villalar daxildir. Təpədən dırnağa müəllim olan Hadı Rəcəbli təhsili bərbad vəziyyətdə olan Lənkəranda məktəb, uşaq bağçası tikdirmir, yaxud təmir etdirmir.

Hadı Rəcəbli 74 saylı Lənkəran kənd seçki dairəsindən deputat olub. İndi Lənkəran kəndlərindəki məktəblərin vəziyyətinə diqqət edin: İstisu qəsəbə, Biləsər kənd, Osaküçə kənd, Viyən kənd, Yuxarı Nüvədi kənd, Xarxatan kənd, Qumbaşı kənd, Tüədo kənd, Sinovli kənd, Tatova kənd, Balıqçılar qəsəbə və Çay fabriki qəsəbə tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb. Boladi kənd 2 saylı və Moloja kənd tam orta məktəblərinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməyib. Kərgəlan kənd, Gəgiran kənd, Xanbulan kənd və İstisu qəsəbə tam orta məktəbləri abituriyentlərinin topladığı orta bal 100-dən aşağıdır.

Rayonun ümumtəhsil müəssisələrini 1735 şagird bitirib, onların 1662 nəfəri buraxılış imtahanında iştirak edib.

Buraxılış imtahanında ana dili fənni üzrə məzunların 73 faizi ana dilindən "2" və "3", 69 faizi riyaziyyat fənnindən "2" və "3" qiymətlər alıblar. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 19.13 faiz, 16.53 faiz, 17.88 faiz aşağıdır. Attestat alanların 1699 nəfərin 872 nəfəri (51.32 faizi) qəbul imtahanlarında iştirak edib.

Rayon abituriyentlərinin qəbul imtahanlarında topladıqları orta bal 192.868-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 15.7 faiz aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb: 0-100 intervalında 38.30 faiz (334 nəfər), 100-200 intervalında 20.64 faiz (180 nəfər), 200-300 intervalında 15.02 faiz (131 nəfər), 300-500 intervalında 19.84 faiz (173 nəfər), 500-dən yuxarı 6.19 faiz (54 nəfər).

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 5.00 faizi 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 37.50 faizdir.

Göründüyü kimi bu acınacaqlı nəticələrlə yanaşı Hadı Rəcəblinin deputat seçildiyi kəndlərdə qiymət şişirdilməsinə yol verilir.

Deputat-professor seçildiyi kəndlərdəki təhsilin acınacaqlı durumundan danışmaq əvəzinə, müəllimlərə fəhlə işləməyi təkli edir.

Hamı dişlərini Təhsil Nazirliyi və onun rəhbərliyinə qıcayıb ki, təhsili düzəldin. Bəs deputatın, icra hakimiyyətinin yaxasından nə vaxt tutacağıq?!

**Mən Hadı müəllimin son və bundan əvvəlki müsahibələrini oxuduqdan sonra belə qənaətə gəlirəm ki, onun alimlik dissertasiyalarını ciddi ekspertiza etmək lazımdır. Məncə, bu işə girişməyin vaxtı artıq çatıb.**

**❑ Etibar ƏLİYEV**
**təhsil eksperti**

# "Böyük Kürdüstan" Yaxın Şərqin şəklini dəyişir

**Yaxın Şərqin siyasi xəritəsində dəyişiklik projesi reallaşmaq üzrədir. İran, Türkiyə, İraq və Suriya torpaqlarında Kürdüstan dövlətinin yaradılması ideyası nəzəri olaraq illər əvvələ söykənsə də, bu istiqamətdə praktik addımlar atıldığı göz qabağındadır.**

## Suriya və İraq ərazilərində kürd dövlətinin yaranması de-fakto reallaşıb, Türkiyə və İran bu geosiyasi layihə ilə üz-üzədir; **Qabil Hüseynli:** "Azərbaycanla bağlı ərazi iddiası irəli sürülə bilməz"

"İraq və Şam İslam Dövləti" (İŞİD) silahlı qruplaşması bütün Yaxın Şərqi qorxu altında saxlamaqda davam edir. Bu fürsətdən yararlanan İraq kürdlərinin lideri Məsud Bərzani Kürdüstanın müstəqil dövlət elan olunması üçün çırmanıb.

Bir ucu Türkiyə, bir başı Suriya, bir ayağı da İraqda olan kürd dövləti dünya güclərinin tarixi arzularıdır. Xüsusilə Amerikanın Kürdüstan dövlətinin yaranışında rolu və marağı böyükdür. Hələlik Suriya və İraq ərazilərində bu layihə reallaşıb. İŞİD-in törətdiyi qətliamların hesabına iki ölkə parçalanıb. Türkiyə isə gərginlik içindədir, İrana da təhdidlər var.

PKK-nın Qəndil rəhbərliyi silahı bir şərtlə yerə qoymağa razıdır ki, Türkiyə konstitusiyası dəyişdirilsin, kürdlərin ölkə daxilində muxtariyyatı tanınsın. Eyni zamanda Azərbaycan ərazilərinə də iddialar var. Kürdüstan dövlətinin tərkibində Laçın, Kəlbəcər, Zəngilan və Qubadlını görmək istəyi var.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Azərbaycanla bağlı ərazi iddiası irəli sürülə bilməz. Onun sözlərinə görə,



Qabil Hüseynli

"Böyük Kürdüstan" ərazisini bəzi bölgələrimizi aid ediblər, amma bu xəstə təfəkkürün məhsuludur. Siyasi şərhçi Yaxın Şərqdə yeni dövlət yaranacağını düşünmür:

"Ağqoyunlu dövləti zamanında hələ Bitlis, Diyarbəkir Azərbaycan əraziləri olub. Van, Qars, Bitlis Səfəvi qızılbaşlarının torpaqları olub. Bu ərazilərdə kürdlər yaşasa da, azərbaycanlılar daha çox olub. Ona görə "Böyük Kürdüstan" üçün bizim torpaqların heç bir tarixi və coğrafi əsası yoxdur. Bu iddianı sabun köpüyü kimi dağıtmaq olar. Sadəcə, Qərb dövlətləri bu ideyadan alver kimi istifadə edir".

**Ekspert deyir ki, Yaxın Şərqin xəritəsində yeni siyasi şəkillənmə vəziyyətin zəncirvari dəyişməsinə, böyük müharibələrə gətirib çıxara bilər:** "Ancaq Avropa Yaxın Şərqdə ərazi dəyişikliklərini, yeni dövlət yaradılmasını müdafiə etmir. Amerikada bir prezidentliyə namizəd kürd dövlət yaradacağını bəyan etmişdi. Bununla Amerika siyasətini ifşa etmişdi. Bu xalqların taleyini Amerika müəyyən edəcəksə, xalqlar ona niyə inanmalıdır?

Avropa Birliyi, xüsusilə Almaniya da bu məsələdə ehtiyatlı davranır. Türkiyəni bəzən şantaj etməyə çalışır. Ancaq Türkiyə rəhbərliyi də ağıllı davranır. Türkiyənin başını ağrıdacaq addımlara yol verməkolmaz. Yaxın Şərqdə böyük oyunlar gedir. Türkiyə elə hərəkət etməlidir ki, böyük oyunlarda böyük güclərin tərəfindən dursun.

Yaxın Şərqdə status - kvonun saxlanması üçün danışıqlar masasında özünə yer tapa bilməlidir. Qeyri-siyasi ardıcıl addımlar ölkə üçün xoşagəlməz situasiya yarada bilər. Hələlik isə Yaxın Şərqdə yeni dövlətin yaranmasına imkan verilməyəcək. Bu məsələdə Türkiyədən torpaq iddiasında olanlar yanılırlar".

**Siyasi analitik hesab edir ki, geosiyasi vəziyyət dəyişməməlidir:** "Əks halda nüvə reaksiyası kimi silsilə dəyişikliklərin yaranmasına səbəb olar. Türkiyənin problemi bizim problem kimi qəbul edirəm".

**❑ E.SALAMOĞLU**

# Azərbaycanda daha bir müdhiş anti-narkotik əməliyyatı

## Nazir külli miqdarda narkotiklə tutulan işçisini qovdu; 2 ton 700 kiloqram heroin məsələsi gündəmə qayıtdı

**Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri nəticəsində külli miqdarda narkotik vasitəni dövlət sərhədindən keçirməyə cəhd edən qrupu ifşa edib.**

DSX-nin mətbuat mərkəzindən verilən məlumata görə, martın 5-də 24 radələrində Cəlilabadın Dələli kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində xidmətin əməkdaşları qaçaqmalçılıq yolu dövlət sərhədindən narkotik maddələri keçirən Salyan rayon sakinləri Hüseynov Rövşən Balaqardaş oğlunu və Mirzəyev Təlatun Abdul oğlunu "Mercedes" markalı, Az 99 NN 353 nömrə nişanlı avtomobillə saxlayıblar. Xidmət əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayaraq gözyaşardıcı qazdan istifadə etməklə hadisə yerindən qaçmağa cəhd göstərən şəxslər sərhədçilər tərəfindən yaxalanıblar. Saxlanılmış şəxslərin üzərinə baxış keçirilərkən 4 kiloqram tiryək, 4 ədəd mobil telefon, 1 ədəd gözyaşardıcı qaz balonu aşkar edilərək götürülüb.

Faktla bağlı DSX-nin İstintaq və Təhqiqat İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 318 (dövlət sərhədini qanunsuz keçmə), 206 (qaçaqmalçılıq), 234 (narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddələri ilə cinayət işi başlanıb, həmin cinayətin iştirakçılarına qeyd olunan maddələrlə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Cinayəti törətmiş digər iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir. Virtualaz.org saytı həbs edilənlərdən biri haqda sensasion məlumatlar əldə edib.




Belə ki, Salyan rayonunun Kürqaraqaşlı kənd sakini olan 1968-ci il təvəllüdlü Rövşən Balaqardaş oğlu Hüseynov Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" ASC-nin Salyan filialının rəhbəri işləyib. Maraqlıdır ki, martın 5-də həbs edilən R.Hüseynov bundan bir gün sonra - martın 6-da işdən çıxarılıb. Qeyd edək ki, kənd təsərrüfatı nazir Heydər Əsədov həmin gün - martın 6-da "Aqrolizinq"in 2014-cü ildəki fəaliyyətinə həsr olunmuş müşavirə keçirib. Nazir fəaliyyətində nöqsanlara yol verən bir neçə əməkdaşı cəzalandırıb. ASC-nin aqrotexniki xidmət və təchizatın təşkili şöbəsinin müdiri və 8 rayonun aqroservis filiallarının rəhbəri tutduğu vəzifədən azad olunub. Vəzifədən azad edilən 8 filial rəhbərləindən biri də R.Hüseynov olub. Amma R.Hüseynov işdən azad olunduğu həmin müşavirədə iştirak etməyib. Çünki bu zaman artıq həbsdə olub. Ona görə də nazir onu işdən, necə deyərlər, qiyabi şəkildə çıxarıb. R.Hüseynov "Aqrolizinq"dəki işindən əvvəl digər vəzifədə çalışıb. O, uzun illər Kürqaraqaşlı kənd bələdiyyəsinin sədri olub. R.Hüseynov barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs-qətimkan tədbiri seçilib. O, hazırda Bakı İstintaq Təcridxanasında saxlanılır. R.Hüseynovla bərabər saxlanılan digər şəxsə Təlatun Mirzəyevə gəlincə isə o da rayonda vəzifə sahibi olub. 2004-2005-ci illərdə "Azərpoçt" İstehsalat Birliyinin Salyan rayon şöbəsinin müdiri olub.

2 məmurun külli miqdarda narkotiklə həbsi 2014-cü il iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) keçirdiyi anti-heroin əməliyyatını yada salıb. Həmin əməliyyat zamanı Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroin partiyası ələ keçmişdi. Rəsmi məlumatda maye heroinin maye halında olan sabun adı altında 30 litrlik 93 çəlləkdə daşındığı bildirilirdi. Qeyd olunurdu ki, əməliyyat zamanı 2 Gürcüstan və 1 Türkiyə vətəndaşı saxlanıb. Sonrakı məlumatlarda yükün son çatdırılma nöqtəsi kimi Moldova göstərilirdi. Bu günə qədər yükün Azərbaycan ərazisinə necə daxil olması haqda rəsmi məlumat yoxdur. 3 tona yaxın heroinlə yüklənmiş maşın Astara Gömrük-Keçid Məntəqəsindən ölkəyə daxil olub və 500 kilometrlik yolu qət etməklə Qazaxdakı gömrük-keçid məntəqəsindən çıxmaqla sərhədlərimizi aşıb. Bu məlumatlar yayılandan sonra belə xəbərlər də vardı ki, heroin partiyası ölkəmizə 2 ton 700 kiloqramdan daha artıq çəkidə daxil olub. Yükü daşıyan maşınının Salyan ərazisində bir neçə saat ləngidiyi də bildirilirdi...

**Bu iki hadisədə marşrut eynidir. Bu səbəbdən sonuncu tutulan şəxslərin əvvəlki narkotik olayı ilə hansısa bağlılıqları olmasına dair də şübhələr yaranır.**

**❑ E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 56 (6084) 14 mart 2015

# Musiqimizdən ərəb-fars ladları yığışdırılsınmı?

**Son illər Azərbaycan musiqisində yad ladlar artmağa başlayıb. Milli musiqimiz kifayət qədər zəngin olduğu halda bu cür yad nəfəslərə ehtiyac hardan yaranır? Nəinki toylarda, hətta konsertlərdə, televiziya verilişlərində də bu açıqca hiss olunur. İfaçılar bəstəkar, xalq mahnılarına ərəb, fars, hind və s. Ladlar əlavə edərək çalıb-oxuyurlar. Mütəxəssislər də bildirilər ki, insanların musiqi zövqü ardıcıl formalaşdırılmalıdır.**

**“Gedək sənə gül dərim,**
**Səni gülə döndərim.**
**Lap istəsən anamı**
**Sizə elçi göndərim.**
**Amma anan bilməsin,**
**amma anan bilməsin..."**

Bu tip bayağı mahnılar azmış kimi, onların səslənməsində İran, ərəb, fars, hind ladları da əlavə edilir. Sanki bayağı mahnıları xalqa “yedirtmək” üçün onlara “bəzək-düzəkli” xarici boğazlar da əlavə edib bəh-bəhlə ifa edirlər. Xarici boğazlara üstünlük verən xanəndə və müğənnilər bunu yenilik kimi qələmə verirlər.

Bəs görəsən tanınmış musiqiçilərin bu barədə mövqeləri necədir?

**Xalq artisti, dünya şöhrətli xanəndə Alim Qasımov** “Yeni Müsavat”ın əməkdaşına verdiyi açıqlamada məsələyə o qədər də aqressiv yanaşmadığını bildirdi. Onun sözlərinə görə, hər bir yaradıcı insanın öz seçimi olduğundan hansısa çərçivə barəsində danışmaq doğru olmaz: “Yaradıcılıq elə bir şeydir ki, ona sərhəd qoymaq artıqdır. Biz rəssama ”rəsmi niyə belə çəkmisən?" və yaxud şairə “sən niyə şerini bu cür yazmısan?” suallarını verə bilmərik. Yəni yaradıcı insanı qarşıya qoyulan çərçivələr sıxır, fəaliyyətinə mane olur, sanki əl-ayağını bağlayır.

Ola bilsin ki, bizim qəbul edə bilmədiyimiz yenilik hansısa yaxşı mahnının və yaxud janrın yaranmasına səbəb olsun. Buna görə konkret hansısa qadağadan danışa bilmərik. Yaradıcı insan öz fəaliyyətini ortaya qoymalı və tamaşaçılar məhz bu zaman məhsulun pis və ya yaxşı olduğunu aydınlaşdırmalıdır. Bir şeyi də unutmaq olmaz ki, xalqın zövqü, seçimi eyni deyil".

**Xalq artisti, Azərbaycan Dövlət Milli Konservatoriyasının professoru Möhlət Müslümov** bu cür halların tamamilə əleyhinə olduğunu bildirib: “Hər xörəyin öz qaşığı var. Əgər yenilik edilirsə də bu gərək lazımi səviyyədə və professional şəkildə edilsin. Belə olmayan halda musiqimiz cılızlaşır, bərbad vəziyyətə düşür. Biz öz musiqimizi daha çox təbliğ etməliyik.

Bəzən ifalarda elə ladlar istifadə edilir ki, bilinmir, özbək, hind, ərəb-fars, yoxsa Azərbaycan musiqisidir".

Xalq artisti Şəfiqə Eyvazova “Yeni Müsavat”a müsahibəsində musiqidə mənasız improvizasiyaların artdığından gileylənmişdi:



**Xanəndə Alim Qasımov:**
“Yaradıcı insanı çərçivəyə salmaq doğru olmaz”



**Bəstəkar Gövhər Həsənzadə:**
“Televiziya kanallarının musiqi bölmələrində yalnız peşəkar musiqiçilər çalışmalıdır”



**Gitaraçı Elman Namazoğlu:**
“Xalq bizdən bu cür ifa istəyir, bir neçə adamın sözü əsas ola bilməz”

“Sənətdə hərcmərclik, sərbəstlik çox artıb. Bu, yaxşı nəticə deyil. Çərçivədən kənara çıxıb, mənasız improvizasiyalar etmək yolverilməzdir. Biz uçuruma gedirik, hər kəs asan yolla şöhrət qazanmaq istəyir. Doğrudur, yaxşı sənətçilərimiz də var və onlar klassikanı yaxşı öyrənərək, səviyyəli şəkildə ifaçılıqla məşğul olurlar. Amma artıq elələri də var ki, aləmi bir-birinə qatırlar. Həddindən artıq sərbəstlik istər musiqidə, istərsə də başqa sahələrdə çox olmamalıdır”.

**Əməkdar artist, bəstəkar Gövhər Həsənzadə** peşəkar musiqiçilərin artıq süni şəkildə musiqidən uzaqlaşdığını dedi: “Bu gün peşəkar musiqilər əvəzinə kommersiya musiqiləri ortalığa çıxıb. Televiziya rəhbərləri də birmənalı olaraq bu cür olaylara nəzarət etmir. Buna səbəb dediyim kimi, ön planda kommersiya maraqlarının dayanmasıdır. Bu gün çox şey reytinq xətrinə edilir. Kimin nə oxuduğu, hansı yaradıcılıqla məşğul olduğu məlum deyil. Onları maraqlandıran yalnız reytinqdir.

Bütün televiziya kanallarının musiqi bölmələrində yalnız peşəkar musiqiçilər çalışmalıdır. Bu amil doğru-dürüst yerinə yetirilmədiyindən efirdə istənilən musiqi lazım gəldi-gəlmədi təbliğ edilir, tamaşaçılara təqdim olunur. Beləliklə olanlara hesabat vermək məsuliyyətindən də kənarda qalırlar.

Bəstəkar kimi məni narahat edən ən mühüm məsələ odur ki, təbliğ edilən musiqilər tamaşaçıların musiqi zövqünü korlayır".

Bildiyimiz kimi, hər bir sahədə olan yenilikləri adətən daha çox gənclər qəbul edir və yaradıcılıqlarında bu yeniliklərdən cəsarətlə istifadə edirlər. Gənclik hər zaman yeniliklərə açıq yanaşır. Bu baxımdan gənc musiqiçilərin də fikirlərini öyrənməyə çalışdıq.

**Qeyd edək ki, ifalarında daha çox İran ladlarından istifadə edən musiqiçilərdən biri də Elman Namazoğludur.** Gitara ifaçısından yad ladlardan istifadə etməsinin səbəbini öyrənməyə çalışdıq. Elman Namazoğlunun sözlərinə görə, Azərbaycanda bir neçə milyon dinləyici bu cür qarışıq ladlı musiqiləri sevir: “Hər bir musiqiçi öz seçimində azaddır. Yəni lazım gəldikdə İran, ərəb, fars, hind musiqilərindən də istifadə edirik. Burda pis bir şey yoxdur. Yaxşı, qulağa yatımlı musiqiləri dinləyib öz yaradıcılığımızda istifadə edirik. Tədbirlərdə, şənliklərdə dinləyicilərin daha çox bu cür musiqiləri sevdiyinin şahidi oluruq. Buna görə də insanların marağını nəzərə alıb yad ladlardan istifadə edirik. Əgər dinləyicilər bizim musiqimizi belə qəbul edirsə, deməli, elə bu cür də davam edə bilərik. Bir neçə milyon insanın istəyini kənardan bildirilən fikirlərə görə qurban vermək olmaz. Bunu bizdən xalq tələb edir. Artıq Azərbaycanda bu cür musiqilər özəlləşib, adiləşib...”

❑ Xalidə GƏRAY

# Gənc yazardan Hadı Rəcəbliyə maraqlı təklif

## “Bəlkə atama məktəbdə iş düzəldəsiz, Füzulini yaxşı bilir”

**Deputat Hadı Rəcəblinin Azərbaycan müəllimləri ilə bağlı verdiyi məlum açıqlama hələ də müzakirə mövzusudur. Hər nə qədər deputat yanlış anlaşıldığını desə də, ilkin söylədiyi fikirlər ətrafında söz atışmaları davam edir. Sosial şəbəkələrdə onun “müəllim 150-200 manata dolana bilmirsə işdən sonra fəhləlik etsin” cümləsinə reaksiya verənlərdən biri də gənc yazar Mirmehdi Ağaoğludur.**

Yazar sosial şəbəkədəki statusunda bu mövzuya fərqli rakursdan baxıb və ilginc təklif edib: “Hadı müəllim, mənim atam daşyonandır. İnsafən pis sənətkar da deyil. 4 ay bundan qabaq Hikmət Tarquliyev adlı bir iş adamı onu Naxçıvana dəvət edib, atam orada onun evində işləyib. Həmin adam Atv-nin keçmiş vitse-prezidenti, ”Hədəf" kurslarının həmtəsisçisi və “Medikal Hospital”ın sahibidir. Kişinin 500 manat alacağını müxtəlif bəhanə ilə (Naxçıvanda qalmaq pulu, yemək xərci) 340 manata endirib. İndi heç onu da vermir. Özü də deyib get lap prezidentə şikayət et".

**“Yeni Müsavat”’a açıqlamasında M.Ağaoğlu bu hekayəni detalları ilə danışdı. Müsahibimizin sözlərinə görə, makler atasını Naxçıvana dəvət edib:** “Atam da gedib, orda Hikmət Tarquliyevin evində daşyonub. Hikmət orda gəlib ustalarla görüşüb və deyib ki, sizin pulunuzu elə bilin mən verəcəm, narahat olmayın, rahat işləyin. Atam da daşyonandı. Şirvanşahların təmirində bir sıra abidələrin, tikintisində iştirak edib. Bərpaçı xəttatdı. Naxçıvanda işi bitəndən sonra makler deyib ki, get Bakıya, orda pulunu verəcəm. Bakıya gələndən sonra 500 manat ödənilməyib. Atam Hikmət Tarquliyevlə görüşüb məsələni danışıb. Amma faydası olmayıb. O deyib ki, ”pulunu maklerə vermişəm, nolsun evimdə işləmisən. Mənlik deyil". Halbuki bu adam pulu maklerdən geri alıb buna verə bilər. Sonuncu dəfə görüşdə makler Hikmət və atam olub. 500 manatı



Mirmehdi Ağaoğlu

340 manata endiriblər ki, sən orda qalmısan. Qalmaq və yemək pulu kimi 160 manat çıxırıq. Daha sonra Hikmət Tarquliyev bu pulu da verməyi rədd edib. Deyib get hara şikayət edirsən et, istəyirsən lap prezidentə şikayət elə, verməyəcəm".

**M.Ağaoğlu atası ilə bağlı yaşanan bu hadisəni nəql edəndən sonra H.Rəcəbliyə də ilginc bir xahiş edib:** “İndi şikayət çıxmasın, olarmı bir məktəbdə atama müəllimlik işi təşkil edəsiz, kişi günortaya kimi gedib orda dərs desin. Allah tərəfi, Füzulini zadı yaxşı bilir”.

❑ Sevinc TELMANQIZI

# Əbədi zəvvar-bələdçi



**Samir SARI**

**Azərbaycan elə ölkədir ki, burada Xudayar bəy və Məmmədhəsən əmi, eləcə də onun eşşəyi gündə bir neçə dəfə adamın yadına düşür. Yüz ildir belədir.**

Yüz ildir Xudayar bəy Vəliqulunun anasını ağladır, Məmmədhəsən əminin eşşəyini çırpışdırır, satıb pulunu qazıya verir, “halal kəbin” kəsdirir, ara yerdə ağsaqqal yüz ildir ən ülvi arzusuna qovuşa, Həcc ziyarətinə gedə bilmir.

Amma adam var ki, son 27 ildə Həcc ziyarətinə 26 dəfə gedib. Əslində son 35 ilin statistikası götürülməlidir. Çünki şeyx-ül-islam Hacı Allahşükür Paşazadə düz 35 ildir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədridir, Məkkəyə 26 dəfə gedən şəxs isə onun qohumu Hacı Qalib Salahzadədir.

Əlbəttə, bu, bir rekorddur. Demirəm, bu faktı tutub Ginnesin rekordlar kitabına salsınlar (hərçənd sala bilərlər), amma gerçəkdən fenomenal hadisədir. Ağır seyidlərin cəddinə and içərəm ki, nəinki ölkəmizdə, hətta regionumuzda Həccə bu qədər gedib-gələn ikinci bir adam ola bilməz. Şəxsən mənə elə biri məlum deyil. 7-8 dəfə zəvvar olan tanıyıram, amma söhbət burada 26 dəfədən gedir.

Dünən çox oxumuş, çox gəzmiş, dərin inanclı adamlardan soruşdum, dedim ki, desinlər, Həccə 26 dəfə getməklə 1 dəfə getməyin arasında dini, mənəvi-psixoloji baxımdan fərq nə qədərdir. Yəni müqəddəs məkanları iki və daha çox, eləcə də iyirmi dəfədən artıq ziyarət edənlər bir dəfə ziyarət edənlərdən daha kamil, daha saf dindar sayılırlarmı. Dedilər, elə şey yoxdur, Həccə təkrar-təkrar getmək heç kəsə əlavə üstünlük qazandırmır.

Bəs Hacı Qalib niyə belə edib? Niyə özünü 26 dəfə zəvvar olmaq zorunda hiss edib?

Dünən sosial şəbəkənin hər sözə bir söz qoşan istifadəçiləri bu xüsusda öz fantaziyalarına güvənərək fərqli versiyalar irəli sürürdülər. Biri yazırdı ki, görünür, iş adamının ziyarəti 26 ildir ki, qəbul olunmur, o da bunu bilir, ürəyi arxayın olmur, hər il təzədən gedir.

Başqa biri yazırdı ki, günahları çox olan adamların hər il getməsi caizdir, bəlkə onda günahlarını bağışlatdıra bilə.

Bir nəfər isə məsələyə praqmatik prizmadan yanaşıb, yazıb ki, bu, bir biznes məsələsidir, Hacı Qalib 26 ildir ki, Həccə zəvvar aparır, onların qrup rəhbəri olur, bələdçilik edir, bu işdən pul qazanır, ona görə gedir.

Əlbəttə, bu, daha ağlabatan versiyadır. Bunu elə Hacı Qalibin özünün də açıqlamaları sübut edir. Məsələn, son illərdə onun mediaya verdiyi açıqlamaların başlıqlarına baxaq, çoxu belədir: “Hacı Qalib Həcc ziyarətinin qiymətlərindən danışdı”.

Düzdür, o, bir inanclı adam kimi Həcc ziyarətinin məziyyət və fəzilətlərindən də danışa bilərdi, amma həmişə ziyarətin qiymətlərindən danışıb. Hər dəfə də sübut edib ki, ziyarətin qiymətləri bizdə heç də dünya standartlarından yüksək deyil, hələ desən, ucuzdur.

İnsaf naminə yazaq ki, bir dəfə cənab Salahzadə hər il öz hesabına Həcc ziyarətinə xeyli adam göndərdiyini də demişdi, amma bunu lovğalıq üçün, öyünərək deməmişdi, təvazökarcasına, utana-utana dilə gətirmişdi. Allah bilir, bəlkə də o, bu faktı deyərkən, jurnalistə “amma bunu yazma” xəbərdarlığı da edib, amma jurnalistləri bilmirsinizmi, əllərinə maraqlı fakt düşəndə mütləq yazarlar.

Gərək “Həccə 26 dəfə getmişəm” faktını da dilə gətirəndə Hacı “amma bunu yazma” deyəydi. Çünki gedən var, getməyən var, çox arzulayan, imkanı çatmayan var, imkanı çatan, həvəsi olan, amma getməyə üzü olmayan var və sair. Bax, odur, Məmmədhəsən kişi yüz ildir ziyarətə gedə bilmir. Ona görə ki, artıq heç kəs ziyarətə piyada və ya eşşəklə getmir, çox adam təyyarə ilə gedir, bir xeyli adam da sərin, hündür, rahat avtobuslarla.

Yol yorğunluğu, fiziki əziyyət baxımından Həcc ziyarəti artıq böyük çətinlik deyil. Pulun çoxdursa, 3-4 saatdan sonra Məkkədəsən. Ona görə də 26 dəfə ziyarətdə olmaq “mən bu əziyyəti 26 dəfə çəkmişəm” demək deyil.

**O Məmmədhəsən əmiydi, iki ay eşşəyin belində qızmar səhralarda ac-susuz yol gedəcəkdi, tapsa, çadırda, tapmasa, açıq havada yatacaqdı. Amma sən minirsən təyyarəyə, düşürsən ən azı 4 ulduzlu oteldə, sonra da qayıdıb ölkədə intervü verirsən.**

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015

# Azərbaycanda növbəti bahalaşma dalğası...

## İqtisadçı-ekspert: “Qiymət artımının qarşısını inzibati yolla almaq mümkün deyil...”

**Azərbaycan bazarının 70 faizini ərzaqla təmin edən və əsas inhisarçı şirkət “Azərsun Holdinq” də qiymətləri artıracağı ilə bağlı anons verib. Holdinqin Müşahidə Şurasının sədri Abdolbari Goozal manatın devalvasiyasına və bu hadisənin biznes sektoruna təsiri barədə fikirlərini açıqlayıb. Goozal bildirib ki, istehsal edilən məhsulların qiyməti dolların bahalaşması qədər, yəni 34 faiz deyil, təxminən 15-17 faiz artacaq.**

Qeyd edək ki, hazırda Azərbaycanın qida bazarının böyük hissəsinə nəzarət edən “Azərsun” yağ, çay, qənd, şəkər tozu, ət konservləri, turşular, duz və digər ərzaq malları istehsal edir. Şirkətin belə bir qərar verməsi isə bazara təsirsiz ötüşməyəcək. Bu qərardan sonra marketlərə baş çəkib şirkətin istehsalı olan ərzaq məhsullarının qiymətinin dəyişib dəyişmədiyi ilə maraqlandıq.

Artıq bir çox marketlərdə “Azərsun”un məhsulları bahalaşmışdı. Belə ki, baş çəkdiyimiz marketlərdə “Azərsun” istehsallı ərzaq məhsullarının qiyməti bu cür idi: “Azərçay” 2 manat 20 qəpik, “Final” çayı 2 manat 30 qəpik, 4 manat 30 qəpik, düyülər 95 qəpikdən 2 manat 5 qəpik arası, mərci 1 manat 70 qəpik, noxud 1 manat 90 qəpik, lobya 1 manat 70 qəpik, makaron 1 manat 20 qəpik - 2 manat, mayonezlər 78 qəpikdən 3 manat arası, yaşıl noxud 75 qəpik - 1 manat 65 qəpik arası.

Yağlardan “Final” duru yağı 2 manat, 2 litrliyi 4 manat 70 qəpik, 5 litrliyi isə 9 manat 15 qəpiyə, “Blendo” yağı 2 manat 35 qəpik, 2 litrlik 4 manat 60 qəpik, 5 litrlik 12 manat 45 qəpik, “Möcüzə” 2 manat 60 qəpik, 2 litrlik 4 manat 80 qəpiyə, 5 litrliyi 11 manat 60 qəpik, “Maral” yağı çəkisinə görə 2 manat 80 qəpik, 3 manat 62 qəpik, 8 manat 75 qəpik, “Ana bala” yağı çəkisinə görə 1 manat 20 qəpik və 10 manat 5 qəpik arası qiymətə idi.

Xatırladaq ki, “Azərsun”un bahalaşma ilə bağlı qərarından öncə də bu məhsulların qiymətində artım müşahidə etmişdik. Satıcılar bunun səbəbini həmin şirkətdən məhsulun onlara baha gəlməsi ilə əlaqələndirmişdilər. Müşahidələrimiz zamanı yerli məhsullarla yanaşı, xaricdən gətirilən məhsullarında qiymətində əvvəlki bahalaşmanın qaldığını gördük.

***

“Azərsun”un qiymət artımına münasibət bildirən **iqtisadçı ekspert Samir Əliyev** şirkətin bir sıra xammal məhsullarını xaricdən gətirdiyini, buna görə də bu addımın başa düşünülən olduğunu bildirdi: “Ölkədə baş verən devalvasiya, manat birdən-birə 34 faiz dəyərdən düşməsi təbii olaraq qiymət artımını şərtləndirən amildir. Hökumət inzibati yolla qiymət artımının qarşısını almağa çalışır. Amma bu çıxış yolu deyil. ”Azərsun" monopolist şirkətdir. Azərbaycanın ərzaq bazarı onun əlindədir. Nəzərə almalıyıq ki, “Azərsun” da bir sıra ərzaq məhsullarını xüsusən də xammalı idxal edir. Təsəvvür edin ki, “Azərsun” ölkəni 100 faiz şəkərlə təmin edir. Amma bu şəkərin xammalının 95 faizi xaricdən gəlir. Ona görə bahalaşmanın yerli istehsalata təsir göstərməyəcək düşüncəsi kökündən yanlışdır. Öncə monopolist şirkətlər aradan qalxmalı, bazar liberallaşmalıdır. İmkan verilməlidir ki, kiçik və orta sahibkarlar inkişaf eləsin. Söhbət yalnız “Azərsun”dan da getmir. Digər kiçik şirkətlər də qiymətləri qaldırmağa məcburdur. Bunun da səbəbi manatın ucuzlaşmasıdır. Bahalaşmanın qarşısını inzibati yolla almaq mümkün deyil".










**İqtisadçı-ekspert bayram qabağı qiymətlərin daha da qalxacağını, ancaq əvvəlki illərdə olduğu kimi, bayramdan sonra heç bir ucuzlaşmanın baş verməyəcəyini bildirdi:** “Azərbaycanda bayram qabağı ərzaq məhsullarının qiyməti həmişə qalxır. Bu hal yenə baş verəcək. Ancaq biz əvvəlki dövrlərdən fərqli olaraq bayramdan sonra ucuzlaşma görməyəcəyik. Təbii ki, bunun zərbəsi istehlakçılara dəyir. Problemi inzibati yox, iqtisadi yolla tənzimləmək lazımdır. Əgər hökumət qiymətlərin qalxmasını istəmirsə, müəyyən bir iqtisadi mexanizmlər təşkil etməlidir. Bunlardan birincisi ərzaq məhsulları üzərindəki gömrük rüsumlarının azaldılması və yaxud dondurulması ilə bağlıdır. Biz bunu unun timsalında da gördük. Xatırlayırsınızsa, un bir neçə dəfə bahalaşdı deyə əlavə dəyər vergisi unun üzərindən müvəqqəti olaraq götürüldü. İkinci iqtisadi addım monopoliyaya qarşı olmalıdır”.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

## «Azercell» fevral ayı üçün facebook sosial şəbəkəsinin lideridir

Azərbaycan mobil bazarının lideri «Azercell» Telekom MMC növbəti dəfə Facebook sosial şəbəkəsindəki rəsmi səhifəsində müştəri istəklərinin 100% cavablama nəticəsini əldə etdi. «Azercell» bu ilin fevral ayı üçün sosial şəbəkə üzərindən müştərilər tərəfindən verilən bütün sualları cavablandırıb və ölkənin bütün brendləri arasında ötən ay üçün liderdir. Xatırladaq ki, «Azercell» dəfələrlə, onlayn müştəri xidmətləri sahəsində rekord göstəricilərə nail olaraq “Socialbakers” beynəlxalq tədqiqat təşkilatından “Socially devoted” (Sosial sədaqətli) sertifikatına layiq görülüb.

2014-cü ilin ikinci rübündə «Azercell» Azərbaycanda ilk dəfə olaraq 100% cavablama nəticəsini əldə edərək rekord göstəriciyə imza atıb. Məlumat üçün bildirək ki, hələ 2012-ci ildə facebook səhifəsində istifadəçilərin verdiyi sualların operativ şəkildə cavablandırılmasına görə «Azercell» ölkədə “Socially devoted” adına layiq görülmüş ilk mobil operator olmuşdur. Sertifikata layiq görülmək üçün səhifə istifadəçilərinin ildən-ilə artan müraciətlərinin cavablandırma səviyyəsi ölçülür. Yüksək istifadəçi sayı ilə bərabər «Azercell» həmçinin, səhifədəki abunəçilərin fəallığı və aktiv istifadəsi baxımından da dəfələrlə ilk yerləri qazanıb.

Onu da qeyd edək ki, sosial şəbəkələrin monitorinqini keçirən məşhur “Socialbakers” şirkətinin apardığı araşdırma göstərib ki, istifadəçilərin sayına görə «Azercell»in Facebook səhifəsi ölkədə ilk yerlərdən birini, mobil operatorlar arasında isə birinci yeri tutur. Hazırda «Azercell»in rəsmi Facebook səhifəsinin istifadəçilərinin sayı 400 000 nəfəri ötüb və bu rəqəm gündən-günə artmaqdadır.

Qeyd etmək istərdik ki, «Azercell» həm sosial şəbəkələrdə rəsmi səhifə, həm də onlayn rejimdə çalışan müştəri xidmətləri yaradan ilk mobil operator olmuşdur. Bu yeniliklərin tətbiqində məqsəd abunəçilərlə daha sıx əlaqənin qurulması, onlara yeniliklər haqqında operativ məlumatın çatdırılması idi. Nəticədə «Azercell» abunəçiləri 24/7 rejimində yüksək keyfiyyətli xidmətdən yararlana bilir və altı fərqli sosial şəbəkənin imkanlarından istifadə edirlər: Facebook, Twitter, Disput.Az, Google+, YouTube və Instagram. Bu şəbəkələrdə verilən suallar ən qısa zamanda, hətta bir neçə saniyə ərzində cavablandırılır.

Telekommunikasiya xidmətlərində liderliyi qoruyan «Azercell» hər zaman olduğu kimi, digər yenilikçi sahələrdə də birinci olmağa, abunəçilərinə ən son texnologiyalara çıxış imkanı yaratmağa çalışır.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz

**«Azercell» Telekom MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell» Ekspres ofisləri, mobil elektron xidməti “Asan İmza” və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51.3% olan «Azercell»-in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2014-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Təcili satılır**

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 57 (6085) 14 mart 2015



# Hansı telefonları dinləyə bilmirlər?

## Texnikanın inkişafı və məxfi əməliyyatlar az qala bunu imkansız edir...

**Mobil telefonların təhlükəsizliyi hər zaman bəşəriyyətin müzakirə mövzusu olub. İş adamları, siyasətçilər, jurnalistlər.... üçün danışıqlarının, yazışmalarının məxfi qalması üçün hər yeni üsul barədə məlumatlanırlar. Dövrümüzün texnikası, piratlar, məxfi əməliyyatlar isə bunları az qala imkansız edir. Amma bununla belə, mobil şirkətlər "ən təhlükəsiz telefonlar" adı ilə yeni texnologiyalar hazırlamaqdan usanmır, bu istiqamətdə davam edirlər.**

Onlardan biri "Silent Circle"dir ki, onlar "Blacphone2" adı ilə bazara yeni telefon çıxararaq onun məxfiliyinə təminat veriblər. "Mobile World Congress-2015" sərgisində nümayiş etdirilən yeni telefon gücləndirilmiş təhlükəsizlik xidməti təklif edir ki, burada da bütün texniki xarakteristika öz əksini tapıb. Ümumiyyətlə, "Blackphone" ilk olaraq insanların şəxsi məlumatlarını gizli saxlamaq zərurətindən yaranıb. Təcrübə göstərir ki, bu məlumatlar bəzən təhlükəsizlik orqanları tərəfindən ələ keçirilir. "Silent Circle" firmasının qənaətinə görə, tarix boyu heç vaxt insanların həyatı indiki kimi xüsusi xidmət orqanlarının nəzarəti altında olmayıb. Bu isə mobil şirkətlərin işini gün-gündən çətinləşdirir.

Kampaniya artıq ilk "Blackphone" partiyasının sifarişi üçün 750 milyon dollar vəsait nəzərdə tutub və yeni nəsil bu məsələdə daha öncəkilərdən xeyli şanslıdır. "Silent Suite" firmasının "Silent Circle" alətlərindən ibarət sisteminə aşağıdakılar daxildir: "Silent Phone" (bu, zəngləri gizli dinləmələrdən sığortalayır), "Silent Text" (eyni şey SMS-lərə də aiddir), "Silent Contacts" (ünvan kitabçasına kənar müdaxilələrin, oğurlanmaların qarşısını alır). Amma sadalanan bu üç xidmət pulludur. "Blackphone" 2 isə iki illik müddətlə bu xidmətlərə çatımlıdır.

Tezliklə bazara "Silent Meeting" adlı xidmət də çıxacaq ki, bu da konfendensial xidmətlər üçün nəzərdə tutulub.

İndi belə bir şey düşünmək olar ki, "Blackphone" 2 alan hər kəs avtomatik olaraq məxfi dinlənmədən, yazışmaların ələ keçirilməsindən sığortalanıb. Amma əslində kommunikativ vasitə olan "Silent Circle" bəyan edir ki, təhlükəsizlik ancaq abonentin ünsiyyət qurduğu qarşı tərəfdə də eyni təhlükəsizlik sistemi olduğu halda, danışıqların yazılmasını, mətnlərin oxunmasını mümkünsüz edir. Məhz buna görə də "Blackphone" 2 alıcıları bir il boyunca "Silent Circle" xidmətinə pulsuz abunəni 3 nəfər yaxın dostuna, ya da ailə üzvünə hədiyyə edə bilər. Sözügedən müddət bitəndən sonra isə istifadəçi qarşısında 3 variant var: ya hər ay bu xidmət üçün 10 dollar ödəməli, ya "Blackphone" 2 əldə etməli, ya da qorunmamış zənglər və mesajlar sisteminə geri qayıtmalıdır.

Bundan başqa, "Silent Circle" öz istifadəçilərini əmin edir ki, heç də hər zəng məxfi xidmət daşımır və məxfilik sistemini işə keçirmək üçün lazım olan zəngləri nəzərə almaq lazımdır. Məsələn, əgər kimsə telefonla pitsa sifariş verirsə, ya da nənəsinə zəng edirsə, bu, xüsusi-xidmət orqanlarının umurunda da olmaz. Bu məqam "Blackphone 2"nin unikallığını üzə çıxır: bu, məxfilik səviyyəsini seçməyə imkan verir.

"Smartfon" telefonlarından istifadə etmirəm və təbii ki, heç kimə SMS yazmıram. Ancaq çox nadir hallarda Twitter səhifəmdə sms yazıb paylaşıram". Bu sözləri **ABŞ prezidenti Barak Obama** ABC telekanalında yayımlanan "Jimmy Kimmel Live" gecə komediya şousunda deyib. O, bütün bunları təhlükəsizlik baxımından etmədiyini açıqlayıb. "İndi bütün telefonlar dinlənilir, səslər yazılır. Buna görə yalnız email ünvanlar vasitəsilə harasa məktub göndərirəm. Ancaq mənim aldığım "Blackberry" telefonu indiyədək qalır", - deyə Ağ Evin sahibi bildirib.

Android sistemli mobil vasitələrdən istifadə edərkən əməl etməli olduğumuz təhlükəsizlik qaydalarını da yaddan çıxarmaq olmaz.

Ekranınızı kilidləyin! Əməl etməli olduğunuz ən əsas təhlükəsizlik tədbiri ekranı kilidləməkdir. Bu tətbiq demək olar ki, bütün cihazlar üçün eynidir. Bunun üçün mobil alətdən istifadə etməyə başlamazdan əvvəl parametrlər bölməsindən təhlükəsizlik və ekran kilidləmə hissəsini seçin. Sizin üçün xüsusi əhəmiyyətli olan qovluqları iki dəfə kilidləyin. Bu mövzuda App Lock tətbiqini "Google Play Store"dan pulsuz yükləyə bilərsiniz.

Mobil telefonunuz itibsə, təşvişə ehtiyac yoxdur Bu mövzuda həm Google, həm də ESET Mobile Security, Anti-Theft tətbiq proqramı sizə unikal təhlükəsizlik tədbirləri təklif edir. Belə ki, səssiz rejimdə olan telefonunuz evdə itsə belə, (divanın, şkafın arxasına düşsə də) Anti-Theft tətbiqi ilə onu asanlıqla tapa bilərsiniz. Eyni zamanda telefonunuz sizdən çox uzaqda olduğu halda başqasının əlinə keçməsin deyə onu kilidləyə və xəritə üzərindən yerləşdiyi ərazini tapa bilərsiniz.

Gizli məlumatlarınızı telefonda saxlamayın. Məsələn, kredit kartınızın şifrəsini və ya şəxsiyyət vəsiqənizdəki fotoşəkili telefonunuzun yaddaşında saxlamağınız təhlükəsizliyiniz baxımından etibarlı deyil. Çünki mobil telefonunuz istəmədiyiniz bir insanın əlinə keçərsə, o asanlıqla bu məlumatlardan istifadə edərək sizin adınızdan müxtəlif xoşagəlməz işlərə imza ata bilər. Düzdür, telefonunuzu itirdiyiniz halda siz eyni zamanda "Google Android Device Manager" və "ESET Mobile Security"də Anti-Theft proqramı vasitəsilə uzaqdan məlumatlarınızı silə bilərsiniz. Amma daha yaxşı olar ki, şəxsi məlumatlarınızı saxlamaq üçün hard disklərdən və mikro kartlardan istifadə edəsiniz.

**Hər proqramı yüklədikdə icazə pəncərəsini diqqətlə oxuyun!** Androiddə tətbiq icazə pəncərələri darıxdırıcı kimi görünsə də, əslində bu sizin mobil sisteminizin təhlükəsizliyini təmin etmək baxımından çox önəmlidir. Bəzi hallarda proqram yükləyərkən icazə pəncərəsi sizdən Android funksiyasına və şəxsi məlumatlarınıza nəzarət etmək üçün icazə istəyir. Əgər bu icazə mətnini oxumadan onunla razılaşırsınızsa, deməli biləərkdən şəxsi məlumatlarınızın təhlükəsizliyini heçə endirirsiniz. Bunun üçün də daha yaxşı olar ki, nə qədər sıxıcı hesab etsəniz də, hər proqramı, tətbiqi yükləyərkən icazə pəncərəsini diqqətlə oxuyasınız.

Telefonla ödəmə edərkən diqqətli olun! Müasir Android cihazlar telefonla ödəmə imkanı təqdim edən NFC sisteminə malikdir. Hətta bəzi ölkələrdəki mağazalarda bununla bağlı ödəmə sistemləri fəaliyyət göstərir. ESET araşdırmaçıları belə qənaətə gəliblər ki, banklarla bağlı hər yeni texnologiya kompyüter hücumları üçün potensial hədəfdir. Buna görə də bu texnologiyadan istifadə edərkən bankdan doğru məlumat alınması və ya birbaşa olaraq NFC sistemi ilə ödəmə edilməsi tövsiyə edilir.

Təhlükəsizlik proqramı istifadə edin! ESET-in məlumatlarına görə, son bir ildə ağıllı telefonlarda mənfi məqsədlərlə işlədilən proqramların sayı 63% artıb. Yəni, heç də istifadə etdiyiniz bütün proqramlar təhlükəsiz deyil. Bunun üçün eyni ilə kompyüterinizi qoruduğunuz kimi cib telefonunuzu da qorumaq məqsədilə mobil təhlükəsizlik (Mobile Security) proqramları istifadə edin!

Amma Android bazasının ən vacib mənfi cəhətlərindən biri onun o qədər də yüksək olmayan təhlükəsizlik sistemidir. "BlackBerry" firması isə hesab edir ki, Blackphone sıradan istifadəçilər üçün daha funksional olacaq, nəinki biznes adamları üçün. Kanada kampaniyası öz bloqunda yazır ki, istifadəçilərin müdafiə üçün ən ideal variantı BES10 (BlackBerry Enterprise Service 10) platformasıdır. O, təkcə informasiyaların yüksək səviyyədə qorunmasını yox, eyni zamanda gizli dinləmə və yazışmalara nəzarətin də qarşısını alır.

Bununla yanaşı, kanadalılar "BlackBerry Balance" və "BlackBerry Guardian" funksiyalarını da istisna etmir ki, bunlar da danışıqların və yazışmaların konfidensiallığına xidmət edir.

❑ S.TELMANQIZI



# Həccə şəxsi pulu ilə adam göndərmək savabdırmı...

## Kənan Rövşənoğlu: "Hər iki tərəf bu işi Allah xatirinə, xalis niyyətlə etməli və pul halal yolla qazanılmış olmalıdır"

**Xəbər verildiyi kimi, bu il müqəddəs torpaqlara getmək istəyənlər 4700-5750 dollar civarında xərc çəkməli olacaqlar. Bu da qonşu ölkələrlə müqayisədə xeyli bahadır. Bildirildiyinə görə, manatın 33 faiz dəyərdən düşməsi Azərbaycandan Həcc ziyarətinə getmək istəyən 3 minə yaxın zəvvarı da çətin durumla üz-üzə qoyub.**

Belə ki, VİP xidmətlərlə Həcc ziyarəti 5750, adi xidmətlərlə isə 4700 dollar olacaq. Azərbaycanda ötən il zəvvarlar nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalmaq şərtilə 3250 manat (4 min dollardan bir qədər artıq-E.P.) nisbətən daha yaxşı şəraitli və yeməklər təklif olunan paket üçün isə 4100 manat (5200 dollar) ödəyirdilər. Müqayisə üçün xatırladaq ki, müqəddəs ünvana bizdən uzaq olan rusiyalı zəvvarlara Məkkədə Ramazanın 10 günü və + Mədinədə üç bayram günü qalmaq 3900 dollara başa gəlir. Rusiyada ekonom tipli ziyarət təklifləri var ki, bu da 3750 dollardır.

Mövzu ilə bağlı Milli Məclisin üzvü, deputat Hacı Qalib Salahzadə (Şeyxin qudası) "Yeni Müsavat"a geniş müsahibəsində maraqlı fikirlər səsləndirib. O, bildirib ki, özü dəfələrlə Həcc ziyarətində olsa da, imkansız adamların bu arzusunu yerinə yetirməsinə də şərait yaradıb: "Mən 500-dən yuxarı adamı şəxsi pulumla Həccə göndərmişəm. Həcc ziyarəti elədir ki, həmin adamı Allah çağırır. Kiməsə yaxşılıq etmək, əl tutmaq insanın öz əməlidir. Mən əlimdən gələni, bacardığımı etmişəm. İmkanım daxilində çalışıram ki, ən azı heç kəsi narazı salmayım".

Maraqlıdır, başqa birini Həcc ziyarətinə yollamaq, bu məsələdə ona yardı etməsi nə dərəcədə savab sayılır? Allah qarşısında bu əməlin, xidmətin qiyməti nədir?

Dini ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Həcc ziyarəti hər bir müsəlmanın ömründə ən azı bir dəfə vacib olur. Onun fikrincə, səhhəti, maddi imkanları, şərait mümkündürsə, müsəlman bir dəfə Həccdə olmalıdır: "Lakin Həcc sadaladığımız şərtlər yerində olarsa vacibdir, yəni sağlamlığı imkan verməyən və yolpulu, ailəsi üçün lazımı xərcləri təmin edə bilməsə ona həcc vacib sayılmaz. Həcc həm də bir ibadətdir. Bu mənada adətən imkanlı müsəlmanlar həccə getmək imkanları olmayan kasıb müsəlmanların həcc ibadətini yerinə yetirməsi, ömründə bir dəfə həcc ziyarətinə gedə bilməsi üçün onlara bu imkanı yaradır. Bu iş savab bir əməl sayılır".

**Amma ekspert dedi ki, hər bir savab əməl kimi bunun da özünəməxsus şərtləri var. Onun sözlərinə görə, hər iki tərəf bu işi Allah xatirinə, xalis niyyətlə etməli və pul halal yolla qazanılmış olmalıdır: "Yəni biri savab üçün oğurladığı pulla həccə adam yollayıb savab qazana bilməz. Bu İlahi nizama ziddir".**

❑ SEVİNC

YENİ MÜSAVAT

Son səhifə

N 57 (6085) 14 mart 2015

# 1 milyon dollarlıq qılınc



Osmanlı tarixinin ən görkəmli hökmdarlarından olan Fateh Sultan Mehmetin məşhur qılıncı ortaya çıxıb - daha doğrusu, qılıncın oxşarı. İstanbulda 39-cu "İstanbul Jewelry Show" qızıl sərgisi qapılarını açıb. Sərginin ən dəyərli nümunələrindən biri də xüsusi olaraq hazırlanan və tamamilə qızıldan ibarət olan qılıncdır. 8 kq qızıldan hazırlanan bu soyuq silah Sultan Mehmetin orjinal qılıncı ilə demək olar ki, eynidir. Onun üzərində yazılan ayələr belə eynidir. Uzunluğu 125 sm, dəyəri isə 1 milyon dollardır. Bu bahalı əşyanı "2014 Best Model Of Turkey" yarışmasının qalibi olan aktyor Caner Tanrıverdi nümayiş etdirib. Onun üzərində bir neçə usta 4 həftə boyunca işləyib.



## "First lady" saraydan qovuldu...

Somaliyə bağlı Somaliland bölgəsi prezident Əhməd Məhəmməd Mahmudun həyat yoldaşı Əminə Varisin xəyanət xəbəri ilə çalxalanır. Yerli mediada çıxan xəbərlərə görə, "first lady" maliyyə naziri Abdi Əziz Samaleyə münasibət təklif etdiyi üçün saraydan qovulub. Maliyyə naziri Əminə Varisin təklifini rədd etməsinə baxmayaraq prezidentin qərarı ilə işdən çıxarıldığını açıqlayıb.

Məlumatlara görə, hadisə Samalenin bir dostu ilə telefon söhbəti zamanı ortaya çıxıb. Maliyyə nazirinin səsini yazan şəxs bunu prezidentə göndərib. Samale bütün bunların onun işdən çıxarılması üçün hazırlanmış plan olduğunu açıqlayıb. Lakin bir çox media nümayəndələri Əminə Varisin daha əvvəllər də belə səhvlər etdiyini yazıblar.



## Ananasın faydaları

İlk olaraq ananas meyvəsini aldığınız zaman böyük görünüşlü olmasına diqqət edilməlidir. Mümkün olduqca ən böyüyü seçilməlidir. Ananas nə qədər böyüksə, yeyilə bilən qismi də o qədər çox olar.

Ananas içindəki liflər sayəsində tac ürək narahatlıqlarını azaldar. Bədəninizdəki natrium nisbətini azaldıb yüksək təzyiq riskini aşağı salır. Həzm sisteminə gücləndirici təsir edir. İltihab önləyici qismindədir. Tərkibində bol miqdarda C vitamini var. C vitamini isə suda həll edilə bilən başlıca antioksidandır. Qulaq infeksiyalarına, soyuq dəyməyə və qrip kimi narahatlıqlarda olduqca təsirlidir. İçindəki təbii maddələr şişi aradan qaldırmağa, əməliyyat sonrası yaraları yaxşılaşdırmağa köməkçidir.

Birbaşa zəiflədici təsiri yoxdur, ancaq şişlik və ödəmin aradan qaldırılmasına köməkçi, həzmi asanlaşdırdığı üçün sağlam şəkildə arıqlamağa yardımçı olur.

# "Ölüb təkrar dirildim..."

Amerikada yaşayan 5 yaşlı uşağın söylədikləri hər kəs şoka salıb. Luke adlı balaca qeyri-adi iddialar ortaya atsa da, hər kəsi buna inandıra bilib. Belə ki, ailəsi uşaqlığından bəri alovdan və yüksəklikdən qorxan Lukenin bu qorxunu zaman keçdikcə beynindən atacağını düşünürmüş. Lakin Luke dili açıldığı zaman bu qorxuların səbəbini izah etməyə başlayıb. O, ilk dəfə anasına söhbət edib: "Mən əslində Pam adlı qadın idim. Qara saçlarım var idi və sırğa taxırdım. İllər əvvəl bir yanğında binadan hoppandığım üçün öldüm. Cənnətə getdim, Allahı gördüm və yenidən bu dünyaya qayıtdım. Oyandığım zaman uşaq idim və siz mənə Luke adını qoydunuz".

Lunekin sözləri anasını qorxuya salsa da, Erika Ruehlman adlı qadın onun dediklərini araşdırmağa başlayıb. Məlum olub ki, 1993-cü ildə Çikaqodakı Paxton adlı hotedə Pamela Robinson adlı bir qadın həyatını itirib. Hoteldə yanğın baş verdiyi üçün qadın yüksəklikdən özünü aşağı atıb və həyatını itirib. Uşağın dedikləri ölülərin dirilməsi haqda deyilənlərin bir daha alovlanmasına səbəb olub.





## Gəlin toyda bəyi tərk etdi

Hindistanda toy zamanı qəribə hadisə baş verib. Gəlin toyun ortasında bəyi tərk edib. Buna səbəb isə bəyin sadə bir toplama əməlini yerinə yetirə bilməməsi olub. Bundan sonra qız elə nikah masasındaca onu qoyaraq ayağa qalxıb və gedib.

Gəlin bəyə sadə sual verib: "15-in üstünə 6 gələndə necə edir?" Bəyin 17 cavabını eşidən gəlin evlənmək fikrindən daşınıb. Bəyin ailəsi qızı fikrindən döndərməyə çalışsa da, bu onlarda alınmayıb. O, gələcək ərinin təhsili ilə bağlı onu aldatdığını deyib. Polisin köməyi ilə ailələrin toydan öncə bir birinə verdikləri hədiyyələr də geri qaytarılıb.

Qeyd edək ki, bənzər hadisə bir müddət öncə də yaşanmışdı. Toyda ürəyi gedən bəyi bağışlamayan gəlin onu mərasimdəki qonaqlardan biri ilə əvəz etmişdi. Buna əsas olaraq isə bəyin sağlamlıqla bağlı problemini gizlətdiyini göstərib.




QOÇ - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

BUĞA - Bir qədər mistik anlamlı təqvim olduğunu nəzərə alın. Tanrıya zidd olan addımlardan yayının, yalnız savab işlər görün. Çalışın ki, dilinizdən yalnız xoş sözlər çıxsın, hamı sizi sevsin.

ƏKİZLƏR - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

XƏRÇƏNG - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

ŞİR - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

QIZ - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

TƏRƏZİ - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

ƏQRƏB - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

OXATAN - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün yaşlı xəstə və ya qohumlarınıza mütləq baş çəkin ki, savablarınız artsın.

OĞLAQ - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

SUTÖKƏN - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

BALIQLAR - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Mesaja görə həbs edildi



İsveçin paytaxtı Stokholmda yaşayan kişi sosial mediada qızlara əxlaqsız mesajlar yazdığı üçün həbs edilib. Bölgə məhkəməsinə çıxarılan Simon Sanu adlı şəxs 5 il müddətinə azadlıqdan məhrum edilib və 70 min avro pul cəzası alıb. Yaşları 13 ilə 18 arasında dəyişən 70 qıza əxlaqsız mesajlar yazdığı iddia edilən S.Sanu bu iş üçün özünə əlavə profillər də açıb. Lakin həbs cəzası aldıqdan sonra peşman olduğunu deyib. Hakim onun dediklərinə inanmadığı üçün ona ən böyük cəzanı verib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.